RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 99 (9266) 13 MAY 2023-cü il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Azərbaycanın qətiyyəti sülhü də bərqərar edəcək



## Avropa enerji təhlükəsizliyində Azərbaycana arxalanır

Ölkəmizin qaz hasilatı ildən-ilə artır. Bu il Azərbaycanda 47,2 milyard kubmetr qaz hasilatı planlaşdırılır ki, onun da 24,5 milyard kubmetri ixrac üçün nəzərdə tutulur. Ötən il isə hasil edilən 46,7 milyard kubmetr qazın 22,3 milyard kubmetri ixrac olunmuşdu. Bu il 12 milyard kubmetr təbii qazın Avropaya nəql olunması proqnozlaşdırılır. Növbəti illərdə digər interkonnektorlar işə düşdükcə isə bu göstərici daha da artacaq.

Avropa dövlətləri isə bu istiqamətdə ölkəmizlə əməkdaşlığın genişləndirilməsində maraqlıdırlar. Bu baxımdan ötən ilin oktyabr ayında Bolqarıstanın paytaxtı Sofiya şəhərində Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun açılışı da Avropanın enerji təhlükəsizliyinin möhkəmləndirilməsində və qaz təchizatının şaxələndirilməsində mühüm rol oynadı. Uzunluğu 182 kilometr olan interkonnektor Bolqarıstanın və Yunanıstanın qaz nəqli şəbəkələrini birləşdirir. Bununla daha bir Avropa ölkəsinin enerji təchizatçısına çevrilən Azərbaycan Bolqarıstanın təbii qaza olan tələbatının 25-30 faizini ödəyəcək.

Eyni zamanda ötən ilin dekabr ayında SOCAR və Rumıniyanın "Romqaz" şirkəti arasında imzalanan müqaviləyə əsasən, bu ilin yanvarın 1-dən Azərbaycandan Rumıniyaya qaz nəql olunur.

→ 3

**Təcavüzkar Hayastan torpaqlarımızı işğal altında saxladığı 30 il ərzində olduğu kimi, 44 günlük müharibədən sonra da riya və məkrlə iki ölkə arasında sülhün əldə olunmasına maneçilik yaradır, barışığa əngəl olmaq üçün ölkəmizə qarşı davamlı hərbi təxribatlar törədir.**

Hayastan postmüharibə dövründə də yalan ritorikasını davam etdirir, ölkəmizə qarşı böhtan xarakterli ittihamlar səsləndirir, beynəlxalq qəhmərçilərinə "bəyanat" adı altında kağız parçaları qəbul etdirməyə çalışır.

Bir sözlə, haylar bütün bu murdar əməlləri ilə həyasızcasına Azərbaycana qarşı ərazi iddialarının bitmədiyini nümayiş etdirirlər. Son günlərdə Hayastanın sərhədyanı bölgələrimizdə hərbi təxribatlar törətməsi də İrəvanın çirkin və xəbis əməllərinin, fitnəkar hayların bölgədə davamlı sülhə qarşı olmalarının göstəricisidir.

### Hay "taktika"sı

Müdafiə Nazirliyindən verilən məlumata əsasən, mayın 10-u axşam saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri Zod istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun üzbəüz mövqelərini müxtəlif növ atıcı silahlardan intensiv atəşə tutmaqla qəsdən təxribat törədib və bu təxribat nəticəsində Azərbaycan Ordusunun hərbi qulluqçusu ağır yaralanıb.

Ermənistan tərəfinə təxribatlarına son qoyulması və qəsdən vəziyyəti gərginləşdirməməsi barədə xəbərdarlıq edilməsinə baxmayaraq, mayın 11-i səhər saatlarından etibarən Ermənistan silahlı qüvvələri vəziyyəti daha da gərginləşdirərək Azərbaycan Ordusunun mövqelərini minaatanlardan atəşə tutub, təxribatlar nəticəsində bir nəfər hərbi qulluqçumuz həlak olub.

→ 5

## "Birliyin iştirakçısı olan dövlətlərin geodeziya, xəritəçəkmə, kadastr və Yerin məsafədən zondla tədqiq edilməsi sahələrində qarşılıqlı fəaliyyəti haqqında 1992-ci il 9 oktyabr tarixli Sazişdə dəyişiklik edilməsi barədə" Protokolun təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

Müstəqil Dövlətlər Birliyinin Hökumət Başçıları Şurasının Minsk şəhərində keçirilmiş 2021-ci il 28 may tarixli iclasında imzalanmış "Birliyin iştirakçısı olan dövlətlərin geodeziya, xəritəçəkmə, kadastr və Yerin məsafədən zondla tədqiq edilməsi sahələrində qarşılıqlı fəaliyyəti haqqında 1992-ci il 9 oktyabr tarixli Sazişdə dəyişiklik edilməsi barədə" Protokol Azərbaycan Respublikasının ona dair qeyd-şərti ilə təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 aprel 2023-cü il*

**◆ Milli Məclisin iclasında**

## İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun illik məlumatı dinlənildi

Mayın 12-də Milli Məclisin növbəti plenar iclası keçirilib. İclası açan Milli Məclisin Sədri Sahibə Qafarova xatırladıb ki, mayın 10-da axşam saatlarından başlayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Zod istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun mövqelərini atəşə tutaraq qəsdən təxribat törədiblər. Qarşı tərəfin hədəfli atəşi nəticəsində bir hərbi qulluqçumuz şəhid olub, digəri isə ağır yaralanıb.



Təxribatın qarşısını almaq üçün Azərbaycan Ordusunun bölmələri tərəfindən qəti cavab tədbirləri görüldüyünü bildirən Milli Məclisin Sədri şəhid olmuş hərbi qulluqçumuza Allahdan rəhmət, yaralı hərbçimizin isə tezliklə sağalması arzularını ifadə edib.

Milli Məclisin Sədri qeyd edib ki, törədilən təxribata görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür. Ermənistanın bu təxribatda əsas məqsədi hazırda aparılan sülh danışıqlarını pozmaqdır.

Sonra iclasda cari məsələlərin müzakirəsi keçirilib. Komitə sədrləri Siyavuş Novruzov, Zahid Oruc, deputatlar Elnur Allahverdiyev, Elşad Mirbəşir oğlu, Qüdrət Həsənquliyev, Bəhruz Məhərrəmov, Etibar Əliyev, Ceyhun Məmmədov, Naqif Həmzəyev, Sahib Alıyev çıxış ediblər. Millət vəkilləri Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş tədbirlər, ölkə Prezidenti İlham Əliyevin Şuşadan səsləndirdiyi müraciəti ilə bağlı fikirlərini bildiriblər.

→ 4

## Dost hədiyyəsi

### İşğaldan azad edilmiş ərazilərimizdə Özbəkistan məktəb, Qazaxıstan isə uşaq yaradıcılıq mərkəzi tikir

**Düşmən 30 il ərzində Qarabağda və Şərqi Zəngəzurda onlarca şəhər və kəndimizi yerləyeksan etdi. Düşündü ki, o yerlərə dönəcək yollarımızı bağlamaq üçün bu da bir vasitədir.**

Düşünmədi ki, Azərbaycan 44 gün ərzində onu susdurmağa, darmadağın etməyə qadirdir. Üstəlik, dağıdılanları təzədən qurmağa maddi gücümüz, siyasi iradəmiz də var.

İşğaldan azad edilmiş kəndlərimizdə və şəhərlərimizdə başlanan genişmiqyaslı və çoxşaxəli bərpa-quruculuq işlərinə dostlarımız da qoşuldular. Belə ki, burada ilk vaxtlardan Azərbaycan müəssisələri ilə birgə qardaş Türkiyə şirkətləri də işləməyə başladılar. Sonra Qarabağın və Şərqi Zəngəzurun qurucuları arasında digər dost ölkələrin şirkətlərinin nümayəndələri də göründü. Təkcə o faktı xatırlatmaq kifayətdir ki, Zəngilan rayonunda reallaşan ilk "ağıllı kənd" layihəsində Türkiyə, İtaliya, Çin, İsrail şirkətlərinin mütəxəssisləri müxtəlif təyinatlı işlər yerinə yetirərək dost münasibəti nümayiş etdirdilər.

Azərbaycanın nüfuzu, müxtəlif ölkələrlə qurduğu əməkdaşlıq və tərəfdaşlıq, eləcə də dostlarımızın düzgün əqidəsi düşmənə gözdağıdır. Dost və qardaş ölkələr işğaldan azad olunmuş ərazilərimizə artıq ilk hədiyyələrini də ediblər. Məsələn, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev hələ xeyli bundan əvvəl Füzuli şəhərində orta məktəb tikdirməyi qərara aldı. Məktəb artıq inşa edilməkdədir.

→ 3

## Şuşada "Şuşa - Türk dünyasının mədəniyyət paytaxtı" ilinin rəsmi açılış mərasimi keçirilib

Mayın 12-də Şuşa şəhərində Mədəniyyət Nazirliyi və TÜRKSOY-un birgə təşkilatçılığı ilə "Şuşa - Türk dünyasının mədəniyyət paytaxtı - 2023" ilinin rəsmi açılış mərasimi keçirilib.




AZƏRTAC xəbər verir ki, "Şuşa şəhərinin 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2022-ci il tarixli Sərəncamına uyğun olaraq təşkil edilən tədbirdə dövlət rəsmiləri, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı - TÜRKSOY-a üzv ölkələrin nümayəndə heyətləri, türk əməkdaşlıq təşkilatlarının rəhbərləri və digər qonaqlar iştirak ediblər.

Əvvəlcə qonaqlar "Qarabağ" hotelinin qarşısında təşkil olunmuş "Kulinariya və sənətkarlıq" guşəsi ilə tanış olublar.

→ 7

## Hayastan sülh prosesini yenidən pozmaq istəyir

Şuşadakı atəşfəşanlıq hayları rahat yatmağa qoymayıb: Ona görə təxribatlarını növbəti dəfə işə salıblar. Lakin onların bütün cəhdləri əbəsdir. Nəzərə almaq lazımdır ki, Azərbaycan bu gün ərazi bütövlüyünü qorumaq üçün lazım olan hər şeyə qadirdir. Prezident, Ali Baş Komandan İlham Əliyevin möhkəm siyasi iradəsi, güclü, müasir olan Azərbaycan Ordusu və xalqı "dəmir yumruğ"a çevirə bilən azərbaycançılıq ideologiyası dövlətimizin gücünə güc qatır.

→ 5

## Torpağın bol bəhəri

Hər tərəf yaşıllığa bürünüb. Rahat şose yolla irəlilədikcə kartof, çiyələk, üzüm sahələri bir-birini əvəz edir. M.İsmayılovun dediklərindən məlum olur ki, çalışdığı nümayəndəlik üç yaşayış məntəqəsini - Muğan, Söyüdlü və Maşlıq kəndlərini əhatə edir. Bu üç kənddə 1874 təsərrüfat olmaqla 8,1 min nəfərdən çox əhali yaşayır. Sovetlər zamanında həmin kəndlərdə sovxoz təsərrüfatları mövcud olub. İnsanlar bu təsərrüfatlardakı üzüm bağlarında, taxıl sahələrində, heyvandarlıq fermalarında çalışmaqla ailələrini dolandırıblar.



→ 8

## Ordumuzun mövqeləri atəşə tutulub

Mayın 12-si saat 17:15-də Ermənistan silahlı qüvvələrinin Basarkeçər rayonunun Zod istiqamətində yerləşən bölmələri Azərbaycan Ordusunun üzbəüz mövqelərini minaatanlardan atəşə tutublar.

* * *

Mayın 12-si saat 18:00 radələrində Ermənistan silahlı qüvvələrinin Basarkeçər rayonunun Zod istiqamətində yerləşən bölmələri Azərbaycan Ordusunun üzbəüz mövqelərini D-30 topları və minaatanlardan atəşə tutublar. Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bölmələrimiz tərəfindən adekvat cavab tədbirləri görülür. Şəxsi heyət və texnika baxımından itkimiz yoxdur.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu!

Bütün Dağıstan xalqı adından və şəxsən öz adımdan Sizi atanız - dünyada dərin hörmət və ehtiram qazanmış görkəmli dövlət və siyasət xadimi, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əlirza oğlu Əliyevin anadan olmasının 100 illiyi münasibətilə təbrik edirəm.

Heydər Əlirza oğlu bütün həyatı boyu öz xalqına və Vətəninə sədaqətlə xidmət edib. Biz Azərbaycanın müasir tarixində onun xidmətlərinin silinməz izlərini görürük. Böyük siyasi xadimin ardıcıl fəaliyyəti sayəsində respublika çətin sınaqlardan uğurla çıxıb və bu gün tərəqqi yolu ilə inamla irəliləyir. Heydər Əliyevin xalqa müraciətində dediyi kimi: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək". Belə də oldu. Siz, hörmətli İlham Heydər oğlu, atanızın, xalqın dahi oğlunun vəsiyyətlərinə sadiqsiniz. Əminəm ki, gələcəkdə də Sizi öz yolunuzda yalnız nailiyyətlər və qələbələr gözləyir.

Sizə səmimi-qəlbdən cansağlığı, rifah və ali dövləti vəzifənizdə böyük uğurlar, qardaş Azərbaycan xalqına isə sülh, əmin-amanlıq və davamlı tərəqqi arzulayıram.

*Hörmətlə,*

***Sergey MƏLİKOV,***
***Rusiya Federasiyasının Dağıstan Respublikasının rəhbəri***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

İcazə verin, atanız Heydər Əlirza oğlu Əliyevin anadan olmasının 100 illiyi ilə əlaqədar ən səmimi təbriklərimi Sizə çatdırım.

Tatarıstanlılar Azərbaycan xalqının dahi oğlu, adı doğma ölkəsinin tarixinə əbədi yazılmış, Tatarıstan-Azərbaycan əməkdaşlığının təşəkkülündə və inkişafında mühüm rol oynamış görkəmli siyasət və dövlət xadimini - çox hörmətli Heydər Əlirza oğlunu böyük minnətdarlıq və dərin hörmətlə xatırlayırlar.

Xalqlarımız arasında etimad və dostluq ənənələrini qoruyub saxlamaq və möhkəmləndirmək üçün Sizin atanız, çox hörmətli Heydər Əlirza oğlu tərəfindən göstərilən səyləri davam etdirmək bu gözəl insanın nurlu xatirəsi qarşısında bizim ümumi borcumuzdur. Ümidvaram ki, biz Tatarıstan və Azərbaycan arasında əməkdaşlığın Rusiya-Azərbaycan münasibətləri kontekstində dinamik şəkildə inkişafı, adlı-sanlı sələflərimizin məhsuldar təşəbbüslərinin layiqli davamçısına çevrilməyə qadir olan yeni məzmunla zənginləşməsi üçün zəruri olan hər şeyi birgə həll edəcəyik.

Sizə möhkəm cansağlığı, firavanlıq, gözəl Azərbaycanın rifahı naminə ali dövləti vəzifənizdə uğurlar arzulayıram.

*Dərin hörmətlə,*

***Rüstəm MİNNİXANOV,***
***Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi, "Rusiya-İslam dünyası" Strateji Baxış Qrupunun sədri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident İlham Əliyev!

Ölkələr arasında münasibətlərin xarakterinin müəyyən olunmasında liderlərin rolu çox böyükdür. Azərbaycanın mərhum Prezidenti Heydər Əliyevin 100 illik yubileyinin qeyd edildiyi bu günlər onun irsini və Azərbaycandakı yəhudi icmasına töhfəsini, həmçinin Azərbaycan və İsrail arasında münasibətlərin əsasını qoyan ilk addımlarını xatırlamaq üçün gözəl fürsətdir.

Zati-aliləri, Siz bu gün atanızın yolunu və siyasi kursunu layiqincə davam etdirirsiniz. Biz bu yubiley ilini rəmzi olaraq İsraildə Azərbaycan səfirliyinin açılması ili kimi qeyd edirik.

Mərhum Prezident Heydər Əliyevin xatirəsinə və zati-alinizin siyasətinə İsraildə böyük ehtiram bəslənilir.

*Ən xoş arzularla,*

***Tzipi LİVNİ,***
***2006-2009-cu illərdə İsrailin xarici işlər naziri, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin Qəyyumlar Şurasının üzvü***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Rusiya Federasiyası Müsəlmanları Ruhani İdarəsinin adından və şəxsən öz adımdan Sizi və bütün qardaş Azərbaycan xalqını əlamətdar tarix - Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi münasibətilə ürəkdən təbrik edirəm.

Sovet İttifaqının rəhbərlərindən biri olmuş, ağır sınaq illərində Azərbaycana başçılıq etmiş xalqın görkəmli oğlunun xatirəsi bir çox ölkələrdə hörmətlə anılır. Rusiya müsəlman ruhaniləri də göndərilən təbriklərə dərin ehtiramla qoşulurlar. Məhz bu yubileyə müxtəlif tədbirlər həsr olunub, onların arasında bizim Moskva İslam İnstitutunda Azərbaycan alimlərinin, tanınmış mədəniyyət və elm xadimlərinin iştirak etdikləri Azərbaycan Elm və Mədəniyyət Günləri də var.

Sizin rəhbərliyinizlə qazanılan şəksiz qələbələr və Azərbaycanın parlaq uğurları bizdə xüsusi sevinc hissi doğurur. Azərbaycanın iqtisadi, siyasi, mədəni uğurları əsası Heydər Əliyev tərəfindən qoyulmuş təşəbbüslərin davamlılığının ən yaxşı təsdiqidir. Biz bunu Rusiya və Azərbaycan xalqları arasında tarixi qardaşlıq münasibətlərinin inkişafı və möhkəmlənməsində, konfessiyalara və millətlərə ardıcıl dövlət dəstəyində sevinclə müşahidə edirik.

Çox hörmətli Heydər Əliyevin öz xalqı, Vətəninin tərəqqisi, şöhrəti naminə fədakar xidmətləri xüsusi qeyd edilməlidir. Bu dahi dövlət xadiminin 100 illik yubileyinin qeyd olunduğu bu günlərdə Uca Allaha ona öz mərhəmətini bəxş etməsi üçün dua edirəm.

*Hörmətlə və xeyirxah dualarımla,*

***Müfti şeyx Ravil QAYNUTDİN,***
***Rusiya Federasiyası Müsəlmanları Ruhani İdarəsinin sədri, Rusiya Prezidenti yanında Dini Birliklərlə Qarşılıqlı Fəaliyyət Şurasının üzvü***

❖ ❖ ❖

Zati-aliləri, hörmətli cənab Prezident!

Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Sizə öz adımdan və "Total Energies" şirkəti adından ən səmimi ehtiramımı bildirirəm.

Bu əlamətdar gündə müstəqil Azərbaycanın qüdrətli, davamlı iqtisadi inkişafa malik dövlətə çevrilməsi yolunda Heydər Əliyevin siyasi və iqtisadi sahələrdə misilsiz əməyini xüsusi qeyd etmək istərdim. Onun rəhbərliyi ilə və yeni neft strategiyası sayəsində Azərbaycan özünü etibarlı qlobal tərəfdaş kimi təsdiq etmiş, ölkədə xarici investorlar üçün əlverişli şərait yaranmış və eyni zamanda dövlət maraqları qorunmuşdur.



Mən həmçinin Avropa İttifaqının əhəmiyyəti artan enerji təhlükəsizliyi sahəsində Azərbaycanın etibarlı enerji təchizatçısı qismində davamlı uğurunu təşviq etmək üçün Sizin rəhbərliyinizlə "Total Energies" ilə Azərbaycan Respublikası arasında əməkdaşlığın daha da möhkəmlənməsi və genişlənməsinə ümid edirəm.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Regis AGUT,***
***"Total Energies" şirkətinin Azərbaycan üzrə icraçı direktoru***

❖ ❖ ❖

Hörmətli Prezident Əliyev!

Sizi və Azərbaycan Respublikasının sevimli xalqını hörmətli atanızın, Ümummilli Lider, müstəqil Azərbaycan dövlətinin banisi Zati-aliləri Heydər Əliyevin 100 illik yubileyi münasibətilə təbrik edirəm.

Heydər Əliyevin xatirəsi Azərbaycan xalqı tərəfindən ehtiramla anılır, çünki o, Azərbaycanı parçalanmaq təhlükəsindən xilas etmiş, onu inkişaf yoluna çıxarmışdır. Prezidentliyi dövründə o, mədəniyyətə və təhsilə, o cümlədən beynəlxalq əməkdaşlığın təşviqinə böyük önəm vermişdir.

Bu əlamətdar günlər atanızın xatirəsini yad etmək və onun yolu ilə gedərək qazandığınız nailiyyətlərə nəzər yetirmək üçün gözəl fürsətdir. Azərbaycanın müdrik lideri kimi, Siz atanızın uğurlarını artıraraq ölkənizi tolerantlığın, beynəlxalq ictimaiyyət tərəfindən dinlərarası əməkdaşlığın yüksək ehtiram göstərildiyi mərkəzə çevirmisiniz.

İsrail ilə Azərbaycan arasında güclü münasibətlərin əsasını Sizin atanız qoymuşdur. Bu il Siz onun müdrik siyasətini davam etdirərək Təl-Əvivdə səfirlik açdınız.

Bütün bu nailiyyətlərə görə Sizi ürəkdən təbrik edir, dost Azərbaycana davamlı uğurlar arzu edirəm.

Dərin hörmət və ehtiramla,

***Ravvin Mark ŞNAYER,***
***ABŞ-nin Etnik Anlaşma Fondunun təsisçisi və prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Dost Azərbaycan Respublikasında atanız - Ümummilli Lider Heydər Əliyevin yüzillik yubileyini qeyd etdiyiniz bu əlamətdar günlərdə Sizə ən xoş salamlarımı çatdırır, dərin minnətdarlığımı bildirirəm.

Ölkələrimizi birləşdirən dostluq və Sizi Əlahəzrət Kral II Abdullah İbn Əl-Hüseyn ilə bağlayan qardaşlıq münasibətləri ilə fəxr etdiyimi, bu əlamətdar günü qeyd edərkən Sizin və əziz xalqınızın yanında olduğumu vurğulamaq istərdim.

Ulu Öndər Heydər Əliyev görkəmli dövlət xadimi olaraq Azərbaycanı sürətli inkişaf yoluna çıxarıb. Odur ki, bu gün onun ölkəsi, xalqı və dövləti qarşısında misilsiz xidmətləri dərin ehtiramla yad edilir.

Zati-aliləri, iki il əvvəl İordaniyada mötədillik və dinlərarası dialoqun inkişafı sahəsində görülən işlər barədə çıxış edərkən mərhum dahi şəxsiyyətin ölkənizdə mötədillik, dinlərarası ahəng və multikulturalizm prinsiplərinin təbliğində, insan hüquq və azadlıqlarının təminində, ekstremizm və terrorizmə qarşı mübarizədə əldə etdiyi nailiyyətlərə heyranlığımı bildirmişdim.

Bakıya səfər etmək və zati-alinizlə görüşmək şərəfinə nail olduğum zaman Azərbaycanın qazandığı böyük nailiyyətlər münasibətilə Sizi təbrik etmək istərdim.

Azərbaycan xalqının Ümummilli Liderinin xatirəsinə dərin ehtiramımı ifadə etməklə yanaşı, zati-alinizə ölkəniz və xalqınızın rifahı naminə ali dövləti fəaliyyətinizdə Uca Tanrıdan müvəffəqiyyətlər diləyirəm.

*Dərin hörmətlə,*

***Nəbil HƏDDAD,***
***İordaniyanın Dinlərarası Birgəyaşayış Araşdırmalar Mərkəzinin sədri***

❖ ❖ ❖

Çox hörmətli cənab Prezident!

Sizi və bütün Azərbaycan xalqını əlamətdar yubiley - Ümummilli Lider Heydər Əlirza oğlu Əliyevin anadan olmasının 100 illiyi münasibətilə təbrik edirəm.

İstər sovet Azərbaycanının, istərsə də müstəqil Azərbaycanın inkişafında Heydər Əlirza oğlu Əliyevin tarixi xidmətləri vardır. Sovet Azərbaycanı dövründə iqtisadiyyat, elm, sənayeləşmə, kənd təsərrüfatı, mədəniyyət və s. sahələrdə sıçrayış baş verdi. Heydər Əliyev ikinci dəfə respublikaya müasir Azərbaycanın tarixinin ən mürəkkəb mərhələsində, faktiki olaraq başlanan vətəndaş müharibəsi və siyasi hərc-mərclik dövründə rəhbərlik etdi. Bu keşməkeşli siyasi şəraitdə onun dahiyanə təşkilatçılıq bacarığı və vətənpərvərlik mövqeyi özünü daha parlaq şəkildə göstərdi.

Bütün bu hadisələr gözlərimin önündə baş verdiyindən mən öz yaşıma uyğun dəyərləndirə bilərəm ki, bu, necə çətin idi və Heydər Əlirza oğlu hansı istedada malik idi.

Sözsüz ki, mən bu sətirləri yazanda Heydər Əlirza oğlunun şəxsi ünsiyyət təcrübəsini də yada salıram. Bu, həm onun qayğılarına qaldığı və müalicələrində mənim də iştirak etdiyim pasiyentlərlə, həm də Rusiyada Azərbaycan diasporuna onun xeyir-duası ilə mənə tapşırılan rəhbərliklə bağlıdır. Mən bu dahi insanın xatirəsi qarşısında baş əyirəm.

Çox hörmətli cənab Prezident, Siz atanızın layiqli oğlusunuz və dahi Heydər Əlirza oğlunun yerinə yetirilməsini arzuladığı məsələlərin həyata keçməsinə nail olmusunuz. Siz 44 günlük müharibədə Qələbə qazanan xalqın layiqli Prezidentisiniz!

*Dərin hörmətlə,*

***Məmməd ƏLİYEV,***
***Rusiya Elmlər Akademiyasının və Rusiya Tibb Elmləri Akademiyasının akademiki, "Dostluq", "Şöhrət" ordenləri, Azərbaycan Respublikası Prezidentinin Fəxri diplomu ilə təltif edilmiş, Rusiya Federasiyasının dövlət mükafatı laureatı, Rusiya Hökumətinin mükafatı laureatı, Rusiyanın Əməkdar elm xadimi***

❖ ❖ ❖

Zati-aliləri, çox hörmətli İlham Heydər oğlu!

Sankt-Peterburq və Rusiyanın Şimal-Qərb Regionu Müsəlmanlarının Ruhani İdarəsi Sizə öz ehtiramını ifadə edir və zati-alinizə firavanlıq, Uca Yaradanın mərhəmətini arzulamaq şərəfini duyur.

Bu il mayın 10-da bütün dünyada ehtiram və nüfuz qazanmış görkəmli siyasi xadim, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illiyi tamam oldu. Ruhani idarəsi Sizin 2023-cü ilin Azərbaycan Respublikasında "Heydər Əliyev İli" elan edilməsi barədə Sərəncamınızı ürəkdən dəstəkləyir. Azərbaycan Respublikasında və Rusiya Federasiyasında bu əlamətdar tarixə həsr olunmuş çoxsaylı tədbirlər keçirilir.

Heydər Əliyevin Azərbaycan Respublikası və ümumilikdə keçmiş Sovet İttifaqının tarixində misilsiz xidmətləri olub. Heydər Əliyev keçmiş SSRİ-nin rəhbərlərindən biri olmuş yeganə azərbaycanlıdır.

O, 1980-ci illərdə beş il müddətinə Sov.İKP Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü olub. Bu dahi şəxsiyyət Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında strateji əməkdaşlığın bünövrəsini qoyub, dövlətlərimizin və xalqlarımızın dostluğunun, qarşılıqlı anlaşmasının möhkəmlənməsinə böyük şəxsi töhfə verib.

Heydər Əliyevin qarşısında miqyasına görə misilsiz vəzifə dururdu. Onun titanik fəaliyyətinin nəticəsində Azərbaycanın sənayesi kökündən dəyişdi, bütün infrastruktur yeniləndi və iqtisadiyyatda islahatlar, modernləşmə həyata keçirildi, respublikanın qədim paytaxtı intibah dövrünü yaşadı.

Heydər Əliyevin dinə, milli-əxlaqi dəyərlərə hörməti onun əməllərində əksini tapır, bütün dünya müsəlmanlarının xatirəsində yaşayır. Heydər Əliyev Sankt-Peterburqa səfərləri zamanı həmişə bu şəhərdəki Sobor məscidinin fəxri qonağı olurdu. Rusiyanın Sankt-Peterburq və Şimal-Qərb regionunun müsəlmanları onun şəxsiyyətini qəlblərində gözəl hisslərlə xatırlayırlar.

Sankt-Peterburqda Heydər Əliyevlə bağlı çoxlu xatirə məkanları var. Şəhərin Heydər Əliyevin 1949-1950-ci illərdə təhsil aldığı SSRİ DTN-in ali məktəbinin yerləşdiyi mərkəzi küçələrindən birində görkəmli siyasət və dövlət xadimi, Ulu Öndərin şərəfinə xatirə lövhəsi qoyulub. Rusiya Federasiyasının mədəniyyət paytaxtının sakinləri Azərbaycan Prezidenti Heydər Əliyevin Sankt-Peterburqa hədiyyəsini - dahi Azərbaycan şairi Nizami Gəncəvinin gözəl abidəsini xatırlayırlar.

Sevindirici haldır ki, Siz bu gün Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu siyasətini uğurla davam etdirirsiniz. Siz həmişə ölkədə insan hüquqları və azadlıqlarının təmin edilməsinə, dini-mənəvi dəyərlərin inkişafına xüsusi diqqət yetirirsiniz.

Ruhani idarəsi fürsətdən istifadə edərək Sizə öz dərin ehtiramını bildirir və Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında dini, iqtisadi, sosial, siyasi və digər sahələrdə səmərəli əməkdaşlığın davamlı inkişafını arzulayır.

*Dərin hörmətlə,*

***Müfti Ravil PANÇEYEV,***
***Sankt-Peterburq və Rusiyanın Şimal-Qərb Regionu Müsəlmanlarının Ruhani İdarəsinin sədri***

❖ ❖ ❖

Zati-aliləri!

Xahiş edirəm, Azərbaycan xalqının Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, atanız Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə "Masdar" şirkəti adından ən xoş arzularımı qəbul edin.

Heydər Əliyev Azərbaycanın uzunmüddətli inkişafına töhfə verən, güclü enerji iqtisadiyyatını formalaşdırmaq üçün mütərəqqi strategiyanı müəyyənləşdirən dahi dövlət xadimi idi. Bu gün həmin strategiya Sizin rəhbərliyinizlə uğurla davam etdirilir. "Masdar" şirkəti həmin strategiyanı dəstəkləməkdə mühüm rol oynamaqdan şərəf duyur və biz dünya səviyyəli təmiz enerji layihələrinin inkişafı istiqamətində birgə işləməyə davam etdiyimiz üçün Azərbaycanla tərəfdaşlığımızı yüksək qiymətləndiririk.

Cənab Prezident, dahi Ümummilli Liderin anadan olmasının 100 illiyi və "Heydər Əliyev İli" münasibətilə Sizi bir daha səmimi-qəlbdən təbrik edirəm.

*Hörmətlə,*

***Məhəmməd Cəmil Əl-RAMAHİ,***
***Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətinin baş icraçı direktoru***

❖ ❖ ❖

Zati-aliləri, möhtərəm cənab Prezident!

Qəlbimizdə xüsusi yeri olan dost və qardaş ölkə can Azərbaycanın sevinci, xoşbəxtliyi, firavanlığı və əmin-amanlığı bizdə böyük qürur hissi doğurur. Güclü və qüdrətli Azərbaycanın Ulu Öndəri Heydər Əliyevin anadan olmasının 100 illiyi və bu ilin "Heydər Əliyev İli" elan edilməsi münasibətilə Zati-alinizə və əziz Azərbaycan xalqına dərin ehtiram və təbriklərimi çatdırmaq istəyirəm.

Möhtərəm Prezident, Qarabağı böyük Zəfərlə işğaldan azad etməyiniz hər şeydən əvvəl ona görə təqdirəlayiqdir ki, həmin müqəddəs torpaqların işğaldan azad olunmasını Ümummilli Lider Heydər Əliyev Sizə vəsiyyət etmişdi. Siz Ulu Öndərin vəsiyyətini yerinə yetirdiniz, yüksək liderlik keyfiyyətlərinizlə o müqəddəs torpaqları azad etdiniz, həm də can Azərbaycanı dünyanın parlayan ulduzuna çevirdiniz.

Monteneqronun müsəlman əhalisinin və digər millətlərin nümayəndələrinin Azərbaycanı sevdiyini və dəstəklədiyini bütün qəlbimlə bildirmək istərdim. Azərbaycan ilə Monteneqronun çox yaxşı diplomatik və gözəl dostluq münasibətlərindən qürur hissi duyuruq.

Allah dostluğumuzu və sevgimizi daimi etsin.

Yaşasın Azərbaycan!

Yaşasın Azərbaycan-Monteneqro dostluğu!

Ən dərin hörmət və ehtiramlarımla,

***Rifat FEJZİÇ,***
***Monteneqronun İslam İcmasının sədri***

❖ ❖ ❖

Çox hörmətli cənab Prezident!

Türk dünyasının böyük oğlu, adı ən nüfuzlu tarixi şəxsiyyətlərlə yanaşı çəkilən, həyatı və fəaliyyəti ilə nəsillərə örnək olan Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyini böyük qürur hissi ilə qeyd edirik.

Ümummilli Lider Heydər Əliyev 1990-cı illərin əvvəllərində vətəndaş müharibəsi, parçalanmaq, müstəqilliyini itirmək təhlükəsi ilə qarşılaşan Azərbaycanı uzaqgörənliyi, müdrikliyi və siyasi liderliyi sayəsində qısa müddətdə sürətli inkişaf yoluna çıxararaq Qafqazın doğan Günəşinə çevirdi. Ulu Öndər Heydər Əliyev "Bir millət, iki dövlət" prinsipini əsas tutaraq Türkiyə ilə münasibətlərin inkişafına daim xüsusi diqqət yetirir, Azərbaycanın reallaşdırdığı layihələrdə Türkiyənin geniş təmsil olunmasına çalışırdı. Məhz bunun nəticəsində Azərbaycan və Türkiyə birlikdə həyata keçirdikləri mühüm layihələrlə bölgədə əməkdaşlığın inkişafında böyük rol oynayırlar.

Qürurverici haldır ki, bu gün Sizin rəhbərliyinizlə Azərbaycan Heydər Əliyevin müəyyənləşdirdiyi yolla əmin addımlarla irəliləyərək böyük uğurlar qazanmaqdadır. Siz İkinci Qarabağ müharibəsində tarixi Qələbə qazanaraq Azərbaycan torpaqlarını işğaldan azad etməklə ata vəsiyyətini yerinə yetirdiniz, eyni zamanda bütün türk dünyasına şanlı Zəfər sevincini yaşatdınız, Ulu Öndərin ucaltdığı bayrağı əzəli torpaqlarda dalğalandırdınız.

Möhtərəm cənab Prezident, fürsətdən istifadə edərək Sizə və ailənizə uzun ömür, cansağlığı, uğurlar arzulayır, Ulu Öndər Heydər Əliyevin əziz xatirəsinə ən dərin ehtiramımı bildirirəm.

*Hörmətlə,*

***Musa Sərdar ÇƏLƏBİ,***
***Almaniyadakı Avropa Türk İslam Birliyinin fəxri sədri, Avrasiya Strateji Araşdırmalar Mərkəzinin sədri***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Görkəmli dövlət xadimi Heydər Əliyevin 100 illik yubileyinin qeyd olunduğu bu əlamətdar günlərdə zati-alinizə ən dərin ehtiramımı bildirmək istəyirəm. Tarixi şəxsiyyət olan atanız Azərbaycanda müstəqil və güclü dövlətin qurulmasının əsasını qoyub.

Bu qüdrətli ölkədə Heydər Əliyev bütün dinlərə və xalqlara böyük dəyər verərək, onların qarşılıqlı harmoniyada yaşamasını təmin edib. Bu gözəl ənənə Azərbaycanda indi də layiqincə davam etdirilir. Azərbaycanda səfərdə olan hər kəs bunun əyani şahidi olur.

Cənab Prezident, mərhum atanızın yolunu davam etdirərək zati-alinizin dinlərarası dialoqun gücləndirilməsi istiqamətində göstərdiyiniz səylər təqdirəlayiqdir. Biz bunun da əyani şahidləriyik.

Ulu Öndər Heydər Əliyevin xatirəsini onun 100 illik yubileyinin qeyd olunduğu bu günlərdə rəhmət və hörmətlə anırıq. Ruhu şad, məkanı cənnət olsun!

*Ən dərin ehtiramla,*

***Filuksinos Saliba ÖZMEN,***
***Mardin və Diyarbəkir Mitropoliti***

## E.İ.Əfəndiyevin "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan mədəniyyətinin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Elçin İlyas oğlu Əfəndiyev "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 may 2023-cü il*

## Ceyhun Bayramov Rusiya xarici işlər nazirinin Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üzrə xüsusi nümayəndəsi ilə görüşüb



Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov mayın 12-də Rusiya Federasiyasının xarici işlər nazirinin Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üzrə xüsusi nümayəndəsi İqor Xovayev ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan-Ermənistan münasibətlərinin normallaşma prosesi, sülh sazişi üzrə danışıqlarda, eləcə də regionda cari vəziyyət müzakirə olunub.

Ceyhun Bayramov müzakirələr zamanı sülh sazişi üzrə danışıqlarda ölkəmizin mövqeyi və prioritetlərini, eləcə də gələcək gözləntilərini diqqətə çatdırıb. O, eyni zamanda Ermənistanın sülh prosesinə və danışıqlara xələl gətirən təxribatçı addımları barədə qarşı tərəfə məlumat verib.

Rusiya Xarici İşlər Nazirliyinin nümayəndəsi regionda sülhün və sabitliyin təmin edilməsinin vacibliyini və bu istiqamətdə Rusiya tərəfinin hər cür dəstəyə hazır olduğunu bildirib.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

## Proksi müharibələr mövzusunda ilk beynəlxalq konfrans təşkil edilib




Ümummilli Lider Heydər Əliyevin 100 illik yubiley tədbirləri çərçivəsində Dövlət Təhlükəsizliyi Xidmətinin təşkilatçılığı ilə 20-dən çox xarici ölkənin təhlükəsizlik və kəşfiyyat orqanlarının nümayəndələrinin təmsil olunduğu "Proksi şəbəkələrin destruktiv fəaliyyətinə qarşı birgə mübarizə" mövzusunda Bakı Təhlükəsizlik Forumu keçirilib.

Dövlət Təhlükəsizliyi Xidmətinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, giriş nitqi ilə tədbiri açıq elan edən Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyev qonaqları səmimi salamlayaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin konfrans iştirakçılarına müraciətini səsləndirib, ölkəmizin belə bir tədbirə evsahibliyi etməsinin əhəmiyyətinə toxunaraq bu təşəbbüsün reallaşmasında göstərdiyi dəstəyə görə dövlət başçısına dərin təşəkkürünü bildirib.

General-polkovnik Əli Nağıyev yeni nəsil müharibə üsulu olan və birbaşa hərbi güc tətbiqini istisna edən proksi müharibələrin ölkələrin təhlükəsizliyinə nüfuz və ya təsir etmə vasitəsi olduğunu, proksi şəbəkələrin fəaliyyətinin bəzi terrorçu qruplar, radikal-ekstremist və separatçı qüvvələr tərəfindən dövlətlərdə mövcud sabitliyin pozulmasına yönəlmiş təxribat xarakterli əməllər - terror aktları, əhali arasında qorxu və vahimə yarada bilən digər cinayət hadisələri törətmək, insanlar arasında nifrət, düşmənçilik hisslərini aşılamaq, kibercinayətkarlıq və s. formada təzahür etdiyini nəzərə çatdırıb.

Proksi qrupların pozuculuq fəaliyyətinin doğurduğu təhdidlərlə mübarizədə ölkələrin səylərinin birləşdirilməsinin vacibliyinə diqqət çəkən general-polkovnik Əli Nağıyev Bakı Təhlükəsizlik Forumunun bunun üçün uğurlu başlanğıc olacağına, konfrans çərçivəsində aparılacaq müzakirələrin, veriləcək təkliflərin birgə əməkdaşlığın səmərəli təşkilinə əlverişli zəmin yaradacağına inamını ifadə edib.

Ardınca proksi şəbəkələrdən bəhs edən videoçarx nümayiş olunub, sonra xarici nümayəndə heyətlərinin rəhbərlərinin tədbirin mövzusu ətrafında geniş məruzələri, beynəlxalq təhlükəsizlik sisteminin üzləşdiyi mənfi təzahürlərlə bağlı çıxışları dinlənilib. Onlar müasir dövrün aktual problemlərindən olan proksi şəbəkələrin destruktiv fəaliyyətinə həsr olunmuş tədbirin beynəlxalq səviyyədə vacibliyindən söhbət açaraq həmin mövzuda ilk dəfə keçirilən tədbirin təhlükəsizlik sahəsində dövlətlərarası münasibətlərin inkişafına mühüm töhfə verəcəyinə əminliklərini bildiriblər.

Sonda beynəlxalq konfransın bütün iştirakçılarının mövqeyini əks etdirən bəyannamənin ilkin variantı rəy və təkliflərin alınması üçün tərəfdaş ölkələrə təqdim olunub, habelə Azərbaycan təhlükəsizlik orqanlarının fəxri və əbədi rəhbəri, mənalı ömrünün böyük hissəsini bu orqanlarda xidmətə həsr etmiş Ulu Öndər Heydər Əliyevin əziz xatirəsinə ehtiram əlaməti olaraq təsis edilmiş müvafiq forumun gələcəkdə də keçirilməsi qərara alınıb.

## Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir

Mayın 12-də ədliyyə naziri Fikrət Məmmədov Tərtər rayonunda vətəndaşları qəbul edib. Bu barədə Ədliyyə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

Dövlət başçısının tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq keçirilən qəbulda Tərtər, Ağdam, Bərdə və digər rayonlardan olan vətəndaşların ədliyyə fəaliyyətinə dair müraciətləri diqqətlə dinlənilərək qaldırılan məsələlərlə bağlı aidiyyəti tapşırıqlar verilib. Bu zaman Vətən müharibəsi iştirakçılarının və şəhid ailələrinin qayğılarına xüsusi həssaslıqla yanaşılıb.

* * *

Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri Məcnun Məmmədov mayın 12-də Göyçay Dövlət Aqrar İnkişaf Mərkəzinin inzibati binasında Göyçay, Ağdaş və digər rayonlardan olan vətəndaşları qəbul edib, onların müraciətlərini dinləyib, ərizə və şikayətlərinə baxıb.

Məcnun Məmmədov vətəndaşlarla görüş zamanı dövlət başçısının kənd təsərrüfatının inkişafı ilə bağlı imzaladığı sərəncamların kənd təsərrüfatı istehsalçılarının rifah halının yaxşılaşdırılmasına və ölkəmizdə bu sahənin inkişafına təkan verəcəyini vurğulayıb.

* * *

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı mayın 12-də Quba, Qusar, Xaçmaz, Şabran və Siyəzən rayonlarından olan vətəndaşlarla görüşüb.

Qəbula gələn vətəndaşların dini maariflәndirmə işinin genişləndirilməsi, İslam dininə aid ibadət yerlərinə və ziyarətgahlara din xadiminin təyin olunması, dini qurumların dövlət qeydiyyatına alınması, məscidlərin dini ədəbiyyatlarla təmin edilməsi, dini təhsil, habelə digər məsələlərlə bağlı müraciətləri dinlənilib

Dövlət Komitəsinin aidiyyəti struktur bölmələri rəhbərinin iştirakı ilə keçirilmiş qəbulda vətəndaşların müraciətləri diqqətlə dinlənilib, ərizələri qəbul edilərək müvafiq tədbirlərin görülməsi istiqamətində tapşırıqlar verilib.

***AZƏRTAC***



# Dost hədiyyəsi

### İşğaldan azad edilmiş ərazilərimizdə Özbəkistan məktəb, Qazaxıstan isə uşaq yaradıcılıq mərkəzi tikir

*Əvvəli 1-ci səh.*

Özbəkistan Prezidentinin "Azərbaycan bizim üçün yaxın dost və zamanın sınağından çıxmış etibarlı strateji tərəfdaşdır" sözlərinin təsdiqi olan bu məktəbin inşası qardaş ölkələrimiz arasında münasibətlərin yüksək səviyyəsindən xəbər verir. Prezident İlham Əliyev də Özbəkistanın Füzuli rayonunda böyük məktəb inşa etmək təşəbbüsünü ölkələrimiz arasında həmrəyliyin, dostluğun, qardaşlığın növbəti addımı kimi qiymətləndirib.

Dövlət başçısı bu barədə deyib: "Biz Qarabağı həməlik öz gücümüzlə bərpa edirik. Əlbəttə, qardaşlıq münasibəti bizim üçün çox qiymətlidir. Ona görə ki, İkinci Qarabağ müharibəsi başa çatandan dərhal sonra biz Şavkat Miromonoviçlə görüşəndə o belə bir təşəbbüs irəli sürdü və bu təklif minnətdarlıqla qəbul edildi. Bu məktəb praktiki baxımdan həm də bizim qardaşlığımızın rəmzi olacaq, yüzilliklər boyu Azərbaycan xalqının xatirində qalacaq".

Bu il mayın 5-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli rayonunda olarkən məktəbin tikildiyi əraziyə də baş çəkdilər. Özbək xalqı adından hədiyyə kimi inşa edilən 960 şagird yerlik bu məktəb binasında tikinti işlərinin gedişi ilə tanış oldular.

Qeyd edək ki, ötən il başlanan tikinti işlərinin bu ilin dekabrında başa çatdırılması planlaşdırılır. Üç hektar ərazidə inşa edilən məktəb binası iki mərtəbə və zirzəmidən ibarətdir. Məktəbdə 40 sinif otağı, 6 laboratoriya, 2 informatika və 5 funksional tədris otağı, akt və idman zalları, yeməkxana, kitabxana yaradılacaq. Məktəbin ərazisində futbol meydançası, qaçış zolaqları, nəzarət-buraxılış məntəqəsi, qazanxana, su çənləri, transformator yarımstansiyası, istirahət etmək və tədbirlər keçirmək üçün yerlər olacaq. Tikinti işləri yüksək keyfiyyətlə həyata keçirilir.

Ölkəmizin Qazaxıstanla da əlaqələri getdikcə genişlənir. Əməkdaşlıq və tərəfdaşlıq əsasən enerji layihəri ilə güclənsə də, digər sahələri də əhatə etməkdədir. Qazax qardaşlarımızı eləcə də Qarabağ və Şərqi Zəngəzurdakı quruculuq işlərimiz qürurlandırır. Keçən il avqustun 24-də Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin Azərbaycana səfəri zamanı Prezident İlham Əliyev və Qazaxıstanın dövlət başçısı dost ölkənin "Bİ-Group" Holdinqi tərəfindən Füzuli şəhərində inşa ediləcək Kurmanqazı adına Uşaq Yaradıcılığının İnkişafı Mərkəzinin layihəsi ilə tanış olmuşlar.

"Bİ-Group" Holdinqin Direktorlar Şurasının sədri Aydın Raximbayev demişdir: "Bu layihəni - Füzuli şəhərində yaradıcılıq mərkəzinin tikintisi layihəsini təqdim etmək mənim üçün böyük şərəfdir. Layihə bizim Prezidentin şəxsi tapşırığı əsasında qısa müddət ərzində hazırlanıb. Bu günə olan vəziyyətə görə, artıq məkan müəyyən edilib, yəni layihə dörd böyük istiqamətdən ibarətdir".

Bu ilin aprel ayında isə mərkəzin təməli qoyulub. Kurmanqazı adına Uşaq Yaradıcılığının İnkişafı Mərkəzi layihəyə əsasən, Füzuli şəhərində ümumi sahəsi 1,5 hektar olan ərazidə yerləşəcək. Tikinti sahəsi 2708 kvadratmetr təşkil edir. İkimərtəbəli binadan ibarət olacaq məktəbdə hər biri 300 nəfər olmaqla, növbəli şəkildə 600 şagirdin təhsil alması üçün lazımi şəraitin yaradılması nəzərdə tutulur. Burada şagirdlər üçün xanəndəlik sənəti, xalçaçılıq, heykəltaraşlıq və zərgərlik sənətləri, musiqi və rəssamlıq dərsləri, həmçinin qrafik dizayn təlimləri üzrə tədrisin təşkili planlaşdırılır.

Bu layihə Azərbaycan və Qazaxıstan arasındakı ikitərəfli əlaqələrin inkişaf etdirilməsinə, o cümlədən işğaldan azad olunmuş ərazilərdə incəsənət sahəsi üzrə təhsilin genişlənməsinə və yaxın bölgələrdən olan istedadlı gənclərin bir araya toplanmasına öz töhfəsini verəcək.

Qeyd edək ki, incəsənət məktəbinin layihəsi üzrə Azərbaycan və Qazaxıstan nümayəndə heyətlərinin yer aldığı işçi qrupu yaradılıb, müvafiq görüşlər keçirilərək, qarşıdakı hədəflər müzakirə olunacaq.

Dost, qardaş hədiyyəsi həmişə əziz, dəyərli olar. Odur ki, işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzura dostlarımızın hədiyyəsinin xüsusi önəmi var.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Avropa enerji təhlükəsizliyində Azərbaycana arxalanır

"Heydər Əliyevin neft strategiyası bu gün imkan verir ki, biz inkişaf edək, imkan verir ki, biz Qarabağı, Zəngəzuru yenidən quraq. 1994-cü ildə "Əsrin kontraktı", 1996-cı ildə "Şahdəniz" qazkondensat yatağı üzrə imzalanmış kontrakt bizim bugünkü iqtisadi qüdrətimizi şərtləndirən əsas amildir. Bu gün Azərbaycan qazı nə qədər böyük önəm daşıyır, bunu hər kəs görür. Ölkəmizin geosiyasi önəmi böyük dərəcədə artıb".

Bu sözləri Prezident İlham Əliyev mayın 10-da xalqa müraciətində deyib. Dövlət başçısı, həmçinin qeyd edib ki, 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin kontraktı" növbəti bir dönüş nöqtəsi idi: "İndi Azərbaycan dövlətinin payına düşən mənfəət neftinin 75 faizi bu gün bizim iqtisadiyyatımızı gücləndirir. Azərbaycan dövləti "Əsrin kontraktı"nın icrasına bir manat vəsait qoymayıb. Ancaq mənfəət neftinin 75 faizi Azərbaycana gəlir".

### Azərbaycanın təbii qaz ixrac etdiyi ölkələrin sayı artacaq

Son illərdə Azərbaycan iqtisadiyyatı sürətli inkişaf yoluna çıxıb. Xüsusən ölkəmizin energetika sahəsində mühüm təchizatçılardan birinə çevrilməsi iqtisadiyyatın digər sahələrinin də inkişafına təkan verib.

Son 3 ildə Avropaya mavi qaz ixrac edən ölkəmiz enerji sahəsində qabaqcıl dövlətlərdən birinə çevrilib. Avropa İttifaqı ölkələri Azərbaycanı enerji sahəsində etibarlı tərədaş kimi yüksək qiymətləndirir. Təsadüfi deyil ki, bu gün Azərbaycan ümumavropa qaz təchizatçısı adlandırılır.

Hazırda Azərbaycan "Cənub qaz dəhlizi" ilə 6 ölkəyə qaz nəql edir. Dünyada enerjiyə artan tələbat fonunda Azərbaycanla tərəfdaşlıq etmək istəyən dövlətlərin sayı isə gündən-günə artır. Yaxın illərdə ölkəmizin təbii qaz ixrac etdiyi ölkələrin sayının artacağı gözlənilir. Azərbaycan qazının nəql olunduğu ölkələr sırasında Şərqi Avropa dövlətləri xüsusi yer tutur.

Ölkəmizin qaz hasilatı ildən-ilə artır. Bu il Azərbaycanda 47,2 milyard kubmetr qaz hasilatı planlaşdırılır ki, onun da 24,5 milyard kubmetri ixrac üçün nəzərdə tutulur. Ötən il isə hasil edilən 46,7 milyard kubmetr qazın 22,3 milyard kubmetri ixrac olunmuşdu. Bu il 12 milyard kubmetr təbii qazın Avropaya nəql olunması proqnozlaşdırılır. Növbəti illərdə digər interkonnektorlar işə düşdükcə isə bu göstərici daha da artacaq.

Avropa dövlətləri isə bu istiqamətdə ölkəmizlə əməkdaşlığın genişləndirilməsində maraqlıdırlar. Bu baxımdan ötən ilin oktyabr ayında Bolqarıstanın paytaxtı Sofiya şəhərində Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun açılışı da Avropanın enerji təhlükəsizliyinin möhkəmləndirilməsində və qaz təchizatının şaxələndirilməsində mühüm rol oynadı. Uzunluğu 182 kilometr olan interkonnektor Bolqarıstanın və Yunanıstanın qaz nəqli şəbəkələrini birləşdirir. Bununla daha bir Avropa ölkəsinin enerji təchizatçısına çevrilən Azərbaycan Bolqarıstanın təbii qaza olan tələbatının 25-30 faizini ödəyəcək.

Eyni zamanda ötən ilin dekabr ayında SOCAR və Rumıniyanın "Romqaz" şirkəti arasında imzalanan müqaviləyə əsasən, bu ilin yanvarın 1-dən Azərbaycandan Rumıniyaya qaz nəql olunur.

### Respublikamızın "yaşıl enerji" potensialı böyükdür

Ötən ay Sofiyada "Bulgartransgaz" (Bolqarıstan), "Transgaz" (Rumıniya), FGSZ (Macarıstan) və "Eustream" (Slovakiya) və Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR) arasında əməkdaşlığın təşviqi ilə bağlı imzalanan anlaşma memorandumu da enerji resurslarının daha da şaxələndirilməsi, o cümlədən enerji təhlükəsizliyinin gücləndirilməsi istiqamətində atılan mühüm addım oldu.

İmzalanma mərasimində çıxış edən Prezident İlham Əliyev qeyd etdi ki, anlaşma memorandumu Avropada enerji təhlükəsizliyini birmənalı olaraq gücləndirəcək və Azərbaycan üçün Avropa ölkəsinə daha çox qazı ixrac etməyə fürsət yaradacaq: "Bu gün Enerji Komissarı xanım Simsonun, Avropa Komissiyasının digər rəsmilərinin və dostlarımızın artıq qeyd etdiyi kimi, Azərbaycan Avropanın, mən deyərdim ki, nəinki enerji, o cümlədən bir sıra digər sahələrdə də etibarlı tərəfdaşıdır. Sizə məlumat vermək istəyirəm ki, Avropa İttifaqının 9 üzv dövləti ilə Azərbaycan "Strateji Tərəfdaşlıq haqqında" Bəyannamə və ya sazişlərə imza atıb və qəbul edib. Bu, o deməkdir ki, Avropa İttifaqına üzv dövlətlərin üçdəbiri Azərbaycanın strateji tərəfdaşıdır və bu tərəfdaşlığın çox güclü gələcəyi var".

Azərbaycan qlobal tendensiyaya cavab verən alternativ enerji sahəsində də böyük layihələrin təşəbbüskarı kimi çıxş edərək xarici investorları ölkəyə cəlb edə bilir. "Yaşıl enerji"nin perspektivləri nəzərə alınaraq ölkəmiz energetikanın bu sahəsində də əsas təchizatçılardan birinə çevrilməyi planlaşdırır. Növbəti illərdə Azərbaycanın Avropaya ənənəvi enerji ilə yanaşı bərpaolunan enerji də ixrac edəcəyi gözlənilir. Bu istiqamətdə də işlər sürətlə davam edir.

Alternativ enerji sahəsində əməkdaşlığın inkişafı baxımından ötən ilin dekabr ayında Prezident İlham Əliyevin də iştirakı ilə Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in imzalanması böyük rol oynayır. Bu sazişlə qarşıdakı illərdə Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə verəcəyi töhfə daha da artacaq.

Qeyd edək ki, Azərbaycanın bu sahədə potensialı kifayət qədərdir. Belə ki, quruda külək və günəş enerjisinin həcmi 27 qiqavatdan çox, Xəzər dənizinin Azərbaycan sektorunda isə külək enerjisi 157 qiqavat təşkil edir. Ölkəmiz strateji investorlardan biri ilə 2027-ci ilə qədər 3 qiqavat külək və 1 qiqavat günəş enerjisini istehsal etməyi planlaşdırır. Onların 80 faizi ixrac olunacaq.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## *Səfir Klaudio TAFFURİ:* "Azərbaycan ilə İtaliya arasında əlaqələr bütün sahələrdə inkişaf edir"

Mayın 12-də İtaliya Ticarət Agentliyinin Bakı ofisinin təşkilatçılığı, İtaliyanın Azərbaycandakı səfirliyinin, bəzi yerli qida və içki idxalçılarının dəstəyi ilə xüsusi təşviqat proqramının təqdimatı keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən İtaliyanın Azərbaycandakı səfiri Klaudio Taffuri xalqlarımızı dərin tarixi bağların, sosial-iqtisadi və mədəni əlaqələrin birləşdirdiyini vurğulayıb. "Azərbaycan ilə İtaliya arasındakı əlaqələrin bütün sahələrdə gündən-günə inkişaf etdiyini görürük və bu bizi çox sevindirir. Şübhəsiz ki, humanitar sahədə münasibətlərin yüksək səviyyəyə çatdırılması və qorunub saxlanılması xalqlarımızın bir-birinə daha da yaxınlaşmasına xidmət edir", - deyə diplomat bildirib.

İtaliya mətbəxinin zəngin olduğunu və şərab sənayesinin xeyli inkişaf etdiyini diqqətə çatdıran diplomat deyib: "İtaliyanın qonşu ölkələrlə qaynayıb-qarışması nəticəsində hər bir xalq bizim mədəniyyətimizə öz töhfəsini verib. Təkcə pasta adlanan yeməyin ölkəmizdə 147 növ hazırlanma üsulu var".

İtaliya Ticarət Agentliyinin direktoru Andrea Makkaniko və bu ölkənin istehsalı olan şərablar üzrə mütəxəssis - somelye Artyom Lebedev çıxış edərək həm təşviqat proqramı, həm də bir sıra qida məhsulları barədə məlumat veriblər.

Bildirilib ki, bu təşviqat kampaniyası İtaliyanın bir çox regionlarına müxtəlif missiyaların təşkili, mediaturlar, italyan mətbəxinə aid bəzi nümunələrin təqdimatı və 2023-cü il ərzində Bakıda keçiriləcək bir sıra qida və içki sənayesinə aid layihələri özündə cəmləşdirir.

Qeyd edək ki, tədbirin məqsədi İtaliya Ticarət Agentliyinin Bakı ofisinin 2023-cü il üçün nəzərdə tutulan bir sıra təşviqat xarakterli tədbirləri haqqında yerli medianı məlumatlandırmaq, eləcə də "Made in Italy" brendi altında idxal olunan məhsulların Azərbaycan bazarında tanınmasını təşviq etmək, həmçinin qonaqlara "italyansayağı yaşamaq" konseptini daha aydın şəkildə çatdırmaq və qeyri-adi italyan təamlarından zövq almaq fürsəti verməkdir.

## Milli Məclisin iclasında

# İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun illik məlumatı dinlənildi

*Əvvəli 1-ci səh.*





Deputatlar dövlət başçısının Qarabağa və Şərqi Zəngəzura səfərinin, bir çox rayon və şəhərlərdə, habelə Şuşada sosial obyektlərin təməlini qoymasının, bir sıra obyektlərin açılışlarında iştirak etməsinin onun bu bölgədə həyata keçirilən quruculuq işlərinə böyük diqqətlə yanaşdığının göstəricisi olduğunu vurğulayıblar.

Çıxışlarda Türkiyədə keçiriləcək seçkilər, Azərbaycanla Türkiyə arasında qardaşlıq, strateji tərəfdaşlıq münasibətləri ilə bağlı fikirlər səsləndirilib. Bəzi qüvvələrin ölkələrimiz arasında olan əlaqələrə kölgə salmaq niyyətində olduğu, qeyri-obyektiv və yanlış açıqlamalar verdiyi qeyd edilib.

Deputatlar son günlərdə Ermənistan tərəfindən baş verən təxribatlardan, Fransa kimi dövlətlərin onlara dəstəyindən danışıblar. Bir müddət öncə Fransa xarici işlər nazirinin Dağlıq Qarabağ ərazisini anklav adlandırması məsələsinə də münasibət bildirilib. Qeyd olunub ki, indiki şərtlər daxilində, yəni Azərbaycanın iradəsi ilə sülh gündəliyinin aktual olduğu bir dövrdə proseslərin içərisində yer almaq üçün bütün vasitələrdən istifadə edən Fransanın belə mövqedən çıxış etməsi gələcəkdə tək Azərbaycana qarşı deyil, bütövlükdə Cənubi Qafqaz regionunun təhlükəsizliyi və sülh prosesi üçün ciddi təhdid yaradır.

Milli Məclisin Sədri Sahibə Qafarova Fransanın Azərbaycandakı səfiri ilə görüşdüyünü və bu məsələləri parlament adından səsləndirdiyini diqqətə çatdırıb. Spiker bildirib ki, eyni zamanda beynəlxalq təşkilatlarda iştirak edən nümayəndə heyətlərimizin üzvləri olan deputatlar bu məqamlara mütləq diqqət yetirməli və bu məsələləri qaldırmalıdırlar.

Sonra gündəlikdəki məsələlərin müzakirəsi başlayıb. İlk olaraq İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun illik məlumatı müzakirə olunub. Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair məlumatı daxili işlər nazirinin birinci müavini Seyfulla Əzimov təqdim edib. O bildirib ki, ölkəmizdə insan alverinin qarşısının alınması, şəxsiyyətin və cəmiyyətin qanuni mənafelərinin həmin hüquqazidd əməllərdən müdafiəsi ilə bağlı tədbirlər "İnsan alverinə qarşı mübarizə üzrə 2020-2024-cü illər üçün Milli Fəaliyyət Planı" çərçivəsində hesabat ilində məqsədyönlü şəkildə davam etdirilib.

Seyfulla Əzimov qeyd edib ki, Milli Fəaliyyət Planında təsbit edilmiş maarifləndirmə, ölkəyə turist kimi gələn şəxslərin mənafelərinin qorunması, medianın monitorinqi, erkən nikahların qarşısının alınması, baxımsız qalan, təhsildən yayınan, övladlığa götürülmüş, qəyyumluğa, yaxud himayəyə verilmiş uşaqların ailələrinə nəzarət, dövlət uşaq müəssisələrinin məzunlarına sosial-hüquqi və sosial-psixoloji xidmətlərin göstərilməsi, treninqlərin və təlimlərin keçirilməsi və digər zəruri tədbirlərin yerinə yetirilməsi təmin edilib.

Qeyd edilib ki, müvafiq sahədə hüquq pozuntularının qarşısının alınması məqsədilə Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Əmək Münasibətlərinin Monitorinqi Mərkəzi tərəfindən keçirilmiş yoxlamalarla 55 tikinti obyektində 75 nəfərin əmək və ya xidməti müqavilə olmadan işlədiyi aşkarlanıb. Nəticədə bir işəgötürən fiziki şəxs barəsində toplanmış materiallar Baş Prokurorluğa göndərilib, daha 14-ü haqqında ümumilikdə 186.500 manat məbləğdə inzibati cərimə tətbiq edilib. Dövlət Əmək Müfəttişliyi Xidmətinin apardığı yoxlamalar zamanı isə 369 şəxsin əmək müqaviləsi olmadan işləməsi və işəgötürənlər tərəfindən üç halda işçini əmək funksiyasına aid olmayan işi yerinə yetirməyə məcbur etmə faktı müəyyən edilərək aidiyyəti vəzifəli şəxslər barəsində bütövlükdə 1.800.000 manata yaxın inzibati cərimə tətbiq edilib.

Sənədə əsasən hesabat ilində uşaq əməyinin istismarının qarşısının alınması üzrə həyata keçirilən reydlər zamanı ailə mühitindən, pedaqoji və ictimai təsir vasitələrindən kənarda qalan, küçələrdə işləyən və dilənçilik edən 685 uşaq, buna şərait yaradan 232 valideyn aşkarlanıb. Nəticədə yerli icra hakimiyyətləri yanında komissiyalara, qəyyumluq və himayə orqanlarına 619 material göndərilib, övladlarının təlim-tərbiyəsi ilə bağlı üzərinə düşən vəzifələri yerinə yetirməyən 48 valideyn inzibati məsuliyyətə cəlb edilməklə polis nəzarətinə götürülüb. Bundan başqa, ictimai mənəviyyat əleyhinə olan hüquqazidd əməllərlə bağlı 96 fakt aşkarlanaraq aidiyyəti şəxslər cinayət məsuliyyətinə cəlb edilib, daha 966 nəfər haqqında inzibati tənbeh tədbirləri görülüb.

Seyfulla Əzimov bildirib ki, insan alveri cinayətlərinin aşkarlanması və təqsirkar şəxslərin məsuliyyətə cəlb olunması sahəsində keçirilmiş əməliyyat-axtarış tədbirləri ilə bütövlükdə 204, o cümlədən 157 insan alveri, 3 məcburi əmək, habelə insan alveri məqsədilə sənədlərlə qanunsuz hərəkətlərə görə 44 cinayət qeydə alınıb. Həmin hüquqazidd əməllərlə əlaqədar başlanılmış 14 cinayət işi üzrə təqsirləndirilən qismində cəlb olunmuş 15 şəxs məhkəmə məsuliyyətinə verilib. Hesabat ilində müəyyən edilmiş 94 insan alveri qurbanından 93-ü Azərbaycan Respublikasının vətəndaşı, biri isə əcnəbi olub.

Parlamentin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc illik məlumat haqqında bu komitənin rəyini bildirib. O, beynəlxalq reytinqlərlə əlaqədar məsələyə dair fikirlərini açıqlayaraq, Azərbaycanın bir çox indekslərlə bağlı dəyərləndirilməsinin müsbət olduğunu deyib. Komitə sədri qlobal mütəşəkkil cinayətkarlıqla bağlı beynəlxalq indeksdə MDB ölkələrinin əksəriyyətinin arzuolunmaz sıralarda dayandığını, Azərbaycanın adının bu sıyahıda olmadığını bildirib. Zahid Oruc uşaq alveri ilə bağlı, bir sıra digər indekslərdə də ölkəmizin mövqeyinin müsbət olduğunu qeyd edib.

Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli milli koordinatorun illik məlumatını müsbət dəyərləndirib. O, milli koordinatorun parlament, media, vətəndaş cəmiyyəti institutları ilə qarşılıqlı səmərəli əməkdaşlığının təqdirəlayiq olduğunu söyləyib.

Müzakirələrin sonunda İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun illik məlumatı səsə qoyularaq nəzərə alınıb.

Sonra İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Məşhur Məmmədov "Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında Azərbaycan-Özbəkistan İnvestisiya Fondunun yaradılması haqqında" Sazişin təsdiq edilməsi barədə qanun layihəsini təqdim edib. Bildirib ki, sazişə əsasən iqtisadi əlaqələrin inkişafı üçün əlverişli şəraitin yaradılmasına yönəlmiş investisiya fəaliyyətini həyata keçirmək niyyəti ilə həm Azərbaycan və Özbəkistanda, həm də üçüncü ölkələrin ərazisində qarşılıqlı maraq doğuran istiqamətlərdə ixracyönümlü müəssisələrin yaradılması üzrə birgə layihələrin maliyyələşdirilməsi məqsədilə Azərbaycan-Özbəkistan İnvestisiya Fondunun yaradılması barədə tərəflər arasında razılıq əldə edilib.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

"Azərbaycan Respublikası Hökuməti ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı Hökuməti arasında beynəlxalq avtomobil daşımaları haqqında" Sazişin təsdiq edilməsi barədə qanun layihəsi də müzakirəyə çıxarılıb. Diqqətə çatdırılıb ki, sazişdə tərəf dövlətlərin əraziləri arasında və ya dövlətlərin ərazilərindən tranzit keçməklə, həmçinin üçüncü ölkələrə və ya ölkələrdən yerinə yetirilən beynəlxalq avtomobil daşımalarının tənzimlənməsi qaydaları təsbit olunur. Sazişə əsasən daşıma fəaliyyətini həyata keçirən nəqliyyat vasitələri nəqliyyat vasitələrinin dövriyyəsi və ya sahibliyi ilə bağlı tutulan bütün vergi və rüsumlardan qarşılıqlı olaraq azad olunurlar.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva "Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında diplomatik və xüsusi/xidməti pasportlara malik şəxslərin giriş vizasından azad edilməsi haqqında" Anlaşma Memorandumunda dəyişiklik edilməsi ilə əlaqədar notalar mübadiləsinin təsdiq edilməsi və "Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında diplomatik pasportlara malik olan şəxslərin giriş vizasından azad edilməsi haqqında" Anlaşma Memorandumunun təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında qanun layihəsini nəzərə çatdırıb. Bildirilib ki, dəyişiklik hər iki ölkənin ümumvətəndaş, diplomatik və xüsusi/xidməti pasportlarına malik olan vətəndaşlarını bir-birinin dövləti ərazisinə daxil olmaq üçün ilkin giriş vizasından azad edəcəklərini nəzərdə tutur.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov "Minatəmizləmə sahəsində xidmətlərə görə" Azərbaycan Respublikasının medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihəsi ilə bağlı məlumat verib. O, layihənin birinci oxunuşundan sonra sənədlə bağlı sual doğuran məsələlərin və hər hansı əlavə təklifin olmadığını söyləyib.

Qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Parlamentin birinci vitse-spikeri, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) təqdim edib. Bildirib ki, layihənin məqsədi "İctimai iştirakçılıq haqqında" qanunda istifadə edilən termin və anlayışların "Normativ-hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələblərinə uyğunlaşdırılmasıdır.

Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Əli Hüseynli "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihəsini də diqqətə çatdırıb. Bildirilib ki, sənəddə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəlik institutunun fəaliyyətinin təmin edilməsi ilə əlaqədar təsis edilən yeni vəzifələrin İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusuna uyğun olaraq təsnifləşdirilməsi ilə bağlı müvafiq dəyişikliklərin edilməsi nəzərdə tutulur.

Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Şəhərsalma və Tikinti Məcəlləsində, "Torpaq islahatı haqqında", "Energetika haqqında", "Torpaq icarəsi haqqında", "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında", "Torpaq bazarı haqqında", "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında", "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında Əsasnamənin təsdiq edilməsi barədə" və "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) təqdim edib. O, layihənin birinci oxunuşu zamanı heç bir təklifin irəli sürülmədiyini bildirib.

Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

İclasda "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) də müzakirə olunub. Qeyd olunub ki, layihənin məqsədi yetkinlik yaşına çatmayan şəxslərin hüquqlarının daha səmərəli və effektiv qorunmasını təmin etməkdən ibarətdir.

Qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Parlamentin sədri Sahibə Qafarova gündəliyin növbəti 6 məsələsinin ölkə Prezidentinin bir məktubu ilə Milli Məclisə daxil olduğunu və mahiyyətcə bir-birinə bağlı olduğunu bildirib. Spiker diqqətə çatdırıb ki, gündəliyin 10-cu məsələsi Azərbaycan Respublikasının Ailə Məcəlləsində, 11-ci məsələsi Azərbaycan Respublikasının Mülki Məcəlləsində, 12-ci məsələsi "Sosial müavinətlər haqqında" qanunda, 13-cü məsələsi "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" qanunda, 14-cü məsələsi "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" qanunda, 15-ci məsələsi "Sosial xidmət haqqında" qanunda dəyişikliklər edilməsi barədə ikinci oxunuşda olan qanun layihələridir. O, bu qanun layihələrinə 3 komitədə baxıldığını qeyd edib.

Ailə, qadın və uşaq məsələləri komitəsinin üzvü Tamam Cəfərova 10-cu və 13-cü məsələlər - Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında (ikinci oxunuş) və "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihələri ilə bağlı məlumat verib. Bildirib ki, Ailə Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihəsi himayədar ailə institutunun inkişaf etdirilməsi və təşviqi, habelə valideyn himayəsindən məhrum olmuş uşaqların müəssisələrə yerləşdirilməsi, uşaqların müəssisələrdən ailələrinə qaytarılması, müəssisələrdə olan uşaqların fərdi inkişaf planlarının hazırlanması məsələləri ilə bağlı normativ-hüquqi bazanın təkmilləşdirilməsi məqsədi ilə hazırlanıb.

Qeyd olunub ki, "Azərbaycan Respublikasının Ailə Məcəlləsinə dəyişiklik edilməsi haqqında" qanun layihəsinin qəbulu ilə əlaqədar "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" qanunda dəyişiklik edilməsi nəzərdə tutulub. Layihədə himayədar valideyn (himayədar ailə) anlayışının, habelə himayədar ailəyə verilmiş uşaqların sosial müdafiəsi ilə əlaqədar müddəaların əlavə edilməsi təklif olunur.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli 11-ci və 14-cü məsələləri - Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında (ikinci oxunuş) və "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihələrini diqqətə çatdırıb. Bildirib ki, hər iki layihə "Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanun layihəsinə uyğun olaraq hazırlanıb.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev 12-ci və 15-ci məsələləri - "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) və "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihələrini təqdim edib. Qeyd olunub ki, "Sosial müavinətlər haqqında" qanuna edilən dəyişikliklər mahiyyət etibarı ilə himayədar ailə institutunun yaradılması ilə əlaqədar Ailə Məcəlləsinə edilən dəyişikliklərə uyğunlaşma xarakteri daşıyır. Düzəlişlərə əsasən himayədar ailəyə verilmiş uşaqların tərbiyəsi və onlara mövsümi geyimlərin alınması məqsədi ilə 2 yeni sosial müavinət növü təsis edilir. Onlardan biri uşağın tərbiyəsi ilə bağlı xidmətlərin qarşılanması üçün nəzərdə tutulmuş aylıq müavinətdir, digəri isə mövsümi geyimlərin alınması üçün birdəfəlik müavinətdir.

Komitə sədri deyib ki, "Sosial xidmət haqqında" qanuna təklif olunan dəyişikliklər də Ailə Məcəlləsinə təklif edilən dəyişikliklərə uyğunlaşdırma ilə bağlıdır.

6 qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Bəhruz Məhərrəmov Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini (birinci oxunuş) təqdim edib. Diqqətə çatdırılıb ki, layihədə ölkə Prezidenti tərəfindən həyata keçirilən məhkəmə-hüquq islahatlarının dərinləşdirilməsi istiqamətində növbəti tədbirlərin hüquqi əsasları müəyyən edilir. Sənəd ədalət mühakiməsi prosesini sürətləndirmək məqsədilə dövlət tərəfindən əhalinin az təminatlı, sosial müdafiəyə xüsusi ehtiyacı olan və digər həssas təbəqələrinin məhkəməyə müraciət imkanlarının daha da genişləndirilməsi üçün hazırlanıb. Layihəyə əsasən vəkilin prosesdə məcburi iştirakı tələb olunduğu hallardan başqa, həmçinin mülki işlər üzrə birinci və apellyasiya instansiyalarında da peşəkar hüquqi yardıma ehtiyacı olan, lakin kifayət qədər vəsaiti olmayan şəxslərin dövlət hesabına vəkillə təmin olunmasının hüquqi əsasları müəyyən edilir.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Əli Məsimli "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihəsinin mahiyyətini nəzərə çatdırıb. Sənədin əsas məqsədi sahibkarların maraqlarının gücləndirilməsi ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsidir. Təklif olunan dəyişikliklər yoxlayıcı orqanlar üçün əlavə tədbirlər müəyyən edir ki, bu da sahibkarlıq subyektlərinin yoxlamalarla bağlı qanunla qorunan hüquqlarını daha da möhkəmləndirir. Layihədə "yoxlama obyekti"nin anlayışı və onun əhatə dairəsi müəyyən olunur. Bu yanaşma imkan verəcək ki, yoxlama obyektinin hər hansı biri üzrə yoxlama aparıldıqda, sahibkarın fəaliyyəti bütövlükdə dayandırılmasın.

Bildirilib ki, sənəddə nəzərdə tutulan dəyişikliklər sahibkarların fəaliyyətinə edilən lüzumsuz müdaxilələrin və onların inzibati yükünün artmasının qarşısının alınmasına, ümumilikdə isə sahibkarlığın inkişafına, biznes mühitinin daha da yaxşılaşdırılmasına xidmət edəcək.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Spiker Sahibə Qafarova diqqətə çatdırıb ki, gündəliyin son 5 məsələsi ölkə Prezidentinin bir məktubu ilə Milli Məclisə daxil olub və mahiyyətcə bir-birinə bağlıdır.

O qeyd edib ki, gündəliyin 18-ci məsələsi "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda (birinci oxunuş), 19-cu məsələsi "Elm haqqında" Azərbaycan Respublikasının Qanununda (birinci oxunuş), 20-ci məsələsi "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının Qanununda (birinci oxunuş), 21-ci məsələsi Azərbaycan Respublikasının Əmək Məcəlləsində, "Məktəbəqədər təhsil haqqında" və "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında (birinci oxunuş) və 22-ci məsələsi "Sanitariya-epidemioloji salamatlıq haqqında", "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında", "Yanğın təhlükəsizliyi haqqında", "Milli arxiv fondu haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında (birinci oxunuş) dəyişikliklər edilməsi barədə qanun layihələridir.

Spiker bildirib ki, 18-ci, 19-cu və 20-ci məsələlərə Elm və təhsil komitəsində baxılıb.

Sonra Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev qeyd olunan qanun layihələrini təqdim edib. Bildirilib ki, "Təhsil haqqında" qanunda dəyişiklik edilməsi barədə layihə "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Prezidentinin 2022-ci il 28 iyul tarixli Fərmanının icrası məqsədilə hazırlanıb.

Qeyd olunub ki, bununla yanaşı, Prezidentin 22 iyul 2022-ci il tarixli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda qabaqcıl təcrübə əsasında məktəbəqədər təhsil üzrə pedaqoji və idarəetmə heyətinin sertifikatlaşdırılması sisteminin yaradılması və tətbiqi, sertifikatlaşdırılma mexanizminin layihəsinin hazırlanması nəzərdə tutulub. Strategiyanın tələblərindən irəli gələrək, təklif olunan dəyişikliklər sosial müdafiəsi gücləndirilən müəllimlərin əhatə dairəsinin artırılması məqsədi ilə ilk dəfə işə qəbul olunan təhsilverənlərin 5 il müddətinə deyil, 3 il müddətinə sertifikatlaşdırmadan keçməməsini müəyyən edir. Həmçinin, yaşı 60 və daha çox olan şəxslərin sertifikatlaşdırmaya könüllü əsaslarla cəlb edilməsi təklif edilir.

Qeyd olunanlarla bağlı "Elm haqqında" qanuna da müvafiq düzəlişlərin edilməsi nəzərdə tutulub.

Komitə sədri bildirib ki, "Peşə təhsili haqqında" qanuna təklif olunan dəyişiklik peşə təhsili müəssisələrində müasir standartlara uyğun effektiv kadr siyasətinin həyata keçirilməsi və həmin müəssisələr üçün yüksək keyfiyyətli və innovativ təlim metodlarına cavab verən ixtisas dərsliklərinin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin hazırlanması sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə əlaqədar hazırlanıb.

Qanuna təklif olunan 4.0.19-1-ci yeni müddəada peşə təhsilinin müasir standartlara uyğun olaraq təşkil edilməsi üçün təhsilverənlərin işə qəbulu və yerdəyişməsi qaydalarının təsdiq olunması öz əksini tapıb. Əlavə edilmiş digər 4.0.19-2-ci maddədə peşə təhsili müəssisələri üçün dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin hazırlanması qaydalarının müəyyənləşdirilməsi nəzərdə tutulub.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev gündəliyin 21-ci məsələsi Əmək Məcəlləsində, "Məktəbəqədər təhsil haqqında" və "Ümumi təhsil haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edib. Bildirilib ki, adıçəkilən qanunlara təklif olunan dəyişikliklərin əsas məqsədi xüsusilə təhsilin ilkin pillələrində islahatların dərinləşdirilməsi, təhsilverənlərin sertifikatlaşdırılmasının hüquqi əsaslarının genişləndirilməsi və onların sosial müdafiəsinin daha da yaxşılaşdırılmasından ibarətdir.

Səhiyyə komitəsinin sədr müavini Rəşad Mahmudov 22-ci məsələ "Sanitariya-epidemioloji salamatlıq haqqında", "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında", "Yanğın təhlükəsizliyi haqqında", "Milli arxiv fondu haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi ilə bağlı məlumat verib. O bildirib ki, bundan əvvəl təqdim edilən sənədlərdə qeyd olunanlarla əlaqədar bu layihədə də təklif olunan dəyişikliklər uyğunlaşdırma xarakteri daşıyır.

5 qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***



# Azərbaycanın qətiyyəti sülhü də bərqərar edəcək

Əvvəli 1-ci səh.

Hayastanın bu təxribat əməllərini törətdiyi zamana diqqət etdikdə isə riyakar hayların çirkin planları gün kimi ortaya çıxır.

Diqqət edin: mayın əvvəllərində Vaşinqtonda Hayastanla Azərbaycan xarici işlər nazirləri sülh prosesi çərçivəsində bir neçə gün danışıqlar apardı və əksər siyasi şərhçilər bu danışıqları sülh sazişinin bağlanması istiqamətində atılan müsbət addım kimi dəyərləndirdilər.

Azərbaycan və Hayastan liderləri mayın 14-də Brüsseldə görüşəcəklər. Eyni zamanda yekun razılıq olmasa da, iyunun 1-də Kişinyovda keçiriləcək Avropa Siyasi İcmasının iclası çərçivəsində də Azərbaycan və Hayastan liderlərinin görüşü mümkündür.

Bəs Cənubi Qafqazda sülhün əldə olunması üçün danışıqların intensivləşdiyi, eyni zamanda liderlər arasında baş tutması planlaşdırılan danışıqlar ərəfəsində məkrli Hayastan nə etdi? Həmişəki kimi iyrənc "taktika"sına əl ataraq ölkəmizə qarşı hərbi təxribatlar törədib sülh razılaşmasına zərbə vurmağa çalışdı.

## İrəvan sülh danışıqlarına xələl gətirir

44 günlük müharibədə BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnaməsini Azərbaycan özü icra edərək torpaqlarının 30 illik işğalına son qoydu. Ölkəmiz müharibədən sonra yüksək humanizm nümayiş etdirərək məğlub Hayastana sülh təklif edərək iki dövlət arasında normallaşmaya nail olunması üçün mühüm təşəbbüslərlə çıxış edib.

Xatırladaq ki, 2020-ci il 10 noyabr və 2021-ci il 11 yanvar bəyanatlarından sonra Azərbaycan Prezidenti İlham Əliyev, Hayastanın baş naziri Nikol Paşinyan və Rusiya Prezidenti Vladimir Putin 2021-ci ilin 26 noyabrında Soçi Bəyanatını imzalayıblar. Eləcə də Avropa İttifaqının vasitəçiliyi ilə 2021-ci ilin dekabrından başlayan "Brüssel prosesi" sayəsində üçtərəfli bəyanatlarda nəzərdə tutulan məsələlərin real müstəvidə həlli ilə bağlı əhəmiyyətli irəliləyişlərə nail olunub. Bu prosesdə Azərbaycan regionda təhlükəsizliyin, əməkdaşlığın, rifahın təmin edilməsi yönündə mühüm təşəbbüslər irəli sürüb.

Lakin ötən il dekabrın 7-də keçirilməsi planlaşdırılan və sülhə bağlı böyük gözləntilərin olduğu növbəti Brüssel görüşü Paşinyanın bilərəkdən etdiyi barışığa xələl gətirən tələbi ilə baş tutmadı. Ötən ilin payızında Soçidə keçirilən görüşdə üzdə sülhə razı olduğunu göstərən Paşinyan əməldə bunun əksini nümayiş etdirib.

Rəsmi İrəvan istisnasız olaraq sülh razılaşması ilə bağlı aparılan və aparılacaq danışıqlar ərəfəsində Azərbaycana qarşı hərbi təxribatlar törədərək sülhə əngəl olmağa çalışıb. Ötən ilin sentyabrında ölkəmizə qarşı növbəti törədilən təxribatının qarşısı layiqincə alınıb. Amma o da reallıqdır ki, Hayastanın bu əməlləri bölgədə davamlı sülhə xələl gətirir.

## "Dəmir yumruq" yerindədir

Hayastan bütün bu əməlləri ilə sülh razılaşmasını imzalamaqdan yayınmağa çalışır. 44 günlük müharibədəki biabırçı məğlubiyyətindən dərs çıxarmayaraq, Azərbaycana qarşı ərazi iddialarını davam etdirmək, xəstə erməni təfəkkürü ilə sülh razılaşmasının imzalanmasını sonsuzadək uzatmaq istəyir. Amma ipi başqalarının əlində olan, bütün iqtisadi, siyasi, sosial, hərbi sferalarda məhvə məhkum olan Hayastan düşünmür ki, sülh razılaşması onun da mənafeyinə xidmət edir və yalnız bu sayədə dalan, səfil ölkə olmaqdan qurtula bilər...

Hələlik görünən odur ki, Hayastan qəti şəkildə sülh istəmir. Və Prezident İlham Əliyevin söylədiyi kimi, əgər Ermənistan sülh istəmirsə, sülh olmayacaq... Bu hal isə nə Ermənistan, nə də region üçün yaxşı olmayacaq.

Qüdrətli Azərbaycan müharibə meydanında qalib gələrək suveren ərazilərini bərpa edib, siyasi platformada milli maraqlarını qətiyyətlə təmin edib və edəcəkdir. Eyni zamanda hazırda ölkəmiz qarşısına qoyduğu milli prioritetə əsasən işğaldan azad ediyi ərazilərini minalardan təmizləyərək, o yerlərdə yenidən həyatın var olması üçün mühüm layihələr həyata keçirir, sakinlərinin qayıdışını gerçəkləşdirir.

"Dəmir yumruq" da ki öz yerindədir və beynəlxalq havadarlarına güvənərək ölkəmizə qarşı təxribat törətmək istəyən axmaq Hayastanın hər zaman layiqli cavabını verərək yerinə otuzdurur. Necə ki son təxribatı da Hayastana baha başa gəldi.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Hayastan sülh prosesini yenidən pozmaq istəyir

Mayın 10-11-də Hayastan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonu istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun üzbəüz mövqelərini atəşə tutublar. Təxribat nəticəsində ordumuzun hərbi qulluqçusu şəhid olub. Brüssel görüşü ərəfəsində törədilən bu təxribat bir daha onu göstərir ki, Hayastan sülhün əldə olunmasında maraqlı deyil.





Mövzu ilə bağlı Milli Məclisin deputatlarının fikirlərini öyrəndik.

## Şuşadakı atəşfəşanlıq hayları rahat yatmağa qoymayıb

**Milli Məclisin deputatı Anar İsgəndərov** bildirib ki, Hayastan silahlı birləşmələri tərəfindən mayın 10-11-də Azərbaycan torpaqlarında törədilən növbəti təxribat göstərir ki, haylar tarix boyu hansı sifətin sahibi olublarsa, bu gün də elədir, məkr və hiylədən əl çəkmək istəmirlər: "Onlar bir tərəfdən gözyaşı axıdaraq Azərbaycanla sülh müqaviləsi imzalamaq istədiklərinə bütün dünyanı inandırmağa çalışır, digər tərəfdən isə xəbis niyyətlərini gizlədə bilmirlər. Azərbaycan əsgərlərinə namərdcəsinə snayper güllələsi atırlar. Lakin unutmasınlar ki, Azərbaycan 1990-cı illərin Azərbaycanı deyil. Bu gün bütün dünyanın qəbul etdiyi, inkişaf etmiş ölkələrin enerji təminatçısı olan, türk dövlətləri arasında, müsəlman dünyasında, eləcə də Avropada tanınan və hörmətlə qarşılanan Azərbaycan dövləti var. Digər tərəfdən isə, müasir, güclü orduya sahibdir. Hayastan bunu anlamırsa, vay onun halına!"

Deputat qeyd edib ki, Azərbaycan sülh müqaviləsi imzalamaq üçün hələ 2020-ci ilin noyabrında şərtlərini Hayastana diktə edib: "Hayastan isə prosesi uzatmaq üçün hər dəfə bir bəhanə gətirir. Azərbaycan tərəfi danışıqlar üçün məkan fərqi qoymur. İstər Vaşinqton olsun, istərsə də Moskva və ya Brüssel - yəni hara olursa-olsun, Azərbaycan qalib dövlət kimi haqqı diktə edir. Bizim heç bir dövlətin, o cümlədən də Hayastanın torpaqlarında gözümüz yoxdur. Azərbaycan torpaqlarını 30 il işğalda saxlayan, kəndlərimizdə daşı daş üstdə qoymayan Hayastan olub. Hayların türklərə və azərbaycanlılara qarşı cinayətlərinin sayı-hesabı yoxdur. Bunları unutmaq olarmı?! Ermənimekrinin mahiyyətini bu qədər tez yaddan çıxarmaq olarmı?! Əlbəttə ki, yox!"

Anar İsgəndərov vurğulayıb ki, Şuşadakı atəşfəşanlıq hayları rahat yatmağa qoymayıb: "Ona görə təxribatlarını növbəti dəfə işə salıblar. Lakin onların bütün cəhdləri əbəsdir. Nəzərə almaq lazımdır ki, Azərbaycan bu gün ərazi bütövlüyünü qorumaq üçün lazım olan hər şeyə qadirdir. Prezident, Ali Baş Komandan İlham Əliyevin möhkəm siyasi iradəsi, güclü, müasir olan Azərbaycan Ordusu və xalqı dəmir yumruğa çevirə bilən azərbaycançılıq ideologiyası dövlətimizin gücünə güc qatır. Bunun sayəsində üçrəngli bayrağımız qürurla dalğalanır".

## Sülh istəyən qüvvələr İrəvana təzyiqlərini artırmalıdırlar

**Milli Məclisin deputatı Arzu Nağıyev** deyib ki, Hayastan sülh müqaviləsinin imzalanması üçün zəmin yaranan vaxt mütləq təxribata əl atır: "Ötən günlərdə Kəlbəcər istiqamətində mövqelərimizin Hayastan dövlətinin ərazisindən atəşə məruz qalması bunu bir daha göstərir. Brüsseldə keçiriləcək görüş ərəfəsində belə təxribatın törədilməsi onu deməyə əsas verir ki, Hayastan sülh müqaviləsini imzalamaqdan nəyin bahasına olursa-olsun imtina etməyə çalışır. Hayastanın siyasi, hərbi rəhbərliyində də mövqelər fərqlidir. Paşinyana müxalif olan qüvvələr cidd-cəhdlə status-kvonun saxlanmasına çalışırlar. Onların havadarları da bu məsələni daim qabardır, gündəmdən düşməyə imkan vermək istəmirlər. Belə təxribatların baş verməməsi üçün sülhməramlı qüvvələr öz vəzifələrinə ciddi yanaşmalıdırlar. Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzi bu təxribatlarla bağlı araşdırma aparmalı və ictimaiyyətə məlumat verməlidir".

Deputat bildirib ki, Azərbaycan tərəfi Hayastanla danışıqlarının müsbət nəticələr verməsinə, münasibətlərin normallaşmasına çalışır: "Regionda sülhün bərqərar olmasından ötrü hətta heç bir beynəlxalq statusu olmayan erməni icması ilə belə, danışıqlar aparmaq fikrimiz var. Lakin haylar öz çirkin əməllərindən əl çəkmək istəmirlər. Onlar Laçın yolunda qurulmuş sərhəd buraxılış-məntəqəsinin ləğv edilməsinə çalışırlar. Bu isə mümkün deyil, çünki həmin torpaqlar bizim suveren ərazilərimizdir. Danışıqların gedişi, eləcə də Laçın yolunda sərhəd-buraxılış məntəqəmizin qurulması Hayastan və havadarlarına xoş olmadığına görə onların təxribatlarının ardı-arası kəsilmir".

Arzu Nağıyevin sözlərinə görə, Hayastanın təxribatlarının əsasında sülh müqaviləsinin imzalanmasına mane olmaq məqsədi dayanır: "Azərbaycan tərəfi isə nə olursa-olsun sülhü bərqərar etmək üçün lazımi addımlar atır. Hayastan unutmamalıdır ki, Azərbaycan daxili məsələlərini təkbaşına həll etmək iqtidarındadır. Azərbaycanla Hayastan arasında sülhün bağlanmasını istəyən qüvvələr də İrəvana bu məsələdə təzyiqlərini artırmalıdırlar. Bu gün Paşinyan orduya nəzarəti tam həyata keçirə bilmir. Bu, hər şeydən əvvəl elə Hayastanın özünə ziyan verir".

*Nəzrin QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Ermənistanın pozuculuq fəaliyyətlərinin qarşısı Azərbaycan dövləti tərəfindən güzəştsiz şəkildə alınacaq

"Bugünkü müasir Azərbaycanın əldə etdiyi uğurların arxasında Ulu Öndər Heydər Əliyevin müdrik siyasəti dayanır. Milli-mənəvi dəyərlər və tarixlə buxovlanmış azərbaycançılıq ideyası məhz Ümummilli Lider tərəfindən işlənərək bizlərə əmanət edilib. Bu ideologiyanın başlıca uğuru isə İkinci Qarabağ müharibəsində iştirak edən azərbaycanlı gənclərin məhz bu düşüncə əsasında böyüməsi olub. Vətənə xidmət, dövlətə sədaqət və xalqa etimad kimi elementlərlə zəngin olan Heydər Əliyev siyasəti və azərbaycançılıq məfkurəsi bu gün Azərbaycanı yeni üfüqlərə və uğurlu perspektivlərə aparır".



Bu fikirləri AZƏRTAC-a açıqlamasında politoloq Amid Əliyev söyləyib.

O qeyd edib ki, milli neft strategiyası, iqtisadi inkişaf, ordu quruculuğu və sosial təminat kimi vacib sahələrin təməlində Ulu Öndər Heydər Əliyevin titanik əməyi dayanır. Hazırda bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla icra edilir. 2003-cü ildən bu günə qədər əsası Ümummilli Lider tərəfindən qoyulmuş siyasi sütunlar əsasında Azərbaycan hər bir sahədə nəzərəçarpacaq uğurlar əldə edərək, yeni strateji hədəfləri özü müəyyənləşdirir.

"2020-ci ildə qazanılmış zəfər Ali Baş Komandanın məhz Heydər Əliyevə məruzəsi ilə öz təsdiqini tapmış oldu. Azərbaycanın gözü olan Şuşanın işğaldan azad edilməsinin müqəddəs vəzifə və Ümummilli Liderin vəsiyyətinin icrası kimi qəbul edilməsi heç də təsadüfi deyil. Məhz Heydər Əliyev Qarabağın azad olunması istiqamətində əsas konturları və xarici siyasət konsepsiyasını müəyyən edib. Bu gün Azərbaycanı Avropa üçün etibarlı və cəlbedici tərəfdaş qismində tanıdan da məhz Ümummilli Liderin müəllifi olduğu neft strategiyasıdır. Ölkəmizin karbohidrogen ehtiyatlarının dünya bazarına çıxarılması, "Azəri Light" brendinin dünya birjalarında yer alması da Heydər Əliyevin adı ilə bağlıdır. Bu gün Azərbaycan cəmiyyətində vəhdətin, birliyin, tolerantlığın və humanizm prinsiplərinin yaranması Heydər Əliyevin azərbaycançılıq fəlsəfəsi ilə birbaşa əlaqəlidir. Ötən əsrin 70-80-ci illərindən başlayan irimiqyaslı sənaye quruculuğu bu gün öz əksini Qarabağda aparılan yenidənqurma və bərpa işlərində tapır. Bir vaxtlar Qarabağda Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş bir sıra infrastruktur obyektləri indi Prezident İlham Əliyevin başçılığı ilə yenidən müasir görkəm alır", - deyə A.Əliyev vurğulayıb.

Politoloq bildirib ki, Azərbaycan mədəniyyətinin hamisi rolunda çıxış edən Heydər Əliyevin tarixi ənənələri bu gün uğurla davam etdirilir. Milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması və gələcək nəsillərə ötürülməsi dövlət siyasətinin əsas xətlərindən biridir.

O əlavə edib ki, regionda güc və söz sahibi olan Azərbaycan qeyd olunanlar fonunda heç bir zaman bu gücü və sözü kölgələmək istəyən qüvvələrə imkan verməyəcək. Azərbaycanın daxili işləri heç bir qüvvənin müzakirə mövzusu ola bilməz. İşğalçı və terrorçu dövlət olan Ermənistan və onun havadarlarının müxtəlif məzmunlu pozuculuq fəaliyyətlərinin qarşısı qüdrətli Azərbaycan dövləti tərəfindən güzəştsiz şəkildə alınacaq. Bunun üçün Azərbaycanın real siyasi, iqtisadi və hərbi qüdrəti var.

"Son bir ay ərzində Azərbaycanın bölgədə yaratmış olduğu reallıq sayəsində yeni geosiyasi vəziyyət müşahidə edilir. Bu da Azərbaycan tərəfindən təklif olunmuş sülh gündəliyinin daha da real şəkildə yerdə implementasiyasını zəruri edir. Yeni reallıq Ulu Öndərin müəyyənləşdirdiyi siyasi kursun əsas istiqaməti kimi Azərbaycanın müasir dünyada və beynəlxalq münasibətlər sistemində qüdrətli və etibarlı siyasi aktor olmasını şərtləndirib", - deyə politoloq vurğulayıb.

# *Siyasi ekspert:* "Ermənistanın hərbi-siyasi rəhbərliyi sülh istəmədiyini bir daha nümayiş etdirir"

"Azərbaycanın suveren ərazilərinə qarşı həyata keçirilən növbəti hərbi təxribatlarla Ermənistan hərbi-siyasi rəhbərliyi sülh istəmədiyini bir daha nümayiş etdirir".



Bunu AZƏRTAC-a açıqlamasında siyasi şərhçi Sahil Kərimli söyləyib.

S.Kərimlinin sözlərinə görə, bu hadisə bir daha sübut edir ki, Ermənistan bölgədə sülhə və təhlükəsizliyə ciddi zərbə vurmaqda maraqlıdır. Ermənistanın baş naziri Nikol Paşinyan hər nə qədər sülh bəyanatları versə də, görünən odur ki, bütün bunlar, sadəcə, ucuz manipulyasiyadır. "Ermənistan ordusunun Azərbaycanla şərti sərhəddə gərginliyi artırması, əraziyə xeyli sayda hərbi texnika və silah-sursat cəmləşdirməsi yeni münaqişə ocağı yaratmağa cəhd kimi qiymətləndirilməlidir. Son saatlarda Azərbaycan Silahlı Qüvvələrinin mövqelərinin atəşə tutulması, bir hərbçimizin ağır yaralanması Ermənistanın təcavüzkar siyasətinin davamıdır", - deyə S.Kərimli diqqətə çatdırıb.

Siyasi şərhçinin fikrincə, rəsmi İrəvan yaxşı başa düşür ki, Azərbaycan həm siyasi, həm də hərbi müstəvidə güclü və qüdrətlidir. Rəsmi Bakı istənilən ssenariyə hazırdır. Sual olunur, belə olduğu halda, düşmən nəyə və kimə güvənir? Cavab sadədir. Havadarlarına, dəstəkçilərinə!!!

Siyasi şərhçi bununla bağlı deyib: "Son danışıqlar prosesində yenə qeyri-konstruktiv mövqe tutan Ermənistan indi də hərbi təxribatlar törətməklə nəyəsə nail olmaq istəyir. Eyni zamanda Ermənistanı dəstəkləyən ölkələr də prosesdən öz maraqları üçün istifadə edir.

Hesab edirəm ki, Azərbaycan Ordusunun cavabları həmişəki kimi, yenə adekvat olacaq və düşmənə sarsıdıcı zərbələr endiriləcək. Beynəlxalq təşkilatlar, xarici siyasi dairələr, xüsusilə də Ermənistana dəstək olan qüvvələr bilməlidirlər ki, Paşinyan hakimiyyətinin hərbi təxribatları yeni müharibəni alovlandıra bilər. İstənilən halda bütün məsuliyyət Ermənistanın və onun havadarlarının üzərinə düşür".



# Heydər Əliyev İli 2023

# Azərbaycanda biologiya və aqrar elmlərin inkişafında Ulu Öndər Heydər Əliyev epoxası



Dünya tarixindən məlumdur ki, hər hansı dövlətin qurulması, təşəkkülü və müstəqilliyinin təmin edilməsi, mövcud olduğu siyasi və iqtisadi coğrafiyada tutduğu mövqe, qazandığı uğurlar müdrik və qətiyyətli, fədakar və uzaqgörən, elmi fəaliyyətə dəyər verən siyasi, hərbi və mənəvi liderlik qabiliyyətlərinin birləşdiyi şəxsiyyətlər sayəsində mümkün ola bilir. Məhz bu cür lider-şəxsiyyətlər haqq yolunu taparaq düzgün qərarlar verib öz xalqlarını arxalarınca aparır, tarixin səhifələrini yenidən "yazır", müəyyən zaman kəsiklərində dövlətlərin taleyinə və inkişafına ciddi təsir edən hadisələrin mərkəzində dayanır, bəzən tarixi gedişatı belə dəyişəcək qədər qüdrət və gücə malik olurlar. Tarixlərinin müəyyən dönəmlərində belə liderləri olmayan xalqlar irili-xırdalı faciələrlə üzləşir, tari-mar olur, başqalarından asılı hala düşürlər.

XX əsrin ikinci yarısında və XXI əsrdə sadalanan bu xüsusiyyətləri özündə birləşdirmiş Ümummilli Liderə - Ulu Öndər Heydər Əliyev kimi millət atasına və onun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev kimi görkəmli dövlət xadiminə malik olan xalqımız çox xoşbəxtdir və bu faktlar özü də millətimizin böyüklüyünün və sarsılmaz gücünün bariz göstəricisidir.

Azərbaycan Respublikası müstəqilliyin bərpası və yeni ictimai-siyasi formasiyaya keçid dövrünün bütün çətinliklərinə, problem və təhdidlərinə qalib gələrək intensiv inkişaf yoluna çıxmışdırsa, dövlətin və xalqın təhlükəsizliyini təmin edə biləcək qüdrətə çatmışdırsa, Vətən müharibəsində böyük Zəfərin əldə edilməsinə nail olmuşdursa, bütün bunlar Heydər Əliyevin şəxsiyyəti, rəhbərlik qüdrəti, sarsılmaz iradəsi, əsasları məhz onun tərəfindən 53 il bundan öncə ölkəyə rəhbərlik etməyə başlayarkən qoyulmuş böyük siyasi, iqtisadi, mədəni, dövlətçilik strategiyası, düşünülmüş elm və təhsil siyasəti sayəsində gerçəkləşmişdir.

Xatırlatmaq yerinə düşər ki, Ulu Öndərin respublikaya birinci rəhbərliyi ərəfəsində - 1960-cı illərin sonlarında Azərbaycan iqtisadiyyatı dərin böhran mərhələsini yaşayırdı. Bir çox sahələrdə - milli gəlirin inkişaf templərinə, sənaye və kənd təsərrüfatı istehsalının həcminə, elmi-texniki tərəqqi nailiyyətlərinin istehsala tətbiqinə, ictimai əməyin məhsuldarlığına görə ümumittifaq göstəricilərindən geridə qalırdı. Neft sənayesi, energetika, qara metallurgiya, kimya və neft kimyası üzrə sənaye sahələrində, kənd təsərrüfatında texniki-iqtisadi göstəricilər çox aşağı idi. Ölkədə bir sıra sənaye sahələri praktiki olaraq yox səviyyəsindəydi. Azərbaycan üçün ənənəvi sayılan taxıl, pambıq, tərəvəz, üzüm, çay və digər bitkilərin, heyvandarlıq sahələrinin məhsuldarlığı aşağı idi. İqtisadiyyatın inkişafı üçün prinsip etibarı ilə yeni konseptual proqramın işlənib hazırlanması, xalq təsərrüfatında köklü struktur dəyişikliklərinin həyata keçirilməsi, təsərrüfatçılıq işində yeni metodların, innovativ həllərin tapılması və tətbiq edilməsi və digər təxirəsalınmaz vəzifələr qarşıda dururdu. Bu çətin və mürəkkəb işlərin həyata keçirilməsində vətənpərvər və xalqsevər, dərin biliyə malik liderə, güclü və bacarıqlı təşkilatçıya, cəsarətli olduğu qədər də müdrik olan bir rəhbərə dərin ehtiyac duyulurdu.

Məhz belə bir zamanda xalqımızın və milli dövlətçiliyimizin tarixində böyük bir dönüş nöqtəsi olan hadisə baş verdi. Azərbaycanda Heydər Əliyev epoxasına start verildi, ölkənin iqtisadiyyatında, mədəniyyətində, dövlət quruculuğunda, ictimai-hüquq sistemində, elm və təhsilində yeni, möhtəşəm bir dövrün başlanğıcı qoyuldu.

Ulu Öndərin şəxsiyyətinin dahiliyi haqqında nə qədər çox yazılsa, nə qədər çox deyilsə də, onun Azərbaycan tarixindəki, bütün sahələrdə, o cümlədən elmimizin və təhsilimizin inkişafındakı müstəsna rolunu tam təsəvvür etmək, bəlkə də, mümkün deyildir. Heydər Əliyev Azərbaycan elminin böyük hamisi idi.

Ümummilli Lider ölkəyə rəhbərlik etməyə başlayarkən öz fəaliyyətinə ölkə və cəmiyyət həyatının bütün sahələrində problemləri analiz etməkdən başlamışdı. Böyük rəhbər ilk növbədə elmi ictimaiyyətlə məsləhətləşmələr aparmış, böyük təbiətşünas alim akademik Həsən Əliyevin "Həyəcan təbili" əsərində qaldırdığı problemləri ciddi təhlil etmiş, bu problemlərin həllinə, o cümlədən bütün ölkə üzrə ekoloji vəziyyətin yaxşılaşdırılmasına, ətraf mühitin mühafizəsinə, təbii ehtiyatlardan səmərəli istifadə məsələlərinə, ərzaq təhlükəsizliyinin təmin olunmasına böyük diqqət yetirmişdir. Azərbaycanın təbii sərvətlərinin tədqiqini və mühafizəsini, elmi nailiyyətlərin əldə olunması və onların insanın həyat keyfiyyətinin yüksəldilməsinə tətbiqinə nail olunmasını özünün dövlətçilik fəaliyyəti üçün başlıca məqsədlər kimi müəyyənləşdirmişdi.

Məhz 1970-ci illərin əvvəllərindən başlayaraq Ulu Öndərin məqsədyönlü siyasəti və planlı fəaliyyəti sayəsində ölkənin antropogen amillərin təsirindən ziyan görən yaşıl örtüyünün və heyvanlar aləminin bərpası, yeni-yeni yaşıl massivlərin, meşə zolaqlarının salınması kütləvi xarakter almış, prosesə dövlət resursları və əhali kütləsi geniş şəkildə cəlb olunmuşdu.

1969-1982-ci illərdə Azərbaycana rəhbərlik edən Heydər Əliyev tərəfindən ekologiya, ətraf mühitin mühafizəsi və təbii resurslardan səmərəli istifadəyə dair çox mühüm 8 qanun, Azərbaycan KP MK-nin, Nazirlər Sovetinin 32 qərarı qəbul olunmuşdur.

Ümummilli Lider Azərbaycan SSR KP MK-nin 1969-cu ilin avqust ayında keçirilmiş məşhur plenumunda özünün uzunmüddətli inkişafa hesablanmış iqtisadi və idarəçilik proqramını elan edərkən respublikanın xalq təsərrüfatında elmin rolunun artırılmasını, həm fundamental, həm də tətbiqi elm sahələrinin, milli təhsil sisteminin inkişaf etdirilməsini, elm və təhsil adamlarına diqqət və qayğı göstərilməsini fəaliyyətinin başlıca istiqamətləri kimi göstərmiş, bütün sonrakı həyatını bu ideallara xidmət etməyə sərf etmişdir.

Xarakterikdir ki, son 100 ildə böyük bir inkişaf yolu keçmiş Azərbaycan elmi və milli təhsil sistemi 1960-cı illərin sonlarından yüksək səviyyədə inkişaf etməyə başlayaraq 70-ci illərin sonu 80-ci illərin əvvəllərində intibah dövrünü yaşamışdır. Məhz Heydər Əliyevin məqsədyönlü siyasəti və planlı fəaliyyəti sayəsində 1970-ci illərdə ölkədə elmin maddi-texniki bazası əhəmiyyətli dərəcədə möhkəmləndirilmiş, Azərbaycan elmi kifayət qədər geniş dairədə tanıdılmış, elmi tədqiqatların istiqamətləri dünyada gedən tendensiyalara və ölkənin konkret tələbatlarına uyğun şəkildə genişləndirilmiş və ən vacib problemlərin həllinə yönəldilmiş və səviyyəsi xeyli yüksəldilmiş, elm və təhsil müəssisələrində çalışan hər kəs böyük qayğı və diqqətlə əhatə edilmişdi.

Bütün bunlar sayəsində Heydər Əliyev Azərbaycanı keçmiş SSRİ-nin ən sanballı elm və təhsil mərkəzlərindən birinə çevirməyi bacarmışdı. Bir neçə fakta diqqət çəkək. 1970-ci illərdə sovet Azərbaycanında orta ümumtəhsil məktəbləri şəbəkəsi təqribən 3 dəfə genişləndirilərək 765-dən 2117-yə çatdırılmışdı. 1969-cu ildə Azərbaycanda 89 elmi-tədqiqat institutu, 12850 elmi işçi, o cümlədən 55 akademik və müxbir üzv, 329 elmlər doktoru və 3000 elmlər namizədi var idisə, 1980-ci illərin əvvəllərində 123 elmi müəssisə və 17 ali məktəbdə 22 min elmi əməkdaş, o cümlədən Azərbaycan SSR EA-nın 56 həqiqi və 71 müxbir üzvü, 900-ə qədər elmlər doktoru və 8 minə qədər elmlər namizədi çalışırdı.

Ulu Öndərin hər zaman Elmlər Akademiyasına, onun elmi heyətinə xüsusi həssaslıqla yanaşması məlum həqiqətdir. Ümummilli Liderin respublikaya rəhbərlik etdiyi və SSRİ rəhbərliyində təmsil olunduğu illərdə Azərbaycan EA "Xalqlar dostluğu" ordeni (1995) ilə təltif olunmuş, onun əməkdaşları beynəlxalq yarmarkalarda, xalq təsərrüfatı sərgilərində qızıl medallara, dövlət və hökumət təltiflərinə, o cümlədən 5 Lenin, 14 SSRİ Dövlət, onlarca Respublika Dövlət mükafatına layiq görülmüş, bir neçə alim Sosialist Əməyi Qəhrəmanı adını almışdı.

1970-ci ildən 1980-ci illərin əvvəllərinə kimi EA-da aparılmış tədqiqatların nəticələrinin, ümumiyyətlə, 850-yə yaxın işin istehsalata tətbiqi sayəsində 570 milyon manatdan çox iqtisadi səmərə əldə edilmiş, 1000-dən çox patent və müəlliflik şəhadətnaməsi alınmışdı.

Heydər Əliyevin gələcəyə hesablanmış siyasi kursunun mühüm tərkib hissələrindən, o cümlədən Azərbaycan elmi qarşısında mühüm xidmətlərindən biri də müxtəlif elmlər, o cümlədən biologiya və aqrar elmlərin ən müasir və perspektiv sahələrində yüksəkixtisaslı alim və mütəxəssis kadrların hazırlığı ilə bağlı məsələyə ciddi diqqət yetirməsi olmuşdur.

Ulu Öndərin respublikaya rəhbərliyi dövründə kadr hazırlığında yerli təhsil institutlarının rolu və imkanları xeyli genişləndirilmiş, müvafiq institutların statusunda dəyişikliklər edilmişdir. Müdrik liderin Azərbaycan SSR-yə rəhbərlik etdiyi illərdə 5 yeni ali təhsil müəssisəsi, onlarca kafedra, problem laboratoriyaları, yüzlərlə yeni ixtisas açılmış, ali təhsilli şəxslərin sayı 70 mindən 100 minə qədər artmışdı. 1982-ci ildə 21 ali təhsil müəssisəsində 136 fakültə və 530 kafedra fəaliyyət göstərirdi.

Heydər Əliyevin biologiya və aqrar elmlərin ən müasir və perspektiv sahələrində yüksəkixtisaslı alim kadrların hazırlığı ilə bağlı məqsədyönlü siyasətinin həyata keçirilməsində, Ulu Öndərin dəstəyi ilə Azərbaycanda biologiya elminin inkişafında görkəmli alim və ictimai-siyasi xadim akademik Cəlal Əliyevin xidmətlərini mütləq qeyd etmək lazımdır. Onun elmi uzaqgörənliyi sayəsində Azərbaycanda biokimya, molekulyar biologiya, molekulyar genetika, gen və hüceyrə biotexnologiyaları, gen mühəndisliyi, riyazi biologiya, bioinformatika, kompüter biologiyası və sair kimi mühüm elmi istiqamətlərin təşəkkülü və inkişafı, müxtəlif elm sahələri (kimya, fizika, riyaziyyat və s.) üzrə savadlı mütəxəssislərin biologiya və aqrar elmlər üzrə tədqiqatlara cəlb olunması, kadrların hazırlanmasında keçmiş ittifaqın və uzaq xaricin tanınmış elm və təhsil mərkəzlərindən istifadə edilməsi öz bəhrəsini vermişdir.

Alim 1971-ci ildə Azərbaycan SSR EA Botanika İnstitutunda elmi-tədqiqat qrupu yaratmış, 1974-cü ildə bu qrup Fiziki-Kimyəvi Biologiya sektorunun nəzdində Bioenergetikanın molekulyar əsasları laboratoriyasına çevrilmişdir. 1983-cü ildə həmin laboratoriyanın bazasında Məhsuldarlıq proseslərinin molekulyar-genetik əsasları laboratoriyası yaradılmış, 1988-ci ilin sonunda laboratoriya şöbəyə çevrilmişdir. Burada aparılan kompleks tədqiqat işləri kənd təsərrüfatı bitkilərinin potensial məhsuldarlığının reallaşdırılmasının fizioloji-genetik əsaslarının öyrənilməsinə yönəldilmiş, dünya səviyyəsində ciddi şəkildə qəbul edilən nəticələrə nail olunmuşdur.

1970-1980-ci illərdə SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almış onlarca gənc mütəxəssis müstəqillik illərində Cəlal Əliyev tərəfindən yenidən uzaq və yaxın xaricə təhsil və biliklərinin artırılması məqsədilə göndərilmiş, geri dönən alimlər onun şöbəsinin özəyini təşkil etmişdilər. Bu kadr potensialının səyləri, dəfələrlə aparılan islahatların və modernləşdirmənin nəticəsi olaraq sonralar qeyd edilən şöbənin bazasında Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun yaradılması haqqında müvafiq qərar qəbul edilmiş, institut 2016-cı ildən müstəqil fəaliyyətə başlamışdır. Yeni elmi-tədqiqat müəssisəsinin ərsəyə gəlməsi prosesinə unikal nümunə olan bu institut Ulu Öndərin və cənab Prezidentin diqqət və qayğısı sayəsində bugünkü inkişaf səviyyəsinə çatmışdır.

Molekulyar biologiya sahəsində görkəmli alim, bir çox nüfuzlu mükafatların sahibi, tanınmış akademiya və cəmiyyətlərin üzvü akademik Andrey Daryeviç Mirzəbəyov uzun illər akademik Cəlal Əliyevin rəhbərlik etdiyi Məhsuldarlıq proseslərinin molekulyar-genetik əsasları şöbəsi ilə birgə tədqiqatlar aparmış, şöbənin gənc alimlərinin SSRİ EA və Rusiya EA Molekulyar Biologiya İnstitutunda uzun və qısamüddətli ezamiyyətlərdə olması, təkmilləşdirmə kursları keçməsi, Botanika İnstitutunun bəzi reaktiv və avadanlıqlarla təchiz olunması məsələlərində kömək göstərmişdir. A.D.Mirzəbəyov 2002-ci ildə AMEA-nın fəxri üzvü seçilmişdir.

Təbiətin Azərbaycana verdiyi unikal imkanlardan və potensialdan yalnız 1970-ci illərin əvvəllərindən, yəni Heydər Əliyevin respublikaya rəhbərlik etməyə başladığı dövrdən etibarən daha geniş və səmərəli istifadə olunmağa başlanmış, canlı təbii ehtiyatların mühafizəsi və bərpası məsələləri ön plana çıxarılmışdır. Qarşıya qoyulan məqsədlərə nail olmaq üçün inkişafına ilk növbədə ehtiyac duyulan elm sahələri sırasında ekologiya, botanika və zoologiya elmlərini qeyd etmək lazımdır. O illərdə elmə ayrılan resursların artırılması, yeni imkanların yaradılması, kadrların düzgün yerləşdirilməsi sayəsində Azərbaycan SSR EA-nın Botanika və Zoologiya institutlarında bütün keçmiş ittifaq üçün əhəmiyyətli sayılan nailiyyətlər qazanılmışdır.

Bu institutların alimləri Ulu Öndərin çağırışlarına və göstərişlərinə səs verərək nadir və itmək təhlükəsində olan fauna və flora növlərinin, torpaq və su resurslarının, milli sərvətimiz olan təbiət incilərinin öyrənilməsi, bərpası, qorunub saxlanılması, ətraf mühitin mühafizəsi ilə bağlı konseptual ideyalar, dərin elmi mühakimələr irəli sürmüşdülər.

Burada Azərbaycanın botanik və zooloq alimlərinin çoxillik gərgin əməyinin nəticəsi olan qürurverici bir faktı da qeyd etmək yerinə düşərdi. Nadir və nəsli kəsilməkdə olan flora və fauna növləri, habelə onların mühafizəsi və bərpası üçün zəruri tədbirlər haqqında illüstrasiyalı elmi-tədqiqat məlumatlarını özündə əks etdirməklə mühüm istiqamətverici sənəd olan Azərbaycan Respublikasının "Qırmızı Kitab"ının bu günlərdə nəfis tərtibatda çapdan çıxmış 3-cü nəşri ölkəmizin təbiətinin və bioloji müxtəlifliyinin mühafizəsində əvəzsiz xidmətləri olmuş Ulu Öndərin 100 illik yubileyinə həsr edilmişdir.

Dəyərli ənənələri olan Azərbaycan fiziologiya elminin əsas dirçəliş və çiçəklənmə dövrü də 1970-1980-ci illərə təsadüf etmişdir. Akademik Abdulla Qarayevin təşəbbüsü və təşkilatçılığı ilə 1968-ci ildə yaradılmış Fiziologiya İnstitutu məhz 1970-ci illərdə keçmiş SSRİ-nin fiziologiya sahəsində aparıcı institutlarından birinə çevrilmişdi. O illərdə beyin üzrə tədqiqatlara görə SSRİ EA Biologiya Bölməsinin hesabatlarında Azərbaycan Fiziologiya İnstitutunun adı ilk sıralarda çəkilirdi. 1979-cu ildə Azərbaycan EA Rəyasət Heyətinin və Səhiyyə Nazirliyinin birgə qərarı əsasında Görmənin fiziologiyası laboratoriyasının yaradılması ilə institutun elmi fəaliyyətində biotibb yönümlü yeni səhifə açılmışdı. Bu günlərdə 100 illik yubileyi dövlət səviyyəsində qeyd edilən görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın rəhbərlik etdiyi laboratoriyada görmə orqanının peşə patologiyaları üzrə aparılan tədqiqatlar peşə göz xəstəliklərinin müalicəsinin yeni metodlarının kəşfi ilə nəticələnmişdi. Görmə orqanının peşə patologiyası sahəsində aparılan elmi araşdırmalara görə akademik Zərifə Əliyeva SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafatına layiq görülmüşdü.

Fiziologiya sahəsində ümumittifaq konfrans və iclasların, eləcə də beynəlxalq simpoziumların Azərbaycanda keçirilməsinə qərar verilməsi də Ulu Öndərin Azərbaycan elminin tanıdılmasına diqqətinin göstəricisi sayıla bilər. Bu cür mühüm tədbirlər arasında Kortiko-visseral fiziologiya üzrə 9-cu ümumittifaq konfransı (1971), 16-cı beynəlxalq fiziologiya konqresi çərçivəsində "Emosiya və visseral funksiyalar" satellit simpoziumu (1972), Laktasiya fiziologiyası və biokimyası üzrə ümumittifaq simpoziumları (1974-1996), "Selen biologiyada" ümumittifaq konfransları (1974, 1976, 1977), "Baş-beynin adaptiv funksiyaları" mövzusunda ümumittifaq simpoziumu (1980), "Axtarış fəaliyyəti, motivasiya və yuxu" beynəlxalq simpoziumunu (1981) xüsusi qeyd etmək olar.

Ölkədə yaradılmış yüksək elmi mühit və elmə göstərilən dəstəyin sayəsində 1983-cü ildə İ.P.Pavlov adına Ümumittifaq Fizioloqlar Cəmiyyətinin XIV Qurultayının Bakıda keçirilməsi Azərbaycan elmi üçün böyük bir hadisə olmuşdur. İttifaqın bütün respublikalarından 2000-dən çox alimin, dünyanın tanınmış fizioloqlarının iştirak etdiyi bu tədbir həmçinin Azərbaycan alimlərinin əməyinə verilən yüksək qiymət idi.

1969-cu ildən sonra Ulu Öndərin Azərbaycanda kənd təsərrüfatının uzunsürən durğunluqdan çıxarılaraq dirçəldilməsi, yeni bitki növlərinin yaradılaraq geniş şəkildə tətbiqi istiqamətində tapşırıqlarının icrasında Kənd Təsərrüfatı Nazirliyinin müvafiq sahə institutları ilə yanaşı, Azərbaycan SSR EA-nın Genetika və Seleksiya İnstitutu əhəmiyyətli rol oynamışdı. Xarakterikdir ki, 1970-ci ildə Azərbaycan KP MK-nin birinci katibinin tövsiyəsi və dəstəyi ilə həyata keçirilən ilk elmi-təşkilati təyinatlardan biri də instituta tanınmış seleksiyaçı alim və ictimai-siyasi xadim akademik İmam Mustafayevin direktor vəzifəsinə (1970-1985) irəli sürülməsi olmuşdur.

Ulu Öndərin respublikada hakimiyyətə gəlməsindən sonra XX əsrdə biologiya elminin ən mühüm, qaçılmaz istiqamətlərindən biri olan mikrobiologiya elminin inkişafına da ciddi təkan verilmişdir. 1994-cü ildə Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə Mikrobiologiya sektoruna institut statusu verilmiş və yeni müəssisə elmin mikrobiologiya və onunla əlaqəli biotexnologiya sahələrinə aid fundamental elmi-tədqiqat işləri aparan dövlət müəssisəsi kimi qeydiyyata alınmışdır. Hazırda Mikrobiologiya İnstitutu Elm və Təhsil Nazirliyinin tərkibində fəaliyyətini davam etdirir.

Aqrar sənaye ölkəsi olan Azərbaycanda 1970-ci illərin əvvəllərində xüsusilə güclü inkişafa qədəm qoymuş elm sahələri arasında torpaqşünaslıq elmini də qeyd etmək lazımdır. Bu dövrdə Ulu Öndərin tapşırıqları əsasında respublikada torpaqların qiymətləndirilməsi, xəritələşdirilməsi, istifadəsi üzrə monoqrafiyalar, kitablar, metodiki göstərişlər nəşr olunmuş, elmi-nəzəri və praktiki əhəmiyyətli dissertasiya işləri müdafiə edilmişdir.

1970-ci illər Mərkəzi Nəbatat Bağının (o zaman Botanika bağı adlanırdı) da çiçəklənmə dövrü hesab olunur. 1970-ci ildən başlayaraq Abşeronun və Bakı şəhərinin yaşıllaşdırılması üzrə dövlət tədbirləri Botanika bağında ağac və kol bitkilərinin introduksiya işlərinin daha da genişləndirilməsinə səbəb olmuşdu.

2002-ci ildə Ulu Öndər Heydər Əliyevin AMEA-nın Naxçıvan Bölməsinin yaradılması haqqında tarixi sərəncamı Naxçıvan Muxtar Respublikasında elmi potensialın gücləndirilməsi, region üçün xüsusilə vacib olan genişmiqyaslı tədqiqatların aparılması üçün böyük imkanlar yaratdı.

Azərbaycan müstəqillik qazandıqdan sonra biomüxtəlifliyin, ətraf mühitin və ekologiyanın mühafizəsi sahəsində dövlət siyasəti məhz Ulu Öndər Heydər Əliyevin prezidentliyi dövründə formalaşmağa başlamışdır. 2001-ci ildə Azərbaycan Respublikasının Bitki Genetik Ehtiyatları üzrə Milli Proqramı, 2006-cı ildən etibarən "Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunması və davamlı istifadəsi üzrə Milli Strategiya və Fəaliyyət Planı" hazırlanmış, Milli Bitki Genbankı yaradılmışdır.

Ulu Öndərin apardığı dövlət quruculuğu və islahatlar siyasəti cəmiyyət həyatının bütün sahələrini, o cümlədən aqrar bölməni, torpaq tabeçiliyi məsələlərini də əhatə edirdi. Müasir Azərbaycanın banisi 23 dekabr 1994-cü ildə kənd təsərrüfatında iqtisadi islahatlara həsr olunmuş respublika müşavirəsində aqrar islahatların vacibliyini bir daha vurğulamış, uğur qazanılmasında elmin roluna diqqət çəkmişdi. Heydər Əliyev kənd təsərrüfatında islahatların yalnız elmi əsaslarla həyata keçirilməsinin vacibliyini bilir, respublikanın aqrar tədqiqatlar sistemində islahatlar həyata keçirirdi.

Kənd təsərrüfatında elmi, elmi-texniki proqramların respublikada aparılan islahatlara və yeni iqtisadi münasibətlərə uyğunlaşdırılması, bu sahədə paralelçiliyin və pərakəndəliyin aradan qaldırılması, elmi işlərdə vahid strateji məqsədlərin formalaşdırılması, alınan elmi nəticələrin istehsalatda tətbiqinin daha da yaxşılaşdırılması məqsədilə Nazirlər Kabinetinin 1999-cu il tarixli qərarı ilə Kənd Təsərrüfatı Nazirliyinin tərkibində Azərbaycan Aqrar-Elm Mərkəzi yaradılmışdı.

Hələ 1997-ci ildə Ulu Öndər Azərbaycanda elmin inkişaf strategiyasının əsas müddəalarını və bu müddəaları həyata keçirmək üçün lazımi vəzifələri qəti olaraq müəyyənləşdirmiş, elmlə bağlı mövqeyini ortaya qoymuşdu. Ulu Öndərin 15 may 2001-ci il tarixli Fərmanı ilə Elmlər Akademiyasının adına "Milli" sözünün əlavə edilməsi də əlamətdar hadisə hesab edilə bilər. Onun təşəbbüsü ilə 1 iyul 2002-ci ildə AMEA-nın həqiqi və müxbir üzvlərinə aylıq rütbə maaşlarının verilməsinə başlanılmışdır.

Ulu Öndərin ölkədə elmin inkişafının dəstəklənməsi ilə bağlı uzaqgörənliklə verdiyi tövsiyələrini digər vəsiyyətləri kimi ardıcıl şəkildə həyata keçirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Heydər Əliyevin elmə baxışlarına şəxsən yüksək qiymət vermiş, özünün də eyni baxışlara sahib olduğuna diqqət çəkmişdir.

Ölkə Prezidentinin Azərbaycan elminin müasir dövrün, 4-cü sənaye inqilabının çağırışlarına, ərzaq və bioloji təhlükəsizliyin təmin olunmasına, ümumən, ölkənin ehtiyaclarına istiqamətlənməsinə dair müvafiq elmlərin inkişaf perspektivləri ilə bağlı verdiyi sərəncam və fərmanları, dəyərli tövsiyə və tapşırıqları islahatların bazisi olmaqla yaxın perspektiv üçün ölkəmizin elm siyasətinin də başlıca strateji istiqamətlərini müəyyən etmişdir.

14 iyun 2016-cı ildə Azərbaycanda elmin inkişafı istiqamətində yeni perspektivlər açan "Elm haqqında" Azərbaycan Respublikası Qanununun qəbulu yeni bir mərhələnin başlanğıcı idi. Prezident İlham Əliyevin 2018-ci il 9 aprel tarixli Sərəncamına əsasən, 27 Mart - Elm Gününün təsis olunması Azərbaycanın yuksəlişində elmin vacib rolunu bir daha təsdiq etmişdir.

Son dövrlərdə də Azərbaycan elmi yenidən dərin islahatlar və keçid dövrünü yaşamaqdadır. Dövlət başçısı 28 iyul 2022-ci ildə elm və təhsilin qarşılıqlı əlaqəsinin möhkəmləndirilməsi və bu sahələrdə idarəetmənin təkmilləşdirilməsinə imkan verən, bu istiqamətdəki fəaliyyətlərin gücləndirilməsinə münbit şərait yaradan mühüm bir sənəd - "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Fərman imzalamışdır. Fərmanın imzalanmasında əsas məqsəd elm sahəsində dövlət siyasətinin və tənzimlənmənin həyata keçirilməsi, elmi müəssisə və təşkilatların elmi fəaliyyətinin daha səmərəli əlaqələndirilməsi və istiqamətləndirilməsi olmuşdur.

Ulu Öndərin və ölkə Prezidentinin diqqət və qayğısına, analoqu olmayan dövlət dəstəyinə elm və təhsil sektorunun, elmi ictimaiyyətin də layiqli şəkildə cavab verməsi, eko və biotəhlükəsizlik, ərzaq təhlükəsizliyi problemlərinin həllində, işğaldan azad edilmiş torpaqlara Böyük qayıdışda Azərbaycan dövlətçiliyinin yüksəlişi və inkişafı da elmin və elm adamlarının ön sıralarda olması dövrün tələbidir. Azərbaycanın elm və təhsil üzrə dünya reytinqlərində irəliləməsi, xalqın öz potensialına və tarixi nailiyyətlərinə layiq yerləri tutması üçün çox iş görülməlidir.

Azərbaycanın elmi ictimaiyyəti Ümummilli Liderin və Prezident İlham Əliyevin elmə və alimə göstərdikləri böyük diqqət və qayğıya cavab vermək, ölkənin ərzaq, ekoloji və bioloji təhlükəsizliyini təmin etmək, elmimizin dünyaya inteqrasiyasını gücləndirmək istiqamətində fəaliyyətlərə tam səfərbər edilmişdir. İnanırıq ki, Azərbaycanın elmi potensialı cənab Prezidentin ətrafında daha sıx birləşərək qarşıya qoyulan bütün vəzifələrin öhdəsindən uğurla gələcəkdir.

*İradə HÜSEYNOVA,*
*AMEA-nın vitse-prezidenti,*
*akademik*

# Şuşada "Şuşa - Türk dünyasının mədəniyyət paytaxtı" ilinin rəsmi açılış mərasimi keçirilib

*Əvvəli 1-ci səh.*









Tədbirdə mədəniyyət naziri Adil Kərimli çıxış edərək bu il Azərbaycan və türk dünyası üçün mühüm tarixi hadisələrlə zəngin olduğunu bildirib. Nazir söyləyib ki, müstəqil Azərbaycanın qurucusu, Azərbaycan xalqının Ümummilli Lideri, türk dünyasının əvəzsiz liderlərindən biri olan Heydər Əliyevin 100 illik yubileyi geniş təntənə ilə qeyd olunur və bununla əlaqədar 2023-cü il Azərbaycanda "Heydər Əliyev İli" elan edilib. Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşa şəhəri bu il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" seçilmiş, Türkiyə Cümhuriyyətinin 100 illiyi və TÜRKSOY-un yaradılmasının 30 illik yubileyi türk dünyasında böyük təntənə ilə qeyd olunur.

Nazir vurğulayıb ki, bu gün Şuşa və bütün Qarabağ öz intibah dövrünü yaşayır. Qələbədən qısa müddət keçməsinə baxmayaraq, şəhərlərimizin, kəndlərimizin, tarix-mədəniyyət abidələrimizin, məhv edilən meşə massivlərinin və bütövlükdə yaşayış infrastrukturunun qısa müddətdə kompleks bərpası və yenidən qurulması istiqamətində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bilavasitə rəhbərliyi ilə intensiv işlər aparılır. Şuşa şəhərinin tarixi-mədəni siması bərpa edilir, Şuşaya yenidən mədəni həyat qayıdır.

Adil Kərimli qeyd edib ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən Şuşada müxtəlif yerli və beynəlxalq mədəni tədbirlər keçirilir, mədəni irsimizin bərpası istiqamətində geniş işlər görülür.

Onun sözlərinə görə, oktyabr ayında planlaşdırılan Nazirlərin Daimi Şurası çərçivəsində Şuşada Birinci Türk Dünyası Mədəniyyət Forumunun keçirilməsi nəzərdə tutulur: "Şuşa ötən əsrlərdə mədəniyyətimizdə, klassik musiqimizdə bir sıra yenilikləri ilə tarixə düşdü. Əminəm ki, Şuşada baş tutacaq Birinci Türk Dünyası Mədəniyyət Forumu da XXI əsrin türk əsrinə çevrilməsi üçün mədəni əlaqələrin inkişafında yeni üfüqlər yaradacaq, bizim ən güclü ortaq platformalarımızdan birinə çevriləcək".

Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov qala-şəhərdə hər kəsi görməkdən məmnun olduğunu söyləyib: "Türk dünyasının mədəniyyət paytaxtı" ilində hər birinizi salamlayıram. Bu il Azərbaycan və türk dünyası üçün əlamətdar hadisələrlə zəngindir. Ölkəmizdə bu il Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi təntənəli şəkildə qeyd olunur. 2023-cü il Azərbaycanda "Heydər Əliyev İli" elan olunub. Bu çərçivədə ölkəmizin hər yerində olduğu kimi Şuşa şəhərində də çoxsaylı tədbirlər keçirilib".

Aydın Kərimov deyib ki, Şuşanın "Türk dünyasının mədəniyyət paytaxtı" elan olunması türk dünyası tərəfindən bu şəhərə olan böyük ehtiramın ifadəsidir: "Şuşa təkcə Azərbaycan üçün deyil, bütün türk dünyası üçün də böyük əhəmiyyət daşıyır. Bu tədbir də bir daha bunu sübut edir. Şuşamız bundan sonra da möhtəşəm və yaddaqalan neçə-neçə tədbirə evsahibliyi edəcək".

Tədbirdə çıxış edən TÜRKSOY-un Baş katibi Sultan Raev deyib ki, bu torpaqlar bizim üçün sənətin, musiqinin beşiyidir. Şuşa Xurşidbanu Natəvan, Nəcəf bəy Vəzirov, Üzeyir bəy Hacıbəyli və neçə-neçə söz, sənət xiridarının vətənidir: "Şuşa "Türk dünyasının mədəniyyət paytaxtı" elan olunduğuna görə Zəfərin, rifahın və şənliyin çox yaraşdığı bu şəhərdə bir-birindən zəngin, yaddaqalan və rezonans doğuracaq proqramlarımız olacaq. Şuşa şəhəri 2023-cü il üçün TÜRKSOY Daimi Şurasının qərarı ilə "Türk dünyasının mədəniyyət paytaxtı" elan edildikdən sonra Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamına əsasən, Nazirlər Kabinetinin tədbirlər planına uyğun olaraq Azərbaycan Mədəniyyət Nazirliyi ilə birgə fəaliyyət planı hazırlanıb".

Sultan Raev TÜRKSOY-un "Qorqud Ata" Türk dünyası III film festivalının da açılışının Şuşada olacağını bildirib. O, "Şuşa - Türk dünyasının mədəniyyət paytaxtı" ilinin bağlanış mərasiminin isə noyabr ayına planlandığını deyib: "Bağlanış tədbirində 2024-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" estafeti Türkmənistanın Anev şəhərinə veriləcək".

Baş katib əlavə edib ki, Şuşada keçirilməsi nəzərdə tutulan proqram "Türk dünyasının mədəniyyət paytaxtı" layihəsi üzrə indiyədək keçirilmiş tədbirlərdən daha yaddaqalan olacaq: "Çünki bu əzəmətli şəhər təkcə Azərbaycanın deyil, bütün türk dünyasının mənəviyyat mərkəzi, qürur yeridir. Fikrimcə, Şuşa Azərbaycanın ürəyidir. Bu il həm də TÜRKSOY-un 30 illiyidir. TÜRKSOY-un yaşı qədər işğal altında qalan, barbarlıqla dağıdılan, hazırda azadlığına qovuşan bu tarixi şəhəri biz fürsətdən istifadə edib həm türk dünyasına, həm də bütün dünyaya mədəniyyətin, incəsənətin, musiqinin beşiyi kimi tanıtmaq niyyətindəyik".

Şuşanın "Türk dünyasının mədəniyyət paytaxtı" elan olunması münasibətilə bütün iştirakçıları təbrik edən Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev bildirib ki, son illər həyata keçirilən müstəqil, ardıcıl və qətiyyətli siyasət nəticəsində Azərbaycan Respublikası dünya ölkələri arasında nüfuzunu daha da möhkəmlənib və regionun aparıcı dövlətlərindən birinə çevrilib.

Xüsusilə vurğulayıb ki, 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan torpaqlarının işğaldan azad edilməsi nəinki Azərbaycan, bütövlükdə türk dövlətləri və xalqları üçün qürur mənbəyinə çevrilib, eyni zamanda türk birliyinin daha da güclənməsinə təkan verib.

O, "Türk dünyasının mədəniyyət paytaxtı" Şuşada bir-birindən maraqlı tədbirlərin keçiriləcəyinə əminliyini ifadə edib və bütün türkdilli xalların yaradıcı simalarını bu tədbirlərdə yaxından iştiraka çağırıb.

Şuşanın Azərbaycanın tacı olduğunu söyləyən Xalq artisti Polad Bülbüloğlu qala-şəhəri həm də Azərbaycanın nəğmə deyən ürəyi adlandırıb. Bu günlərdə Şuşada təşkil olunan "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının əhəmiyyətindən danışan Xalq artisti deyib ki, bu musiqi bayramı qardaş türk xalqlarını bir araya gətirib, onları bir-birinə daha da yaxınlaşdırıb.

Ötən 30 ildə TÜRKSOY-un keçdiyi tarixi yola nəzər salan Polad Bülbüloğlu Ulu Öndər Heydər Əliyevin bu təşkilatın inkişafına verdiyi dəstəyi xüsusi qeyd edib. TÜRKSOY-un türk xalqlarının mədəni irsinin yaşadılması və təbliği istiqamətində gördüyü işləri yüksək qiymətləndirən Azərbaycanın Xalq artisti "Şuşa - Türk dünyasının mədəniyyət paytaxtı - 2023" ilinin açılışı münasibətilə hər kəsi təbrik edib.

Tədbirdə TÜRKSOY-un Baş katibi Sultan Raev Adil Kərimliyə, Aydın Kərimova, Polad Bülbüloğluna və Kubanıçbek Ömüralıyevə təşkilat adından xatirə hədiyyələri təqdim edib.

Azərbaycan Yazıçılar Birliyinin sərdi, Xalq yazıçısı Anar deyib ki, bu gün çox şadıq ki, azad olunmuş Şuşada qardaş türk xalqlarının nümayəndələri iştirak edirlər. Türk xalqlarının yaxınlaşmasında, mədəni birliyində ən böyük rol oynayan təşkilatlardan biri TÜRKSOY-dur. Azərbaycan Yazıçılar Birliyi görkəmli şairimiz Bəxtiyar Vahabzadə adına diplom təsis edib. Bu diplom türk xalqları arasında qardaşlılığı, əlaqələri genişləndirən şəxslərə verilir. Bu il birliyin qərarı ilə bu mükafat TÜRKSOY-un Baş katibi Sultan Raevə veriləcək.

Xalq yazıçısı Anar mükafatı Sultan Raevə təqdim edib.

Sonra qonaqlar türk dünyası ölkələrindən gəlmiş musiqi və folklor kollektivlərinin təqdim etdiyi konsert proqramını izləyiblər.

Qeyd edək ki, 2022-ci il martın 31-də Türkiyə Respublikasının Bursa şəhərində TÜRKSOY üzv ölkələrinin Mədəniyyət Nazirləri Daimi Şurasının qərarı ilə qədim muğam-sənət beşiyimiz Şuşa şəhəri 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan olunmuşdu.

Xatırladaq ki, "Türk dünyasının mədəniyyət paytaxtı" layihəsinin əsası 2010-cu ildə türkdilli ölkə başçılarının İstanbul şəhərində keçirilən 10-cu sammitində qoyulub. Qərara əsasən türk dünyasından hər il bir şəhər "mədəniyyət paytaxtı" elan edilir. Bu günə qədər Astana (2012, Qazaxıstan), Əskişəhər (2013, Türkiyə), Kazan (2014, Tatarıstan - RF), Mərv (2015, Türkmənistan), Şəki (2016, Azərbaycan), Türküstan (2017, Qazaxıstan), Kastamonu (2018, Türkiyə), Oş (2019, Qırğızıstan), Xivə (2020, Özbəkistan) və Bursa (2022, Türkiyə) şəhərləri "Türk dünyasının mədəniyyət paytaxtı" olublar. Şuşa türk dünyasından bu missiyanı yerinə yetirən 11-ci şəhərdir.

# Cari ilin 4 ayı ərzində narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı 3992 cinayət faktı aşkarlanıb

Sari ilin yanvar-aprel ayları ərzində hüquq-mühafizə orqanları tərəfindən narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində həyata keçirilmiş kompleks əməliyyat-axtarış tədbirləri nəticəsində ümumilikdə 3992 cinayət faktı aşkarlanıb. Onlardan 1330-u narkotik vasitələrin qanunsuz satışı, 2596-sı narkotik vasitələrin qanunsuz əldə edərək saxlanılması, 38-i qanunsuz olaraq narkotik xassəli bitkilərin kultivasiya edilməsi, 28-i isə bu kateqoriyadan olan digər cinayətlərlə bağlı olub.

AZƏRTAC xəbər verir ki, bu barədə Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının 2023-cü ilin yanvar-aprel aylarının yekununa dair məlumatında öz əksini tapıb.

Aşkarlanmış faktlar üzrə qanunsuz dövriyyədən ümumilikdə müsadirə olunmuş 3 ton 112 kiloqram 209,614 qram narkotik vasitələrin və psixotrop maddələrin 1 ton 209 kiloqram 253,454 qramını heroin, 1 ton 590 kiloqram 303,118 qramını marixuana, 128 kiloqram 867,863 qramını tiryək, 43 kiloqram 155,165 qramını həşiş,139 kiloqram 297,484 qramını psixotrop maddələr, 1 kiloqram 332,53 qram digər narkotik vasitələr təşkil edib. Həmçinin göstərilən dövr ərzində 19 min 838 ədəd həb metadon, 1097 ədəd çətənə bitkisi, eləcə də 617,668 qram, 2321 ədəd kapsul və 953 ədəd həb güclü təsir edən maddə qanunsuz dövriyyədən götürülüb.

Hesabat dövründə narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı cinayət məsuliyyətinə 2557 nəfər cəlb edilib. Cinayət məsuliyyətinə cəlb edilmiş şəxslərdən 42 nəfəri xarici ölkə vətəndaşıdır.

Hüquq-mühafizə orqanları tərəfindən narkotik vasitələrin və psixotrop maddələrin qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə gətirilməsi ilə bağlı 99 fakt aşkar edilib və həmin faktlar üzrə qanunsuz dövriyyədən ümumi çəkisi 1 ton 451 kiloqram 605,358 qram və 19 min 838 ədəd həb metadon narkotik vasitələr və 2321 ədəd kapsul, 953 ədəd həb güclü təsir edən maddə çıxarılıb.

Ümumilikdə aşkar edilmiş cinayətlərin 80-i qrup halında törədilib və həmin faktlar üzrə qanunsuz dövriyyədən 604 kiloqram 284,7 qram və 190 ədəd metadon narkotik vasitə və psixotrop maddə müsadirə edilib. 879 cinayət faktı əvvəllər məhkum olunmuş şəxslər tərəfindən törədilmiş və onlardan 577 kiloqram 807,8 qram müxtəlif növ narkotik vasitə və psixotrop maddə müsadirə edilib.

2023-cü ilin yanvar-aprel ayları ərzində qanunsuz dövriyyədən götürülmüş 3 ton 112 kiloqram 209,614 qram narkotik vasitələrin və psixotrop maddələrin ümumilikdə dəyəri 107 milyon 846 min AZN kimi qiymətləndirilir.

Təhlil göstərir ki, 2022-ci ilin birinci rübü ilə müqayisədə cari ilin müvafiq dövrü ərzində narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı hüquq-mühafizə orqanları tərəfindən aşkar edilən faktların ümumi sayı 31, satış məqsədi olmadan qanunsuz əldə edilib saxlanılması ilə əlaqədar faktların sayı 147, qaçaqmalçılıqla bağlı cinayətlərin sayı 30 fakt, məsuliyyətə cəlb edilmiş şəxslərin sayı 204 nəfər, qanunsuz dövriyyədən çıxarılmış narkotik vasitələrin çəkisi isə 619 kiloqram 890,876 qram artıb. O cümlədən narkotiklərin qanunsuz satış ilə bağlı faktların sayı 108, digər növ cinayət faktların sayı 6, narkotik xassəli bitkilərin qanunsuz kultivasiya edilməsi ilə bağlı faktların sayı 2, qrup halında olan cinayətlərin sayı isə 9 fakt azalıb.

Cari ilin yanvar-aprel ayları ərzində Daxili İşlər Nazirliyi tərəfindən bütün növ sərxoşluq hallarının müəyyənləşdirilməsi üçün Səhiyyə Nazirliyinin Respublika Narkoloji Mərkəzinə 27 min 140 nəfər istiqamətləndirilib. Onlardan narkotiklərdən istifadənin təyin edilməsi məqsədilə tibbi müayinədən keçirilmiş 946 nəfərindən 515-nin istifadəçi olması müəyyən olunub və bununla bağlı zəruri tədbirlərin görülməsi təmin edilib.

Hesabat dövrü ərzində işçi qrupu tərəfindən aidiyyəti qurumlarla 4 tədbirlər planı imzalanıb və ümumilikdə maarifləndirmə tədbirləri çərçivəsində 35 tədbir (19 maarifləndirmə tədbiri, 13 təlim, 1 mədəni-kütləvi tədbir, yutub kanalı vasitəsilə yayımlanan 1 film, 1 rəsm müsabiqəsi) təşkil edilib.

2023-cü ilin yanvar-aprel ayları ərzində 802 - Qaynar xəttinə 396 vətəndaş müraciəti daxil olub ki, onların 58-i narkotik vasitələrin qanunsuz dövriyyəsi, 183-ü narkotik asılılıqdan müalicə, 155-i isə digər məsələlərlə (təkrar müraciət, qanunvericiliyin müddəalarının izah edilməsi, məcburi müalicəyə dair prosedurlar və s.) bağlı olub. Qeyd olunan müraciətlər üzrə müvafiq tədbirlərin görülməsi üçün aidiyyəti orqanlara 241 məktub ünvanlanıb.

Belə ki, 802 - Qaynar xətti vasitəsilə narkotik vasitələrin və narkomanlığın yayılmasının qarşısını almaq məqsədilə aidiyyəti təşkilatlarla və vətəndaşlarla operativ qaydada əlaqələndirilmə təmin edilərək, narkotik vasitələrin qanunsuz dövriyyəsinə dair verilən məlumatlar əsasında müvafiq cinayət işləri qaldırılmış və qanunsuz dövriyyədən külli miqdarda narkotik vasitələr götürülüb, narkotik istifadəçiləri könüllü müraciətləri əsasında ixtisaslaşmış tibb müəssisələrində müalicəyə yönləndirilib, narkotik asılılıqdan əziyyət çəkən ailələrə psixoloji dəstək və mövcud qanunvericiliyin müddəaları izah edilərək zəruri tövsiyələr verilib.

# Ermənistan ordumuzun Kəlbəcərdəki bir neçə mövqeyinə zərbə PUA-ları tətbiq edib





Mayın 11-i və 12-də Ermənistan silahlı qüvvələrinin Basarkeçər rayonundakı bölmələri tərəfindən Azərbaycan Ordusunun Kəlbəcər rayonu ərazisindəki bir neçə mövqeyinə qarşı müxtəlif istiqamətlərdən zərbə PUA-ları tətbiq edilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bölmələrimiz tərəfindən hava hədəfləri vaxtında aşkar edilib və radioelektron mübarizə vasitələrinin tətbiqi nəticəsində onlar hədəfə çatmadan zərərsizləşdirilib.

Təqdim olunan foto materiallarda zərbə PUA-larının qalıqları əks olunur.

# İsveçli səyyahlar Laçında görülən işlərə heyran qalıblar

İsveç səyyahlar qrupunun işğaldan azad edilmiş ərazilərə səfəri davam edir. Füzuli-Xocavənd-Ağdam-Kəlbəcər-Laçın-Zəngilan-Cəbrayıl marşrutu üzrə hərəkət edən səyyahların növbəti dayanacaq yeri mayın 12-də Laçın olub.



AZƏRTAC xəbər verir ki, qrupa "Club 100"un İdarə Heyətində təmsil olunan Bengt Hildebrand rəhbərlik edir. İsveçdən gəlmiş heyətə 30-dan çox beynəlxalq səyahətçi daxildir.

Laçına gələn səyyahlar şəhərdə aparılan tikinti-quruculuq işləri ilə tanış olublar. Məlumat verilib ki, otuz ilə yaxın işğal altında qalan Laçın erməni vandalizminə məruz qalıb, evlər, tarixi tikililər və abidələr dağıdılıb. Lakin işğaldan azad edildikdən sonra Azərbaycan dövləti tərəfindən burada genişmiqyaslı tikinti işlərinə başlanılıb və bu gün də işlər sürətlə davam etdirilir.

Səyyahlar Laçın şəhərində bərpa edilmiş evlərə və digər tikililərə baxış keçiriblər. Daha sonra nümayəndəlik tərəfindən Laçının rəmzi xüsusiyyətlərini özündə əks etdirən hədiyyələr təqdim olunub.

Qonaqlar Laçında qısa vaxtda görülən işlərə heyran qaldıqlarını bildirib, işlərin yüksək zövqlə aparıldığını bildiriblər. Həmçinin Laçının gözəl təbiətinin, saf havasının bu yerlərin böyük turizm potensialından xəbər verdiyini söyləyiblər.

Bu səfər azad edilmiş ərazilərdəki dağıntılara, burada aparılan quruculuq-bərpa, minatəmizləmə işlərinə beynəlxalq səyahətçilərin marağının xeyli artdığını nümayiş etdirir. Səfər işğaldan azad edilmiş ərazilərin "black tourism" çərçivəsində tanıdılması üçün müstəsna əhəmiyyət daşıyır. Dünyanın əsas beynəlxalq səyahətçilər şəbəkələrinin - ETIC, MTP, TCC, NomadMania və əksəriyyəti bu klubların üzvləri olan türklərin birləşdiyi Türkiyə Gəzginlər Klubunun, Böyük Britaniyanın "Piki Reels" Klubunun geniş tərkibdə heyətlərinin ötən 2 ildə 6 dəfə Qarabağ və Şərqi Zəngəzura səfərləri təşkil olunub. Onlardan biri 2021-ci ildə, dördü 2022-ci ildə, biri isə 2023-cü ildə reallaşdırılıb. İsveçdən olan səfər bu qəbildən olan sayca 7-ci səfərdir.

Bu səfərlər çərçivəsində 200-dən çox dünyada tanınan səyyah Qarabağ və Şərqi Zəngəzurla yerində tanış olublar.

# "Anadolu Qartalı - 2023" təlimi başa çatıb

Türkiyə Respublikasının Konya şəhərində keçirilən "Anadolu Qartalı - 2023" beynəlxalq taktiki-uçuş təlimi başa çatıb.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, qonaqlara təlimin gedişi, yerinə yetirilən tapşırıqlar və əldə olunan nəticə barədə yekun brifinq təqdim edilib.

Bildirilib ki, təlimdə əsas diqqət pilotların, o cümlədən mühəndis-texniki heyətin peşəkarlıq səviyyəsinin artırılmasına, aviasiya texnikasının və digər hərbi vasitələrin praktiki istifadəsinə yönəldilib.

Təlim rəhbərliyinin qiymətləndirməsinə görə başa çatmış təlimdə qarşıya qoyulan məqsədlərə tam nail olunub.

Qeyd edək ki, beynəlxalq təlimdə ölkəmiz Azərbaycan Hərbi Hava Qüvvələrinin hərbi qulluqçuları və Su-25 hücum təyyarələri ilə təmsil olunub.

# REGİONLAR

## Milli Oftalmologiya Mərkəzi növbəti humanitar aksiyanı Qaxda keçirir

**Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin avtomobil səyyar klinikası Qax şəhərində növbəti humanitar aksiyaya başlayıb.**

Ümummilli Lider Heydər Əliyevin və görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 100 illiyi münasibətilə təşkil edilən aksiyanın məqsədi Qax rayonunun sakinlərinin gözlərini operativ şəkildə erkən müayinə-müalicə etmək, onların səhhətləri ilə bağlı problemlərinin həllinə kömək göstərməkdir. Humanitar aksiyadan eyni zamanda ətraf rayonların sakinləri də faydalanırlar.

Milli Oftalmologiya Mərkəzinin Şəki filialının şöbə müdiri, həkim-oftalmoloq Faiq Quliyev bildirib ki, mərkəz tərəfindən davamlı olaraq respublikanın müxtəlif regionlarında, ucqar şəhər və rayonlarda təşkil edilən belə humanitar aksiyaların əsas məqsədi erkən diaqnostika və müayinələr aparmaqla korluğa səbəb olan göz xəstəliklərini öncədən məyyənləşdirib müalicə etmək, korluğun qarşısını almaqdır. Həkimin məlumatına görə, gün ər-



zində səyyar klinikaya 100-dən çox vətəndaş müraciət edir. Aksiyanın ilk iki günündə klinikada 230 vətəndaşın gözü müayinə olunub. Müraciətlər bütün göz xəstəlikləri ilə bağlı olur. Aparılan müayinələr zamanı gözündə ciddi problem aşkarlanan pasiyentlərə müalicələrin davam etdirilməsi üçün tövsiyələr verilir.

Son vaxtlar uşaqlarda refraksiya pozğunluqları ilə bağlı müraciətlərin artdığını vurğulayan Faiq Quliyev deyib: "Müasir texnologiyaların inkişafı ilə əlaqədar uşaqlar arasında kompüter, planşet, mobil telefonlardan istifadə olunması xeyli artıb. Bu da refraksiya pozğunluqlarına səbəb olur. Odur ki, valideynlərə tövsiyə edirik ki, uşaqlarını maksimum dərəcədə planşet, kompüter, telefonlardan uzaq tutsunlar, onlardan istifadə olunmasına qadağa qoysunlar".

Milli Oftalmologiya Mərkəzinin avtomobil səyyar klinikası tərəfindən Qax şəhərində təşkil olunan humanitar aksiya bir neçə həftə davam edəcək.

## Torpağın bol bəhəri

**Fermerlərin aylardan bəri gözlədiyi vaxt gəlmişdir. Onlar min arzu-istəklə torpağın sinəsinə toxum səpmiş, şitil əkmiş, sonra isə cücərdiyi gündən onun qayğısına qalaraq dibini yumşaltmış, alaq otlarından təmizləmiş, suvarmasını, gübrələnməsini və digər aqrotexniki tədbirləri qaydasınca həyata keçirmişlər.**





Hər bir işi görmək üçün nə qədər zəhmət çəkdiklərini, vəsait xəclədiklərini isə hamıdan yaxşı onların özləri bilirlər. Bu proseslərin içində əsəb gərginliyi də az olmayıb desək, yanılmarıq, Allah bilir subsidiyanı vaxtında ala bilməyən və buna görə əkdiyi bitkiyə gübrəni istənilən müddətdə verməyəndə, habelə suvarma zamanı su çatmayanda nə qədər rahatsızlıq yaşamalı olublar.

Yaxşı məlumdur ki, kənd təsərrüfatı əsasən təbiətlə, yəni hava şəraiti ilə sıx bağlıdır. Cəlilabad fermerləri, torpaq mülkiyyətçiləri bu baxımdan cari təsərrüfat ilindən hələlik razılıq edirlər. Keçən ilin payızında, bu ilin erkən yazında, aprelin ilk ongünlüyündə düşən yağışların əkinlərin muradını verdiyini bildirirlər. Rayonda bir neçə gündür ki, kartof və çiyələk yığımına başlanılıb. Ələt-Astara avtomobil yolunun xalq arasında "köhnə yol" deyilən hissəsi ilə gedərkən hər iki tərəfdəki, yəni yolun sağ və solundakı əkin sahələrində qızğın iş getdiyini görürsən. Bir tərəfdə sellofan örtük altında daha tez yetişən nübar çiyələk və kartof yığılır, digər tərəfdə üzümlüklər, yenicə əkilən qarğıdalı, noxud, həmçinin başqa bitkilər becərilir.

Muğan kəndinin inzibati ərazi dairəsi üzrə nümayəndəsinin müavini Mirələm İsmayılovla fermerlərə baş çəkməyə gedirik. Hər tərəf yaşıllığa bürünüb. Rahat şose yolla irəlilədikcə kartof, çiyələk, üzüm sahələri bir-birini əvəz edir. M.İsmayılovun dediklərindən məlum olur ki, çalışdığı nümayəndəlik üç yaşayış məntəqəsini - Muğan, Söyüdlü və Maşlıq kəndlərini əhatə edir. Bu üç kənddə 1874 təsərrüfat olmaqla 8,1 min nəfərdən çox əhali yaşayır. Sovetlər zamanında həmin kəndlərdə sovxoz təsərrüfatları mövcud olub. İnsanlar bu təsərrüfatlardakı üzüm bağlarında, taxıl sahələrində, heyvandarlıq fermalarında çalışmaqla ailələrini dolandırıblar. Sovet hakimiyyətinin süqutundan bir müddət sonra, daha dəqiq desək, 1996-cı ildən islahat aparılıb və torpaqlar kəndlilərə paylanılıb. Ərazi nümayəndəsi müavinin deməyinə görə, elə həmin illərdən başlayaraq ərazidə, xüsusən Maşlıq kəndində camaat öz pay torpaqlarına növbəli qaydada kartof əkir. Taxıl və başqa kənd təsərrüfatı bitkilərini də unutmurlar. Yetişdirilən kartof Bakı, Sumqayıt şəhərlərində və digər yerli bazarlarda satılmaqla bərabər, Rusiyaya da göndərilir. İş adamları bu məsələdə fermerlərə kömək edirlər. Nəticədə həm torpaq mülkiyyətçiləri və fermerlər yaxşı qazanc əldə edirlər, həm də satışla məşğul olan iş adamları. Bunu görən kəndlilər kartof əkini sahələrini ildən-ilə genişləndirirlər. Yaxşı gəlir kənd adamlarının sosial rifahına, yaşam tərzinə müsbət təsir göstərir. Onlar geniş evlər tikdirir, avtomobil alır, oğul evləndirir, qız köçürür, bir sözlə, bütün işlərini rahatlıqla yola verirlər.

Muğan kənd inzibati ərazisi üzrə bu ilin yanvar-fevral aylarında 1055 hektara kartof toxumu əkilmişdir. Bunun 470 hektarı sellofanaltıdır. Hazırda həmin kartof yığılır. Hər hektardan təqribən 25 ton keyfiyyətli kartof əldə edilir. Bir azdan - mayın 25-dən sonra isə açıq havada yetişdirilən məhsulun yığımına başlanılacaq.

Geri qayıdırıq. Magistral asfalt yolun kənarındakı sahədə qızğın iş getdiyi diqqətimizi cəlb edir. Maşını saxlayıb onlara yaxınlaşırıq: "Məhsulunuz bol, işiniz avand olsun!" - deyib sahənin kimə məxsus olduğunu soruşuruq. Təxminən 40-45 yaşlarında cüssəli sarışın cavan adam gülümsəyərək: "Mənim sahəmdir, xoş gəlmisiniz!" - deyir. Tanış oluruq. "Adım Emin, soyadım Nadirovdur", - söyləyir. Söhbət edirik. İşlərinin necə getdiyi ilə maraqlanırıq. 7 hektarda kartof, 5 hektarda arpa, 8 hektarda buğda əkdiyini deyib, Allahdan və dövlətdən razı olduğunu bildirir.

Emin 1997-ci ildə orta məktəbi bitirdikdən sonra torpaqla məşğul olmağa başlayıb. Özünə məxsus pay torpağını nümunəvi becərib yüksək məhsul əldə edib və hər il icarəyə də torpaq götürüb. Bu il iyulun 2-də ordu sıralarına yola düşəcək böyük oğlu Nemət də həvəslə atasına kömək edir. Onun da fikri torpaqla ülfət bağlamaq, əsgərlikdən sonra əkin-biçinlə məşğul olmaqdır. Fermer bəzi çətinliklərindən, rayon rəhbərliyinin yaxından köməyi nəticəsində bu çətinliklərin aradan qaldırılmasından söhbət açmağı da unutmadı.

Bu gün Cəlilabadda hara getsən, harda olsan, belə mənzərə ilə qarşılaşacaqsan. Bu il rayon üzrə 5 min 500 hektarda kartof əkilib ki, onun da 1200 hektarı sellofanaltı üsulla yetişdirilib. Həmin məhsulun 15 min tondan çoxu Rusiya Federasiyasının müxtəlif vilayətlərinə göndərilib.

Çiyələk sahələrində də məhsulun yığımı getdikcə sürətlənir. 505 hektarın 350 hektarı sellofan örtük altında becərilib. İndiyədək müxtəlif sortlardan olan 7 min tona yaxın çiyələk yığılıb ki, onun da 3 min tondan çoxu xarici ölkələrə yola salınıb. Bir azdan açıq çiyələk sahələrində də məhsul yığımı start götürəcək.

Bunlarla bərabər, taxıl biçininə hazırlıq işləri, üzüm bağlarında xəstəliklərə qarşı mübarizə tədbirləri görülür, günəbaxan, qarğıdalı, bostan-tərəvəz əkilir. Səpini başa çatdırılmış yerlərdə becərmə sürətləndirilir. Bir sözlə, cəlilabadlılar ölkə əhalisinin bol və keyfiyyətli kənd təsərrüfatı məhsulları ilə təmin olunmasına öz paylarını vermək üçün əzmlə çalışır, qüvvə və bacarıqlarını əsirgəmirlər.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

## GDU-da "Vergilər" mövzusunda olimpiadanın ilk seçmə mərhələsi olub

**Gəncə Dövlət Universiteti və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin birgə təşkilatçılığı ilə İqtisadiyyat və idarəetmə fakültəsinin tələbələri arasında Ulu Öndər Heydər Əliyevin xatirəsinə həsr olunan ümumrespublika olimpiadası keçirilib.**

AZƏRTAC xəbər verir ki, "Vergilər" mövzusunda keçirilən olimpiadanın ilk seçmə mərhələsində universitetin Tədris məsələləri üzrə prorektoru Şahin Xurşudov ali təhsil ocağının rəhbərliyi adından tələbələrə uğurlar arzulayıb. Qeyd edib ki, olimpiadanın təşkilində məqsəd vergi sahəsində bilik səviyyəsi yüksək olan tələbələri müəyyən etmək və gələcəkdə bu sahə üzrə mütəxəssislərin yetişdirilməsi üçün zəmin yaratmaqdır.

Tələbələrə vergi sistemi və vergi qanunvericiliyi istiqaməti üzrə 50 test sualı təqdim edilib. Qeyd edək ki, olimpiadanın yekun turunun iyun ayında təşkil edilməsi nəzərdə tutulur.

## Tovuzda kartofçuluqla məşğul olan təsərrüfatların sayı artır



**Bu gün Azərbaycan üçün mühüm hədəflərdən biri də kənd təsərrüfatını sürətlə inkişaf etdirərək yerli istehsal hesabına daxili bazarı lazımınca ərzaq məhsulları ilə təmin etməkdir. Onu da etiraf edək ki, bu sahədə müəyyən uğurlar da var.**

İndi ölkədə elə bölgə tapmaq olmaz ki, orada kənd təsərrüfatının şaxələndirilməsi istiqamətində iş aparılmasın. Ən çox da diqqət ənənəvi kənd təsərrüfatı məhsullarının istehsalının artırılmasına verilir. Belə məhsullardan biri də kartofdur.

Son illər Tovuz rayonunda bu sahəyə diqqət xeyli artmışdır. Rayon fermerləri iqtisadi cəhətdən gəlirli olan bu məhsulun istehsalını artırmaq üçün həm əkin sahələrini genişləndirir, həm də məhsuldar sortlara üstünlük verirlər.

Bu günlər belə təsərrüfatlardan birində olduq. Təsərrüfatın aparıcı mütəxəssisi Zaur Bağırovla görüşdük. O, əkin sahəsində yetişdirilən kartofun dərmanlanmasına nəzarət edirdi. Söhbət zamanı məlum oldu ki, təsərrüfat əsasən taxılçılıq və kartofçuluqla məşğul olur. Keçən il təsərrüfat 330 hektardan 2310 ton taxıl biçmişdir. İstehsal olunan məhsulun 1000 tonu toxum kimi ayrı-ayrı təsərrüfatlara satılmışdır.

Öyrəndik ki, təsərrüfat kartof istehsalında da yüksək göstəricilərə nail olur. Belə ki, ötən il icarəyə götürülmüş 60 hektardan 3 min 300 ton kartof götürülmüşdür ki, bu da 55 sentner məhsuldarlıq deməkdir. Təsərrüfat bu il kartof əkini sahəsini 80 hektara çatdırmışdır. Sahələrdə yaxşı çıxış alınmışdır. Əkilmiş kartofun suvarılmasında əsasən Ağstafaçay su anbarından istifadə edilir. Hazırda becərmə işlərində 4 nəfər çalışır. Məhsul yığımında onların sayı 40 nəfərdən çox olacaq.

Söhbət zamanı onu da öyrəndik ki, təsərrüfat əsasən Holland sortu olan "Marabel" və "Allergiya" sortlarından istifadə edir. Bundan başqa, qardaş Türkiyədən gətirilmiş "Qafqaz" və "Bahar" sortlarının da sınağı keçirilir. Yeni sortlar rayonun iqlim şəraitinə uyğunlaşsa və məhsuldar olsa, gələcək illərdə onlardan istifadə ediləcək.

Hazırda təsərrüfatın əkin sahələrində becərmə işləri gedir. Kartofun dibi boşaldılır, ziyanvericilərə və xəstəliklərə qarşı mübarizə tədbirləri görülür. Kollektiv əmindir ki, keçən il olduğu kimi, bu il də sahələrdən bol məhsul götürəcək.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## "Məşğulluğa Dəstək Layihəsi" çərçivəsində Oğuz rayonunda ictimai dinləmə keçiriləcək

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Dünya Bankının maliyyə dəstəyi ilə icra olunan "Məşğulluğa Dəstək Layihəsi" çərçivəsində növbəti ictimai dinləmə mayın 17-də Oğuz rayonunda keçiriləcək.**

Oğuz şəhərindəki Emin Abdullayev adına 2 saylı tam orta məktəbdə təşkil olunacaq tədbirdə iştirakçılara layihənin hədəf və məqsədləri, əhatə dairəsi, icrası zamanı ətraf mühit və sosial məsələlərə dair tələblər barədə məlumat veriləcək.

Proqrama müraciət və proqramda iştirak qaydalarına dair ətraflı məlumat veriləcək, iştirakçıların sualları cavablandırılacaq.

## 106,3 min nəfərdən çox şəxs aktiv məşğulluq tədbirləri ilə əhatə edilib

### Onların əksəriyyəti region əhalisidir

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən bu ilin yanvar-aprel aylarında 106 330 şəxs aktiv məşğulluq tədbirləri ilə əhatə olunub.**




Onlardan 18 334 nəfəri "Əmək və Məşğulluq" altsistemindəki vakansiya bankına yerləşdirilən vakansiyalar üzrə işlə təmin edilib.

Həmin dövrdə 1624 nəfər özünüməşğulluq proqramına cəlb olunub. Təlim kurslarında iştirak etdikdən sonra onların kiçik bizneslərini yaratmaları üçün aktivlərlə təminatı həyata keçirilir.

Yanvar-aprel aylarında 3295 işsiz şəxs üçün işəgötürənlərlə əməkdaşlıq çərçivəsində peşə hazırlığı kursları təşkil edilib, 83077 şəxsə isə peşəyönümü xidmətləri göstərilib.

## Astarada sənaye məhsulları istehsalı 21,1 faiz artıb

**Astara rayonunda cari ilin yanvar-mart aylarında sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən istehsal olunan malların və göstərilən xidmətlərin həcmi 21,1 faiz artaraq 10 milyon 86,6 min manat təşkil edib.**



Astara Rayon Statistika İdarəsindən bildiriblər ki, sənaye məhsullarının 30,8 faizi emal, 68,8 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,4 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunub.

Sənayedə qeyri-dövlət sektorunun payı 30,8 faiz təşkil edib, istehsal edilən məhsulun 10220,3 min manatlığı istehlakçılara göndərilib.

Qeyd edək ki, əvvəlki dövrlərdə yaranmış ehtiyatlar da nəzərə alınmaqla sənaye müəssisələrinin anbarlarında 2023-cü il aprelin 1-i vəziyyətinə 408,6 min manatlıq hazır məhsul olub.

## AYNA regionlarda sahibkarlara bir sıra xidmətləri yeni ünvanda göstərəcək

**Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən AYNA (Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi) tərəfindən regionlarda sahibkarlıq subyektlərinə göstərilən bir sıra xidmətlər yeni ünvanda təşkil edilir.**

Bu barədə nazirlikdən bildirilib ki, artıq Xaçmaz və Yevlax KOB evlərində AYNA tərəfindən iriqabaritli yüklərin daşınması üçün icazələr, "Fərqlənmə nişanı", "Xüsusi fərqlənmə nişanı"nın verilməsi, avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili (rayondaxili), şəhərlərarası (rayonlararası) və beynəlxalq marşrut üzrə sərnişin daşınması haqqında müqavilənin bağlanması, avtovağzalın (avtostansiyanın) fəaliyyət göstərməsi üçün pasportun verilməsinə başlanılıb.

Həmçinin Yevlax və Xaçmaz şəhərlərində daşıyıcılar "Avtomobil nəqliyyatı ilə beynəlxalq daşımalara buraxılış vəsiqəsi və buraxılış kartları"nı təqdim edərək "İcazə" blanklarını Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) strukturuna daxil olan Xaçmaz və Yevlax KOB evində AYNA-nın əməkdaşlarından təhvil ala bilərlər. Sənədləri buraxılış qaydalarının şərtlərinə uyğun olan daşıyıcılara "Avtomobil nəqliyyatı ilə beynəlxalq daşımalara



buraxılış vəsiqəsi və buraxılış kartı" da KOB evlərində təqdim olunur. Qeyd edək ki, bu ilin yanvar ayından etibarən AYNA tərəfindən göstərilən bir sıra xidmətlər ilk olaraq "Bakı KOB evi"ndə təşkil edilir.

## «AZƏRBAYCAN» qəzetinin 1918-ci il 9 dekabr (Bazar ertəsi) tarixli 60-cı nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN

Düşənbə, 5 rəbiüləvvəl sənə 1337.
9 kanuni-əvvəl sənə 1918.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 70 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rublədir.
Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir.

Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

### İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Hacı Qurbanəli və Qulamrza Abdullayev nəsəbi bemonasebəte-vəfate-Məşhədi Zeynəlabidin Abdullayev ke əvvəli bəradərəş və dovvomi pedərəş bakemale yə's və nomid be dust-aşenaye elam mi nəmayəd Badkube dərşəhre-kohne kənare-dərya portuye çast kuç-eye Buxarski xaneye Cavad Vəliyev əzruze-doşənbe və seşənbe 5 və 6 rəbiüləvvəl dərməclese əzaya an-mərhum xahənd neşəst bəraye fatehexani beanca təşrif-fərma şəvənd.

*294*

### AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANI İDARƏSİNDƏN

Azərbaycan Məclisi-Məbusanının 9 dekabrda təyin edilmiş olan iclası, fraksiyanın xahişinə görə ayın 10-u gündüz saat 12-yə təxir edilir.

*Heyəti-Rüasə [Rəyasət Heyəti]*

### BAKI, 9 KANUNİ-ƏVVƏL [DEKABR]

Azərbaycan Parlamanının açılması münasibətilə Şurayi-Milli sədri Məhəmməd Əmin Rəsulzadə cənabları söylədikləri bəliğ [bəlağətli; təsirli] nitqində zalın divarlarında zinətbəxş olan [zalın divarlarını bəzəyən] üçrəngli Azərbaycan türkləri milli bayrağını salamlayaraq "Bir dəfə yüksəlmiş bayraq artıq endirilməz!" söylədilər. Məbusan əfəndilərin hamısı – hətta milliyyət bayrağı deyil, bəlkə başəriyyət bayrağına xidmət edən sosialistlər müstəsna olmamaq üzrə – böyük bir təhəyyüc [həyəcan] və təəssürlə [mütəəssir olaraq] ayağa qalxıb milli bayraqları alqışladılar. Həmin üçrəngli bayraq Parlaman binası başında xəzri yelinin zərbələri ilə yellənib, bütün şəhəri salamlamaqla Azərbaycan türk və islamlarının qəlbini sürur [sevinc] və fərəhlə doldurub iftixarlarına səbəb oldu.

Əvət. Bir dəfə yüksəlmiş bayraq artıq endirilməz.

Biz buna bu gün iman ediriz. Azərbaycan türkləri yüz illər çəkdikləri zillətdən bu gün xilas olmağa özlərini haqlı bilib asudə, insanca və bəşərcəsinə güzəran etmək istəyirlər. Bir millətin böylə bir ümumi xahişini, hürriyyət yolunda qanlar tökən mədəni avropalılar qəbul etməyəcəklərmi, əcəba? Bir millətin böylə bir müəyyən [konkret] xahişini "hər bir millət öz hüququna malik olsun" şüarını ortalığa buraxan rus demokratiyası təsdiq etmək istəməyəcəkdir?

Xeyr, biz inanırız ki, mədəni aləmi-bəşəriyyətin düzəltdiyi yeni aileyi-əqvamda [millətlər ailəsində] bizə də bir yer olacaqdır, bizə də bir guşə veriləcəkdir. Zira, bizi nomid [ümidsiz] etmək, heç bir millətin mənafeyi cümləsindən deyildir. Bizim qəlbimizi sındırmağı heç bir millət özünə rəva görməməlidir.

Bizim istəyimiz hamı üçün məlumdur. Biz özümüzü Rusiyanın düçar olduğu bəla və afətdən məsun [toxunulmaz] saxlamaq üçün müstəqil yaşamaq və tarix və etnoqrafca bizim halal olan malımıza və torpağımıza malik olmaq istəyiriz.

Biz kimsənin hüququna əl aparmaq niyyətində deyiliz. Lakin öz hüquqi-insaniyyə və bəşəriyyəmizi müdafiə etmək istəyiriz. Tarix və zaman özü bu əməl və qayənin feilə gəlməsi üçün bizə müsaidət [icazə] verdi. Biz ya elani-istiqlaliyyət etmək və ya bilmər-rə [tamamən] məhv və nabud [yox] olub getmək feili qarşısında durduq. Bu ikisindən birini seçməliydik.

Təbii ki, birinci yolu tutub məhv və nabud olmaq istəmədik. Şimdi isə bizi öz xahişimizə rəğmən yenidən başqa dürlü siyasi oyunlar iştirakına məcbur etmək niyyətində olanlar və istiqlaliyyətimizə, yəni milliyyətimiz azadlığına toxunmaq istəyənlər bunu dərxatir etməlidirlər [yada salmalıdırlar] ki:

Bir dəfə yüksəlmiş bayraq artıq endirilməz.

Bayraq bir millətin şərəf və namusudur.

### AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

Məclisi-Məbusanın birinci iclasında Rəisi-Şura [Şura Sədri] Məhəmməd Əmin bəy Rəsulzadə və Rəisi-Vükəla [Baş nazir] Fətəli xan Xoyski həzrətləri tərəfindən irad edilmiş olan [söylənən] nitqlərin təfsili.

#### Məhəmməd Əmin bəyin nitqi

"Möhtərəm məbuslar!

Azərbaycan Cümhuriyyətinin ilk Məclisi-Məbusanını açmaq yövmi-səadəti [bəxtiyar günü] siz möhtərəm məbusları təbrik etmək şərəfinin öhdəmə düşməsi ilə müftəxirəm [fəxr edirəm]. *(Alqışlar)*

Əfəndilər! Rusiyada zühur edən inqilabi-kəbir [böyük inqilab], digər həqiqətlər arasında bir həqiqəti-bahirəni [parlaq həqiqəti] dəxi elan etmişdi. Bu həqiqət, millətlərin haqqi-hürriyyət və istiqlalları idi. Rusiya inqilabı, təbiətində mövcud olan ruha sadiq qalaraq təbii yolu ilə inkişaf etsəydi, millətlərin hüququnu təmin ilə muxtariyyətlərdən mütəşəkkil azad və demokratik bir Rusiyanı bir an əvvəl təsis edəcəkdi. O vaxt, təbii idi ki, Rusiyada yaşayan müsəlmanların da həyati-siyasiyyələri digər məhkum millətlərlə bərabər başqa bir təriqdə [istiqamətdə] cərəyan edəcəkdi.

Millətlər, kəndi müqəddəratlarının təyinini pək səmimanə bir surətdə Rusiya Məclisi-Müəssisanından gözlədilər. Fəqət bunun inqilab və demokratizm naminə zühur edən mə'kus [uğursuz] bir istibdad nə kimi xarabalıqlar yaratdığını bilirsiniz. İnqilab naminə hökmfərma olan [hökm sürən] anarşi və millətlərin hüququ elanından sonra yeridilən qatı mərkəziyyətçilik, Zaqafqaziya millətlərini kəndi başlarının çarəsinə baxmağa sövq etdi. Zaqafqaziyadan Rusiya Məclisi-Müəssisanına intixab olunan [seçilən] məbuslar kəndilərini vəkil edən camaatın hüququnu, Zaqafqaziya Seymini təşkil və onun istiqlalını elan etməkdə gördülər.

Eyni məntiq nəhayət Azərbaycan əhalisi tərəfindən seçilən vəkilləri Şurayi-Milli təşkilinə sövq, bu Şurayi-Milli isə Azərbaycan istiqlalını elan etmək zərurəti qarşısında qaldı. Azərbaycan istiqlalı elan olundu. *(Alqışlar)*

Bu gün əqaliyyət [azlıq] təşkil edən millətlərin nümayəndələri ilə qəzaların yeni nümayəndələri dəvət olunmaq üzrə işte bu Məclis təşəkkül etmişdir. Bu Məclis, ümumi seçki üsulu ilə toplanacaq Azərbaycan Məclisi-Müəssisanı toplanıncaya qədər məmləkətimizin sahibi olacaq. Burada Azərbaycanda bulunan bütün millətlərin, təbəqələrin və müxtəlif cərəyanların nümayəndləri olduğundan, bu Məclis vətənimizi tamamilə təmsil edə bilər.

Əfəndilər! Bilirsiniz ki, bizim Rusiya camaatına qarşı heç ədavət və nifrətimiz yoxdur. Bizar olduğumuz Rusiya; çarizm Rusiyası, Rusiya istibdadıdır. Rusiyaya nifrətimiz, Rusiya istibdadı altında inləyən Rusiya camaatına nifrət demək deyildir. Bizcə mənfur olan Rusiya, millətləri əzən və hüquqlarını verməyən rəsmi Rusiyadır. Bir millət müstəqil və hürr olmalı, hürr olduqdan sonra digər millətlərlə ürək istədiyi kimi əqdi-ittifaq etməlidir [ittifaq bağlamalıdır]. Bütün dünya millətlərinin bir "Cəmiyyəti-Əqvam" [Millətlər Cəmiyyəti] vücuda gətirməsi bizim ən müəzzəz [əziz] fikirlərimizdəndir. Bu "federasyon" cəbrlə [zorla] deyil, təbii bir meyl və arzu ilə hasil olmalıdır. *(Alqışlar)*

Ərz etdim ki, biz Rusiya camaatının da düçar olduğu fəlakətdən qurtulmasını ürəklə istəriz. Biz Rusiya hökumətinin həqiqi rus demokratiyası əlinə keçməsi tərəfdarıyız. Çünki Qafqaziya dağlarının şimalında təşəkkül edən müstəbid və təcavüzkar bir hökumətə biz laqeyd qala bilməriz. *(Alqışlar)*

Biz Rusiyanın səadətini istəriz. Rusiya camaatını sevəriz, fəqət kəndi istiqlalımızı da əziz tutarız. *(Alqışlar)*

Cəbrlə qəbul etdirilən bir şeydə qətiyyən səadət olammaz, çünki səadət, hürriyyət və istiqlaldadır.

İştə bunun üçün, əfəndilər, müstəqil Azərbaycanı təmsil[ən] o üç boyalı bayrağı Şurayi-Milli qaldırmış. Türk hürriyyəti, islam mədəniyyəti və müasir Avropa əfkari-əhraranəsini [azad fikrini] təmsil edən bu üç boyalı bayraq, daima başlarımızın üstündə ehtizaz edəcəkdir [dalğalanacaqdır]. *(Məbuslar yerlərindən qalxır, şiddətli alıqışlar mədid [uzun] bir surətdə davam edir.)*

Mən buna iman edirəm. Mənim bu imanımı, millətlərin qəlbində doğmuş olan əməl [arzu] günəşi işıqlandırır. Bu günəş bir daha üful etməyəcək [batmayacaq]. Mən vicdani-bəşəriyyətə inanıram. Milyonlarla insan bahasına mal olan qitali-ümumidən [qırğından] sonra vicdani-bəşər qazandığı həqiqətləri asanlıqla əlindən verməz. "Cəmiyyəti-Əqvam" fikri bu gün hər kəscə qəbul edilmiş bir fikirdir. Buna ümid verir, qüvvətlə inanıram ki, artıq milləti öldürmək, millətin hüququnu paymali-zəval etmək [tapdalayıb puç etmək] qətiyyən mümkün deyildir. Qaliblər də, məğlublar da millətlərin hüququ təslim edilməlidir, deyirlər. *(Alqışlar)*

Yaxında açılacaq Sülhi-Ümumi Konqresində bu fikir qətiyyən hakim olacaq. Bu gün əhvala hakim olanlar Müttəfiqlərdir. İngilis, Amerika, Fransa dövlətlərinin bayraqlarında millətlər[in] təmini-hüququ və "Cəmiyyəti-Əqvam" şüarı yazılıdır. Dövlətlərin Bakıda bulunan nümayəndələri naminə general Tomson Qafqaziya məsələlərinin Sülhi-Ümumi Konqresində həll olunacağını rəsmən elan etmişlərdir.

Biz azərbaycanlılar bütün mövcudiyyətimizlə kəndi müqəddəratımızı, kəndi istiqlalımızı müdafiə və mühafizədə israr edər, səbat və mətanət göstərərsək, heç şübhəsiz ki, Azərbaycan Cümhuriyyəti paydar [daimi, əbədi] olar. Fəqət bunun üçün, təkrar edirəm, səbat, mətanət, fədakarlıq istər. İstər ki, biz kəndimizin istiqlala layiq olduğumuzu isbat edəlim. Bu oldumu, sizi təmin edirəm ki, kimsə haqqımızı təslim etməmək cəsarətində bulunammaz. Hangi vicdandır ki, istiqlalı istəyən və ona ləyaqətini isbat edən bir milləti qəhr etsin. *(Alqışlar)*

Əfəndilər! Biz Qafqaziya əqvamı-[nın] [qövmlərinin] ruhunda, hər zaman hürriyyət və istiqlal fikri hakim olmuşdur. Hürriyyət fikrinin müməssili olan Prometey, Qafqaziya dağlarında zəncirbənd edilmişdi. O, daima zəncirlərini qırmaq təşəbbüsündə idi. Prometeyin ruhu Qafqaziyanın bütün millətlərində vardır. Qafqaziya millətlərinin istiqlalı və bərabərlikdə müstəqil olaraq yaşamaları bir xəyali-bəid [uzaq xəyal, imkansız şey] deyildir. Qardaş millətimiz olan Şimali Qafqaziya, qapıbir qonşumuz ermənilər, münasibati-dostanəmiz bütün cüz'iyyata [xırdalıqlara, xırda problemlərə] rəğmən daima səmimi qalan gürcülər, bizə bir çox mədəni xidmətləri toxunmuş rus camaatının mühüm bir qismi ilə əl-ələ verərək biz, Qafqaziyanın müqəddəratını bu qitə [bölgə] üzərində yaşayan millətlərin arzusu vəchi ilə [arzu etdikləri kimi] təmin edə biləriz. *(Sürəkli alqışlar. Diplomasi lojalarına müraciətlə təkrar alqışlar.)*

Əfəndilər! Mən buraya qədər sizə ümidli sözlər söylədim. Buna iman edirəm, fəqət nəzərinizi əhvalın ağırlığına dəxi cəlb etməzsəm, vəzifəmi hüsni-ifa etməmişəm [yaxşı yerinə yetirməmişəm] deməkdir. Zaman ağır, gedəcəyimiz yol çox tikanlı və arizəlidir [çətin, maneəlidir]. İrəlidə bir çox müşkülat və maneələri dəxi gözə almalıyız. Bu maneəli yolları keçmək və sərmənzili-məqsuda [mənzil başına] ermək üçün siz məbus əfəndilər bir çox fədakarlıqlar ibraz etməli [göstərməli], təmsil etdiyiniz millətə səbat, mətanət göstərmək üzrə bir nümuneyi-əmsal təşkil etməlisiniz. Bu nümunəni göstərəcək iqtidar və istedada malik oldunuzsa, yolun yarısı gedilmiş deməkdir.

Əvət, əfəndilər! Bu gün firqə ehtirasları, şəxsi qərəzləri və bütün bu kimi vətən və millət qayəsi qarşısında süfli [alçaq] qalan qərəzlər atılmalı, vətən qayğısı və millət duyğusu hər şeydən yüksək tutulmalıdır. *(Sürəkli alqışlar)*

Əfəndilər! Bu gün Azərbaycanın paytaxtında Məclisi-Məbusan iftitahındayız [açılışındayız]. Azərbaycan bir atəş mənbəyidir. Vətənimiz hər zaman kəndi sinəsində bir atəşi-müqəddəs bəsləmişdir. Bu atəş, əski zamanlardan bəri həqiqətpərəstlərə rəhbər [yol göstərən] bir şöleyi-ümid və iman [ümid və iman şöləsi] təşkil eyləmişdir. O atəş ki, bu gün də sərvət və saman [var-dövlət] səbəbi və baisi-təməddündür [mədəniyyətin səbəbkarıdır]. Qoy bu atəş Azərbaycan övladının sinələrinə dolsun. Milyonlarla ürəyi yaxan bu atəş, əbədiyyən sönməz bir məşəl təşkil edib də hürryyət və istiqlala doğru getdiyimiz maneəli yolları işıqlandırsın. *(Sürəkli və mədid alqışlar)*"

#### Xan Xoyskinin nitqi

Sürəkli və gurultulu alqışlar içində Rəisi-vükəla Xan Xoyski həzrətləri kürsiyi-xitabətə çıxaraq, Hökumətin fəaliyyəti haqqında aşağıdakı nitqi irad edirlər:

"Möhtərəm Azərbaycan Parlamanı əzası [üzvləri]!

Bu gün öylə böyük, əziz və mübarək gündür ki, bunu biz azərbaycanlılar yuxumuzda da görməzdik. Bu gün o gündür ki, milli müqəddaratınızı öz əlinizə aldınız. Hökumət məni vəkil etmişdir bu bayram münasibətilə sizi və sizinlə bərabər özümüzü təbrik edəyim. *(Alqış)*

Hökumət sizin hüzurunuzda məsul olduğundan, borcudur öz fəaliyyəti və nə kimi şərait altında işlədiyi haqqında sizə bəyanat versin. Mən bu gün ümum Hökumətin fəaliyyəti haqqında sizə müfəssəl məlumat verməyəcəyəm. Hər vaxt istəsəniz, hər nazir öz nəzarətinin [nazirliyinin] fəaliyyəti haqqında məruzə təqdim edəcəkdir. Mən isə bu gün ancaq Hökumətimizin nə kimi şərait altında təşkil edi[li]b fəaliyyətdə bulunduğunu və müxtəsər tarixini ərz edəcəyəm.

Azərbaycan Hökuməti o vaxt təşək-kül etdi ki, Gürcüstan Zaqafqaziyadan ayrılaraq elani-istiqlal etdi. O vaxt xarici ən mühüm bir neçə məsələ var idi: Qafqaziya cəbhəsinin ilğası [ləğvi] və Türkiyə ilə mübahisəli olan məsələlərin həlli. Hökumətimizin təşəkkülü, həman Türkiyə ilə sülh müzakiratı icrası əsnasında vaqe olmuşdur. Daxili vəziyyətimiz isə qayət fəna idi. Hökumətimiz öylə bir zamanda təşəkkül etmişdi ki, bir kəndindən digərinə getmək qorxulu idi. Heç kəsin irzi, namusu, canı, malı əmində deyildi. Rus qoşunları Qafqaziyadan çəkildikdən sonra dəmiryollarında vüqu bulmuş hadisatdan dolayı dəmiryolları tamamilə yatmış kimiydi. Post və teleqraf müxaribatı [əlaqəsi] bilmərrə [tamamən] kəsilmişdi. Dövlətin ən artıq möhtac olduğu maliyyat naminə heç bir şey yox idi. Dövlət makinasını təşkil edən idarələrin həpsi dağılmış, xidmətçiləri qaçmışlardı. İdarələrin bəzilərinin adı varsa da, özü yox idi. Hər yerdə beş-on adam yığışıb bir hökumət düzəldir, bir qanun verirdi. Hər kəs özü-özünə bir hökumət idi. Böylə bir zamanda bütün Azərbaycan tərəfindən seçilmiş Milli Şura, hökuməti təyin edib məmləkətin müqəddəratını ona tapşırdı. Hökumətimiz təsdiq edilməmişdi [tanınmamışdı]. Hökumətin səyi ilə Türkiyə ilə müzakirat tez qurtarıb, sülhnamə bağlandı. Fəqət bununla bərabər, daxili işlər o qədər pərişan olan bir zamanda hökumət daxildə qanun və asayiş bərpasından aciz idi. Zira nə əsgəri qüvvəmiz vardı, nə silahımız. Bittəb' daxildən düzəltmək mümkün deyildi. Binaileyh [ona görə], xarici bir qüvvəyə lüzum görülərək türklərə müraciət edildi. Türkiyə-Azərbaycan sülhnaməsinin bir maddəsinə görə məmləkətimizə nə vaxt lazım olsa, hüququmuz müdafiəsi üçün türklər bizə bir qədər əsgər verməli idilər. Ona görədir ki, darda qaldıqda, bu çarəyə təvəssül [müraciət] edildi. Türklər iltizamlarına [vədlərinə] əməl və vəzifələrini hüsni-ifa etdilər [müvəffəqiyyətlə yerinə yetirdilər]. Əlbəttə, qoşunsuz, gücsüz görülməsi pək müşkül olan işlər çox çətinliklə yavaş-yavaş işlənirdi.

Biz xaricdən qüvvə almaq üçün başqa millət və dövlətə müraciət etmək bəzi şəraitdən dolayı mümkün deyildi. Müracət etsəydik də, bir nəticə hasil olmazdı. Ona görədir ki, dindaş və millətdaşımız olan Türkiyəyə müraciət edildi.

Altı ay həyatı müddətində hökumətimiz çox iş görmüşdür. Heyni-təəssüsündə [qurulduğu əsnada] hərc-mərcdən başqa bir şey yox, hətta polis belə yoxdu. Binaileyh, ibtida [başlanğıcda] hər şeydən ziyadə zəbtiyyə [asayiş] işlərinə diqqət verilərək, müəssisələr təsis və təcdid edildi [quruldu və bərpa edildi]. Hazırda hər yerdə məmurlarımız, idarələrimiz var. Millətin, camaatın malını və canını müdafiə edəcək təşkilatımız və məmurlarımız var.

Əlbəttə hökumətimizin fəaliyyəti haqqında çox sözlər danışıla bilər. Fəqət hökuməti tənqid etmək üçün nə vaxt və nə kimi şərait altında çalışdığını nəzərə almalı, bu nöqteyi-nəzərdən də mizana vurmalıdır [ölçülməlidir; qiymətləndirilməlidir]: Hangi hökumət və nə vaxt çalışmışdır? Azərbaycan hökuməti-hazirəsinin [indiki Azərbaycan hökumətinin] özünəməxsus uzun müddətlik bir sabiqəsi [keçmişi], tarixi, əsgəri qüvvəsi, xəzinəsi olmadığı nəzərə alınarsa, görülər ki, böylə şərait altında iş aparmaq pək müşkül idi. İbtidayi-təşəkkülündə [qurulduğu ilk vaxtlarda] hökumət qarşısında duran mühüm məsələlərdən birisi də dağılmış, pozulmuş, vaqonu və xidmətçisi olmayan dəmiryollarında hərəkatın təcdidi [bərpası] idi. Buna diqqət verildi və gördüyümüz nəticə əldə edildi. Doğrudur, lazım və mümkün olan bir çox şeylər yoxdur. Fəqət narahat olsa da, hələ ki, işlər bir qədər sahmana düşmüş və idarə olunur. O vaxt bütün məmləkətdə post, teleqraf müxabiratı kəsilmiş, bir kağız belə göndərmək mümkün deyildi. Şimdi qüvvəmiz qədər bunu da düzəltdik, tamam Azərbaycanda olmasa da çox yerdə artıq kantorlar, müxabirat aparatı əmələ gəlmişdir.

Vacib məsələlərdən birisi də pul məsələsi idi ki, bunsuz əsla iş getməzdi. Hökumətimiz bir zamanda təşəkkül etmişdi ki, Batum nümayəndələrinə göndərmək üçün 10 min manat pul tapmayırdı, borc axtarırdı. O vaxt Azərbaycanın paytaxtı və qismi-əzəmi [çox hissəsi] heç öz əlimizdə deyildi. Binaileyh, Azərbaycan pulu buraxmaq fikri gülünc idi. Ona görə, bu məsələdə başqaları ilə sazişə ehtiyac var idi. Gürcüstanla şərik olaraq bon[o] buraxmağa məcbur olduq. Buraxıldı da. Bədəhu [sonra] Bakının işğalından sonra bir qədər də Bakı bonu buraxıldı. Eyni zamanda Azərbaycan pulu kəsilmək üçün özgə məmləkətlərə adam göndərildi. Şimdi pul kəsilir və yaxın zamanda Azərbaycan pulu çıxar.

Əlbəttə, bu işlər öhdəmizə düşən ağır vəzifənin bir zərrəsidir. Ən böyük zəlalətimiz bu idi ki, o vaxt hökumət göydən asılı kimi idi. Zira hürriyyət, ədalət, üxüvvət [qardaşlıq] bayrağı daşıyanlar, Bakını əlimizdən almış, bizi paytaxtsız qoymuşdular. Azərbaycanın kökünü təşkil edən, məmləkətin hüquqi sahibi olan müsəlmanlar qətliam edilərək Dağıstan, İran və Turana dağılmışlardı. Şəhərdə bir iş görəcək adamımız qalmamışdı. Böylə olan surətdə bu məsələdən başqasına böyük əhəmiyyət veriləmməzdi. Türkiyəyə də müraciətimizin ümdə səbəbi bu oldu. Zahirən bunca böyük zəhmət və fədakarlıqlar xırda görünürlər. Amma o zəlalət, o fəlakət yada gətirilərsə, nə qədər zəhmət və məşəqqət çəkdiyimiz anlaşılar. Bəlkə öhdəmizə düşən vəzifəni tamamilə hüsni-həll edəmmədik [ideal həllini tapa bilmədik]. Bəlkə bu uğurda çox qüsurlarımız var, fəqət əhvalımız əhəmiyyətlə təqdir edilərsə, təqsirimiz çox yüngülləşər. Şükürlər olsun ki, artıq məqsədlərimizin bir çoxuna çatdıq, Bakı əlimizə keçdi. Doğrudur, şəhər alınarkən bəzi müəssif [təəssüf doğuran] hadisələr vaqe olmuşdur, hökumət bunu gizlətməyir və gizləməyi layiq bilməyir. Doğrudur, çox adama əziyyət keçmişdir. Fəqət, mümkün idimi ki, hökumət bu hadisənin qabağını tamamilə alaydı? Zənnimcə insaf gözü ilə baxanlar etiraf edərlər ki, dünyada heç [bir] hökumət ala bilməzdi. Burada müsəlmanlar qırılmış, hüquqları ayaqlar altında tapdalanmış, şəhər üç ay dava etdikdən sonra alınmış, nəticədə acıqlı camaat – hökumət, əlbəttə, acıqlı deyildir – və əsgər şəhərə girərkən hadisənin önünü almaq mümkün idimi? Bilxassə ki, hökumət şəhərə ancaq üç gün sonra daxil olmuşdur. Hökumətin vürudunadək nə olmuşsa da ondan sonra heç bir şey vaqe olmamışdır. Hökumət şəhərə varid olar-olmaz tədbirlər görüb 100-ədək müsəlmanı asdırdı, qurşuna dizdirdi və asayişi təcdid [bərpa] etdi. Çox tərəfdən bu xüsusda çox sözlər danışılır, fəqət danışmaq asan, lakin həqiqəti təqib etmək müşküldür. Həqiqəti-hal nəzərə alınarsa, hamı etiraf edər ki, bu işlərin qabağı alınammazdı.

Böylə ağır vəziyyətlə bərabər, təlatüm içində qayalar arasında nazik taxta qayıqda gedən gəmiçi vəziyyətində bulunan hökumət, qayığını öylə aparmalı idi ki, daşa dəyib dağılmasın. Əhvali-xariciyyəmiz öylə idi. Mən hökuməti tövsif [vəsf] etməyirəm, fəqət fikir etsəniz görərsiniz ki, hökumət bu uğurda necə çalışmışdır. Bir yandan çalışırdıq işimizə qarışmaq istəyənləri kənar edək, digər tərəfdən də imkanımız yox idi. O zaman burada Almaniya nümayəndələri var idi. Onlar bizə çox ağır tələblər verərək gah pambıq məsələsində, gah neft işlərində tamahlarını ibrazla [göstərməklə] bizi çox vaxt zorlayırlardı [bizə təzyiq göstərirdilər]. Zəif ikən bunlara müqabilə etməli idik [onların qarşısında dayanmalı idik], edirdik də. Onların tamah və tələblərinə qarşı "Azərbaycan, azərbaycanlılar üçündür" şüarını qoyurduq.

Sonra övza [vəziyyət] dəyişdi, gözlənməyən bir vaqiə oldu. Yeni məsələlər çıxdı; bir məqama gəldi ki, hökumət nə edəcəyini bilməyirdi. Ola bilərdi ki, bir addımla hər şey dəyişsin. Xalq yeni yolla getmək istəyəcəkmi, yoxmu? Məlum deyildi. Burada xalqın öz rəyini bilmək lazım idi. Binaileyh, Parlaman dəvətinə lüzum görüldü."

Bədəhu [ondan sonra], nə üçün Azərbaycan Məclisi-Müəssisanı çağırılmayaraq bugünkü Parlaman dəvət edildiyini dəlillərlə bəyan etdikdən sonra, Müttəfiq dövlətlər, xüsusən İngiltərə və qonşu millətlərlə münasibatımıza [münasibətlərimizə] nəqli-kəlam edərək [sözü gətirərək] deyir ki:

"İngilislər ən qədim hüquq və muxtariyyət müdafeidirlər [müdafiəçisidirlər]. İngiltərədə hamıdan ziyadə müsəlman var, bunların müharibədəki hümmət və yardımı göstərir ki, ingilislər onların hüququna təcavüz etməyir, onları incitməyirlər. Əlbəttə, bizimlə də onlar arasında inciklik olammaz. Ona görədir ki, üç dövlət, sülhi-ümumiyədək Azərbaycanda asayiş və müsalimət [əmin-amanlıq] müdafiəsi üçün buraya əsgər göndərmək istədikdə, Hökumət və Milli Şura razı oldular. Çünki burası millətin hüquq və istiqlalına, Azərbaycanın mövcudiyyətinə bir zərər və qüsur görülməyirdi. Bizim rizamızla Müttəfiqlər gəldilər. Şimdi görürsünüz ki, heç bir zərər də olmamış və hüququmuzu əlimizdən almamışlardır. Millətin haqqı, hüququ və həqqi-idarəsi [idarəetmə haqqı] olan daxili işlərimizə əsla qarışmayırlar. Bunlar öylə millətlərdir ki, bunlardan xəta baş verməz.

Bununla bərabər, öhdəmizə düşən vəzifələrdən biri də Qafqaziyada əmələ gəlmiş, bəzən din və qan qardaşımız və bəzən qonşularımız tərəfindən elan edilmiş yeni hökumətlərlə münasibat və əlaqəmiz məsələsi idi. Hökumət dostluq hüsulu üçün var qüvvəsi ilə çalışdı.

Gürcüstanla aramızda heç bir ixtilaf olmamışdır. İki qardaş arasında da mübahisə olur, fəqət ümum mübahisəli məsələlərimiz dostanə bir surətdə həll edilir.

Şimali Qafqaziya daha yaxın olub, həmişə sözümüz, işimiz, yolumuz bir olmuş, biri-birimizə kömək etmişik. Aramızda heç bəhs [mübahisə] olmamışdır.

Ermənistanla da aramızda öylə mühüm ixtilaf olmamışdır. Doğrudur, zikr etdiyim iki hökumətlə olduğu kimi, Ermənistanla dostluq olmamışdır. Bunun da səbəbi, şahid olduğumuz hadisatdır. Bu hadisələrin vüquuna təəssüf edəriz. Heç kəs də təəssüf etməyə bilməz. Bu son aylarda ermənilərlə müsəlmanların arasında vüqu bulmuş olan müharibəyə, incikliyə tərəfeynin [hər iki tərəfin] yekdigərinə [bir-birinə] zülm və əziyyət vermələrinə kim təəssüf etməz? Həmin bu hadisələrdir ki, Ermənistanla dostluğumuza mane olmuşdur."

Bədəhu zəbtiyyə [asayiş; təhlükəsizlik] və ədliyyə təşkilatından, məktəb və məhkəmələrin milliləşdirilməsindən bəhslə Rəisi-vükəla [Baş nazir] həzrətləri Parlamanın tənqidini xeyirli, lüzumlu gördüyünü bəyanla, yol göstərilməsini arzu edir və bu sözlərlə nitqlərini bitirərək bütün hökumətin istefasını verir:

"Hökumətin fəaliyyətində nə qədər qüsur və nöqsan olmuşsa da, yol göstərən işıqlı ulduzu bu olmuşdur:

Millətin hüququ, istiqlalı və xeyri!"

### TƏƏSSÜRAT

Parlamanımız açıldı, gördük. Fətəli xan doğru dedi ki, yatsaydıq da yuxumuza girməzdi.

Əvvəla, ingilislərin qeydkeşliyi [diqqəti]: Hürriyətimizin bədxahları tərəfindən, Parlamanımız açılması münasibətilə məbada bir şuluqluq büruzə verməsin və versə də filfövr [dərhal] qabağı alınsın deyə Parlaman imarəti yanında – ki Hacının qız məktəbidir – ingilislərin iki ədəd zirehli avtomobili dayanıb, içindən görünən topları ağzını açıb, gəlib-gedənə guya "Dinc dur!" deyirdi. Zatən o səmtdən gəlib-gedən heç yox idi. Çünki Azərbaycan polisi imarətin "bir ağaclığından" – qoy mübaliğə olsun – adamları keçməyə qoymayıb, ancaq məbuslara və Parlamana girmək haqqı vəsiqəsinə malik olanlara izn verirdi. Parlaman imarətinin içində zinət cümləsindən calibi-diqqət olan [diqqəti özünə cəlb edən] şey – qiymətli xalılar deyildi, bəlkə fiatı ucuz, lakin mahiyyəti-milliyyə və siyasiyyəsi [milli və siyasi mahiyyəti] dedikcə baha olan üçrəngli milli bayrağımız idi.

Məhəmməd Əmin, nitqi-iftitahisində [açılış nitqində] bu üç rəngin: türkləşmək, islamlaşmaq və müasirləşmək amalı əlamətindən ibarət olduğuna işarə ilə "Bu bayraq endirilməz!" dedikdə bütün Məclis ayağa qalxıb əl çala-çala bayraqları salamlarkən, təəssürati-fövqəladəmdən başımın tükləri biz-biz durdu. Nədənsə bu fəqərə dəxi yadıma düşdü ki, görəsən küçədə zirehli avtomobillər olmayıb, heç bir nəfər də polis və ya qoşun əhli görülməsəydi, bugünkü günün şərəfinə toxunmaq kimi ədəbsizliyə bir kəsdə cürət ola bilərdimi? Məncə, yox. Çünki bu müqəddəs Məclisin imarət dəlik-deşiklərindən belə dişarıya tərəf nəbəan etdiyi [fışqırdığı] əzəməti-mənəviyyəsindən o dərəcə mütəəssir olardı ki, əli-qolu boşalıb dili də bağlanardı.

Məclisin açılmaq saatı yaxınlaşdı. Tamaşaçılar – ki içlərində müsəlman xanımları az deyildi – boş yerləri doldurdular. Məbuslar hər kəs öz məxsusi yerini tapıb oturdular. Qəzetə yazıçıları kağız və qələmlərini hazırlayıb müntəzir durdular. Ministrlər, müavinləri ilə bərabər öz yerlərinə keçib cərgə ilə oturdular. Bir lojaya sığmayıb sağ və sol iki loju doldurdular.

Bunların hamısı başıaçıqdırlar bir nəfərindən savayı: görünür ki, soyuqdan qorxurmuş. Həqiqət, çox soyuqdur.

Hamı amadə [hazır] olub intizarda ikən Milli Şura rəisi Məhəmməd Əmin Rəsulzadə cənabları rubəru [üzbəüz] qapıdan çıxıb məqami-sədarətdə [rəyasət kürsüsündə] üzü Məclisə tərəf ayaq üstə bir vəziyyət aldıqda, hazirunun [iştirakçıların, orada olanların] intizarı dönüb diqqətə münqəlib oldu [çevrildi].

# «AZƏRBAYCAN» qəzetinin 1918-ci il 9 dekabr (Bazar ertəsi) tarixli 60-cı nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

Məhəmməd Əmin, qəlbən nikbin və nikbinlikdə də sabitqədəm olduğuna dəlalət edən açıq və gülər bir üz və yerə baxmaq adəti olmayan bir gözlə məbuslara xitabən nitq söyləməyə başladı.

Padşahlı məmləkətlərdə Məclisi-Məbusanı padşah açar, amma Azərbaycan Cümhuriyyətinin Məclisi-Məbusanını bir nəfər vətən övladı açdı.

Məhəmməd Əmində – natiqlikdə "patent" qazanmış olan "orator"lara məxsus qol atma, baş oynatma, üz-gözünü sifətdən-sifətə dəyişmə kimi hərəkətlər yox idi.

Bunların əvəzində özgə bir hal var idi ki, o da getdikcə qızışıb sözlərinin dəruni-qəlbdən [səmimi-qəlbdən, ürəyinin içindən] söyləndiyini eşidənlərə hiss etdirməklə dərin bir təsir oyatmaq idi.

Qol atmaqdan, bu yaxşıdır. Bunda ixlasi-qəlb [təmiz ürəklilik] və səmimiyyətlə bərabər, sərd edilən [söylənən] kəlamda bir də böyük bir ciddiyyət mövcud olduğuna hər kəs inanıb, natiqin hər bir sözünə lazımınca əhəmiyyət verilirdi. O idi ki, hər bir cümlə axırında alqışlar yağırdı.

Natiqin nitqini bugünkü nömrəmizdə oxuyarsınız. Mənim məqsədim gördüklərimi, təəssüratımı söyləməkdir.

Növbət, ministrlər rəisi Fətəli xan Xoyskiyə yetişdi.

Xüdavəndi-aləm hər yerdə istibdad varsa, evini yıxsın, necə ki, rus istibdadının evini yıxdı. Qoyurdularmı ki, vaxtında dilimizi öyrənək ki, yeri düşəndə danışarkən fikrimizi söyləməyə söz axtarmağa möhtac qalmayaq!

Bavücudi-in [bununla birgə], Fətəli xan çox da duruxa-duruxa danışmırdı; dilinə hətta "rəvan" demək də caizdir. Anasından öyrənmiş dilinə, bir qədər də türk qəzetələri mütaliəsindən və bir də Osmanlı-türk qardaşlarımızla bir müddət təmasda bulunub, deyib-danışmaq məcburiyyətindən hasil olan sözləri qatıb bir dil düzəltmişdi ki, onunla ifadeyi-məram edirdi.

Fətəli xan, zatən nitq söyləmirdi. O, məbuslar əfəndilərlə dərdləşmək istəyirdi, dərdini söyləyib şikayət edirdi:

– Xaricdə qarışıqlıq və daxildə pərişanlıq ola-ola, xəzinədə bir köpük pul və meydanda bir nəfər əsgər olmaya-olmaya bizi hökumət seçib dedilər ki, gərək bu işləri düzəldəsiniz. Biz də – necə ki görürsünüz – mümkün qədər düzəltdik. Pul da var, yol da var və sairə.

Məclis, Rəisi-vüzəranın [Baş nazirin] sözlərinə diqqət və sükutla qulaq verirdi. Ancaq sağ tərəfdə kim idisə, xısın-xısın pıçıldanıb rəisin sözünə bir kinayə buraxırdı.

Zənnimcə, Fətəli xanın "şikayəti" Parlaman əksəriyyətinin qəbuluna məzhər olmayacaq deyil.

"Deklarasiya"nın müzakirəsi sonraya qaldı. Doğrudur, "Fətəli xan kabinəsinin əvəzində özgə bir kabinə olsaydı, işləri daha gözəl aparardı" deyənlər olacaqdır. Ancaq, "Bəlkə özgə kabinə heç bu işləri də görə bilməyəcəkdi" deyənlər də az olmayacaqdır.

Fətəli xanın "tənqid etmək asandır, amma işi görmək çətindir" sözlərinə çox adamlar şərikdir.

Sağda oturan "İttihad" fraksiyası, özlərindən sol olan fraksiyaları bir məsələdə qabaqladı. Hətta bir dərəcəyə qədər "məhcub" belə etdi ki, "utandırdı" sözündən bir az yüngüldür. "İttihad", Parlaman açılmaq bayramı münasibətilə siyasi dustaqların əfvi-ümumisi [amnistiya] təklifini etdi. Fraksiya namindən bu təklifi irad edən [söyləyən] "İttihad" əzası [üzvü] "özgələrə səbqət" etmək [başqalarını qabaqlamaq] arzusunun cuşundan karıxıb "siyasi" sözünü unutmaqla bir çoxlarını qorxutdu. Kənardan tez "siyasi" sözünün əlavəsi mətləbi aşkar etməklə təskinə səbəb oldu.

Cavan Parlamanımızın birinci iclasından hasil olan təəssürat, gələcək əndişələrimizin [narahatlıqlarımızın] zail ediləcəyinə [aradan qaldırılacağına] ümidlər verib, indiki övzamızın [vəziyyətimizin, halımızın] da bir dərəcəyə qədər hiss etdiyimiz ağırlığı müqabi-lində qəlbimizdə təsliyətamiz [təsəlli verən] bir hiss oyadır.

Allah kömək etsin.

*Üzeyir*

## PARLAMAN ƏTRAFINDA

Parlaman güşadı [açılışı] münasibətilə günahsız olaraq cəzalara düçar olmuş Ordubad əhalisi namından birinci Azərbaycan Parlamanına öz "salam"ımızı göndərməklə səmimi-qəlblə gələcək fəaliyyətdə müvəffəq olmasını rica və istirham [xahiş] ediriz. Biz inanırız ki, Parlaman bütün Qafqaziya müsəlmanlarının əmrlərini, azad yaşamağa qadir olduğumuzu bütün kainata bildirməklə yerinə yetirəcəkdir. Allahu-təala həzrətləri, müqəddəs vəzifəni ifada Parlamanımızı müvəffəq buyursun.

Ordubad əhalisi bu qərardad ilə öz Parlamanlarına müavinətdən [köməkdən] çəkinməyəcəklər. Ordubad əhalisi səmimi-qəlblə bütün islamları Parlaman güşadı ilə təbrik edir.

*Müvəkkil: Hacıyev*

## TƏSHİH [DÜZƏLİŞ]

Dünkü nömrəmizdə Parlaman iclası haqqında verdiyimiz məlumatda Heyəti-rüəsa [Rəyasət heyəti] seçkisi haqqında yazılmışdır ki, Əlimərdan bəy ilə Həsən bəy Ağayevin namizədliyi ittihadi-ara ilə [yekdilliklə] qəbul olundu. Halbuki "İttihad" firqəsi, Əlimərdan bəyin namizədliyinə etiraz etməyərək, Həsən bəy Ağayevin namizədliyinə rəy [səs] verməmişdir.

## BAKI NEFT TİCARƏTİ VƏ ONUN MÜXTƏSƏRCƏ TARİXİ

II

Hələ Bakı xanları dövründən qalmış üsulu, rus hökuməti də tamam 66 il (1872-ci ilədək) məhfuz [qorudu] və riayət etdi. Bu üsula ruslar "otkup" (откупъ) dedilər və o da bundan ibarət idi ki, mövcud neft quyularını müəyyən bir məbləğə sahibi-nüfuz bir və ya bir neçə adama verirdilər ki, onlardan başqa sairlərinin neft işlərinə qarışmağa ixtiyarları yox idi. İndiki bəzi ziyarətgahlarımız məhz şeyxlərə və onların övladına müxtəss [məxsus] bir mal olduğu kimi, neft quyuları da o vaxt bir neçə adamın mali-şəxsiyyəsi [şəxsi malı] hesab olunurdu.

"Otkup" üsulu, neft ticarəti üçün böyük bir duzax [tələ] kəsilmişdi. Quyuların ədədi məhdud və onlardan hasil olan neftin də miqdarı artmazdı. Bu neft bugünkü kimi xaric məmləkətlərə getməyib, ancaq Qafqaz ətrafında satılırdı.

Neftin böyləcə haləti rus hökumətini çoxdan düşündürürdü. Buna bir çarə arayıb xəzinənin neft cəhətindən mədaxilini artırmağa ciddü cəhd olunurdu.

Bu cəhətdən Kokorevin Bakıdakı atdığı neft fontanı və o biri cəhətdən də bu hallarda Amerika neft mədənlərində buruqların böyük bir tərəqqi göstərməyi rus hökumətini cürətləndirib, "otkup" əvəzinə yeni bir layihənin təsdiqlənməsinə hökuməti vadar etdi.

1872-ci ildə "otkup" üsulu fəsx olundu [aradan qaldırıldı]. Neft hasil etmək və onun ticarəti ilə məşğul olmaq ixtiyarı hər bir rus təbəəsinə verildi və bunun dalınca dəf'ətən [bir dəfədə] Bakı ətrafındakı xəzinə yerlərindən dörd yüz altmış (460) desyatin yer mübaiyə (rusca torq) vasitəsilə xahiş-məndlərə [istəyənlərə, tələb edənlərə] satıldı. Yerlərin bir çoxunda neft əlaməti olmadığı üçün qiymətləri çox ucuz təyin olunmuşdu. Bu şərtlə ki, o yerdə quyular buruqlarla qazılsın. Yerlərin satış qiymətlərindən əlavə, bir də icarə qiymətləri var idi ki, ildə hər desyatinə 10 manat və 24 ildən sonra da desyatinə 100 manat qoyulmuşdu.

Hər bölükdə 10 desyatin yer olmaq üzrə həmin 460 desyatini 46 parçaya bölüb, bunların hamısına rus hökuməti 552 min manat satış qiyməti təyin etmişdi.

Torqda iştirak edənlərin hamısı məhz rus sərmayədarları olmuşdu ki, məşhurları Mirzoyev, Kokorev və Qubonin idi. Bunların təsəvvürüncə bu 46 bölükdən əlavə daha artıq neft yerləri yoxmuş! Bu yanlış mülahizə ilə torqun qiymətlərini birə yüz, birə min artırdılar. Odur ki, bu yer satışından rus xəzinəsinə üç milyona qədər pul daxil oldu. Məsələn, Balaxanı yerlərindən 40 desyatinə Mirzoyev 1 milyon 222 min və Kokorev ilə Qubonin də 60 desyatinə 1 milyon 323 min manat pul vermişdilər. Bunlar 1874-cü ildə birləşib "Bakı Neft Cəmiyyəti" adlı bir şirkət yapdılar ki, neft aksioner cəmiyyətlərinin birincisi və ən qədimi budur.

Şirkətin işləri əvvəlki 30 illərdə yaxşı getməmişdir. Aralığa buraxılmış yeddi milyon yarımlıq aksiyalar tamam satılmayıb qalmışdır. Binabərin [bu səbəbdən], aksiyaların qiymətini azaltmağa məcbur olmuşdular. Ona görə aksiyaların tənəzzülü getdikcə artıb, axırda 1894-cü ildə iki milyona qədər enmişdir. 1906-cı ildə firəng sərmayədarları bu şirkətə daxil olub cəmiyyətin tərəqqisinə çalışırlar və məramlarına da çatırlar. Böylə ki, aksiyalar tamam və kamal öz qiymətlərindən də artığa satılıb sahiblərinə mənfəət də gətirməyə başlayırlar. 1914-cü ildə şirkətin mənfəəti 100-ə 50 faiz (50 %) olmuşdu.

İştə birinci rus şirkəti ancaq əcnəbi sərmayəsi ilə dirilib şərafətyab olur [etibar qazanır]!

Nədənsə rus tacirləri Bakıdakı neft işlərinə soyuq baxıb maya buraxmağa cürət etməyirlər. Məsələn, 1877-ci ildə məşhur altun taciri Sidorov (Сидоровъ), ticarət məqsədi ilə Bakını ziyarət edib bir qara qəpik də belə neft işinə qoymaq istəməyir. Sonrakı il Moskva milyonçularından Şibayev gəlir, o da neftə yox, ancaq xırdaca bir kükürd cövhəri zavodu açmağa cürət edir. Sonralardan işi böyüdür, bir yağ şöbəsi də açır. Axırda aksioner cəmiyyəti halı ilə Şibayevin də işləri ingilislər əlinə keçir.

Rus sərmayədarlarının cürətsizliyi davam edib durarkən, hələ o vaxtlar İsveç təbəələri bulunan Nobel bəradərləri Bakı neftinə əl uzadırlar. 1879-cu ildə Nobel qardaşları üç milyonluq bir sərmayə ilə "Bəradərani-Nobel Şirkəti" adlı Bakıda bir neft ticarəti açırlar. Rus sərmayədarlarının bacarıqsızlığı və cürətsizliyi bu təzə əcnəbi şirkətinin az bir vaxtda parıldayıb möhkəmləşməsinə ümdə bais olur. Odur ki, şirkət müəssisləri [qurucuları] əsas sərmayəyə 1881-ci ildə üç milyon, 1882-ci ildə dörd milyon və 1883-cü ildə də beş milyon əlavə edib az bir vaxtda sərmayəni on beş milyona yetirdilər. Bu qədər böyük bir məbləğlə Abşoran tamam neft işlərində ağalıq və rəislik etmək yaqin ki, çətin deyildi.

"Bəradərani-Nobel Şirkəti" ərsəyə gəldiyi gündən Bakı nefti üçün yeni bir dövr, təzə bir əsr başlanır ki, bu barədə gələcək üçüncü məqaləyə müraciət buyurula.

*Fərhad Ağazadə*

## TELEQRAF XƏBƏRLƏRİ (Royter acentəliyindən)

* Xəbərlərə görə Vilson kanuni-əvvəlin [dekabrın] 12-sində Fransaya gedəcəkdir.

* Vıborq şimalında bolşeviklər quruya əsgər çıxarmaq istəmişlərsə də, geri atılmışlardır. Bolşevik gəmiləri Finlandiya boğazına nəzarət etməkdədirlər. Helsinqfors ilə Revel arasındakı münasibat [əlaqə] qət edilmişdir [kəsilmişdir].

* "Lokal-Anzeyqer" alman qəzetəsi xəbər verir ki, Leypsiqdə olan Şuralar Ordu Baş ərkanının [Baş qərargahının] tərxis edilməsi ilə Hindenburqun həbs edilməsini qərara almışlardır.

* Lloyd Corc, Nyukasldа irad etdiyi [söylədiyi] nitqində demişdir ki, Müttəfiqlər hal-hazırda zərərlərin verilməsi məsələsinə baxmaqdadırlar və hökumət Almaniyanın zərərləri ödəmək qüvvəsində olub-olmadığını layiqincə təftiş etməkdən ötrü bir komissiya vücuda gətirmişdir.

* Verilən xəbərlərə görə, Vilson özü Sülh Konfransı nümayəndələrinin başında olacaqdır.

* Peştədən verilən teleqraf xəbərlərinə görə 70 min nəfərdən ibarət Makenzen ordusu Fransa Hökumətinin tələbatına görə Venqriyaya cəm ediləcəkdir.

* Ştutqartdan verilən xəbərlərə görə Vürtemberq kralı təxtisəltənətindən əl çəkmişdir.

* İngiltərə əsgərləri Tirol şəhərinə daxil olmuşlardır.

* Mütarikə şəraiti mövcibincə [atəşkəs şərtlərinə əsasən] Almaniya zərərləri verməyə başlamışdır. Almaniya Hökuməti Müttəfiqlərə 300 milyon funt-sterlinq qızıl vermişdir. Bu qızılları almanlar Rusiyadan almış imişlər. Bu məbləğ, sülh əqd edilənə [imzalanana] qədər Müttəfiqlər əlində qalacaqdır.

* Berlindən verilən rəsmi məlumatda Saksoniya kralının təxtisəltənətdən əl çəkməsi xəbər verilir.

* Parislə London arasında aeroplanlar ilə sərnişin münasibatı [daşınması] başlanmışdır.

## SÜLH ƏTRAFINDA

* Mövsuq [etibarlı] mənbələrdən verilən xəbərlərə görə, Müttəfiqlər arasında olan konfrans qətnamələri Sülh Konfransında istinad edici ümumi siyasət əsası olaraq təsdiq olunmaqdan ötrü, imperiya əsgəri şurasına verilmişdir. Müəyyən surətdə izhar edilir ki, Müttəfiqlər həmrəydirlər və İngiltərə nümayəndiliyi tərəfindən müavinətə [yardıma] dəxi malikdirlər. Aşkar olmuşdur ki, Müttəfiqlər Konfransı Vilhelmlə Kronprinsin müharibə zamanında beynəlmiləl hüquqlarını xələldar etmələrinə görə təslim edilmələri tələbatına tərəfdardır.

* "Havas" acentəliyi xəbər verir ki, Müttəfiq dövlət başçıları Lloyd Corc, Orlando, Balfur, Sonnino və Hauz gələn ilin əvvəlində Versalda dəvət ediləcək Sülh Konfransına qədər aşkar edilmələri lazım olan bir çox məsələlərin müzakirəsindən ötrü Parisə cəm olmuşlardır. Vilson bu tezlikdə Avropaya gəlməlidir. Lakin müharib [savaşan] dövlət başçısı olduğuna görə konfransda iştirak edə bilməz. Sülh Konfransı bir çox məsələlərdən başqa Elzas-Lorenlə Almaniya arasında olacaq təzə sərhəd məsələsini dəxi həll etməlidir. Böylə zənn olunur ki, Almaniyaya 1790, 1814 və 1860-cı illərin sərhədlərindən birini intixab etmək [seçmək] haqqı vagüzar ediləcəkdir [veriləcəkdir].

* Parisdən verilən nim-rəsmi [yarı rəsmi] xəbərlərə görə, Müttəfiqlərin Sülh Konfransı haqqında olan müşavirə məclisi kanuni-əvvəlin 1-dən tez başlanmayacaqdır. Müşavirə məclislə-rinin çoxu Parisdə vaqe olub, lakin Sülh Konfransı iclasları Versalda olacaqdır. Sülh Konfransının təzə il ibtidalarında dəvət ediləcəyi müşahidə olunur.

## BAKI XƏBƏRLƏRİ

* Dünən Müttəfiqlər komandası nümayəndələrinin hüzuru [iştirakı] ilə Rus Dövləti Bankı güşad edilmişdir [açılmışdır]. "Evelina" vaporunda Bakıdan aparılan bankın qiymətli əşyası da bank evinə daşınmağa başlanmışdır. Azərbaycan Dövlət Bankı başqa yerə köçür.

* Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Təminat Nazirliyi] müvəkkili tərəfindən qaçqınlar miyanında [arasında] səpmə yatalaq xəstəliyinin artması barəsində alınmış məlumatdan dolayı, Nafiə Nəzarəti təcili surətdə xəstəliyin önünü almaq üçün Hifzüssihhə Nəzarəti [Səhiyyə Nazirliyi] ilə etilafa [razılığa] gəlmişdir.

**Ərzaq məsələsi**

* Şimdi bazara un gətirilir. Bundan dolayı da çörəyin qiyməti ucuzlaşmışdır. Bunları nəzəri-etibara alaraq Mərkəzi Ev Komitəsi və Bələdiyyə İdarəsi Ərzaq şöbəsi, ehtiyat üçün saxladıqları arpa ununu əhaliyə verməməyi təhti-qərara almışdır. Un, ehtiyat surəti ilə saxlanacaqdır.

* Srağagün Ərzaq şöbəsi naminə altı vaqon buğda alınmışdır.

* Şəhər Ərzaq şöbəsi bu günlərdə əhali miyanında [arasında] adambaşı yarım girvənkə düyü vermək istəyir. İşbu düyü, ehtimala görə, Mərkəzi Ev Komitəsi tərəfindən paylanacaq düyü ilə bərabər veriləcəkdir. Bələdiyyə İdarəsi, Mərkəzi Ev Komitəsi ilə bu barədə etilafa [razılığa] gəlir. Böyləliklə adam başına bir girvənkə düyü alınacaqdır.

**Vaporlar vürudu [gəmilərin gəlişi]**

Srağagün saat 4 radələrində "Rəsul" nam [adlı] vapor Hacı-Tərxandan Bakıya varid olmuşdur [gəlmişdir]. Vaporda 500-ədək sərnişin gəlmişdir. Sərnişinlərin dediklərinə görə, Hacı-Tərxanda çörək yoxdur. Qiymət 12 manatadək qalxmışdır. Kartoçka ilə fəqət [ancaq, sadəcə] Şura adamlarına adambaşı yarım girvənkə çörək verilir.

Əhval Hacı-Tərxanda olduqca fənadır. Hər gün evlərdə və küçələrdə təftişlər icra edilməkdədir. Üst və isti əlbisəsi qoşun əfradı [əsgərlər] tərəfindən zorla alınır. Əhali həyəcan içində imrari-həyat edir [yaşayır].

## ARXADAŞLARIMA

Bugünkü həyəcanı nəzərə alıb, üzümü o fərar edən arxadaşlara çevirib deyirəm ki, əski zamanda silahın birini min manata alıb və fişəngin biri üçər manata alıb düşmən qarşısına çıxmağa hazırlanırdıq. Amma şimdi bizə nizam öyrədirlər, amma biz fərar edirik, çox ayıb olsun. Bu gün əsgərlikdən fərar etmək millətə, vətənə, islamlığa xainlik etmək deməkdir. O atalar ki çocuqlarına evdə yer verirlər, onlar da bu xəyanətə şərikdirlər. Mən atalarımızdan bunu xahiş edirəm ki, fərar edən çocuqlarının qulağından tutub, bir neçə sillə vurub gətirib zabitlərinə təslim etsinlər. Siz atalar çocuqların fərar etməyinə fəxr edib evlərinizdə yatmayın. Çocuqların fərar etməyi əhli-əyalınızı [ailənizi] satmaq deməkdir. Mən yenə üzümü çevirib deyirəm ki, ey əsgərlikdən fərar edənlər və əsgərliyə düşməyənlər! Gəliniz nizam öyrəniniz, nizam-silah altında kəndinizi, namusunuzu mühafizə edə biləcəksiniz.

*Birinci Azərbaycan Qolordusu [Korpusu], İkinci firqə [diviziya], Beşinci alay, Üçüncü tabor, On Birinci bölüyün əsgəri, bakılı Mirbağır oğlu Mirhaşım*

## İDARƏYƏ MƏKTUB

Müdiri-möhtərəm!

Qəzetənizdə bu qaç kəlmənin dərc olunması rica və təmənni olunur:

Hacı İbrahim Qasımzadənin (Qası-movun) təhti-müdiriyyətində çıxan "Bəsirət" qəzetəsinin 199-cu nömrəsində "Bakı xəbərləri" hissəsində böylə bir məlumat dərc edilmişdir:

"Dilənçi artist." 40 ildən ziyadə müsəlman səhnəsinə xidmət edən qoca artistlərimizdən Mirzə Muxtar, son hadisat [hadisələr] nəticəsi olaraq qayət müşkül hallar keçirir. Heç bir yerdə özünə xidmət bulmayan bu artistin böylə bahalıq zamanında dolanması, əlbəttə, müşküldür. Biz bu artistin böylə müşkül halını qarelərimizə [oxucularımıza] bildirərək, sənət və maarif naminə ona beqədriqüvvə [gücümüz çatan qədər] müavinət edilməsini təklif ediriz. Bu gün müsəlmanlar qoca bir artistinə yenə müavinət etməsələr, əcəba əcnəbilərmi edəcəklər? Mümaileyhə [adı çəkilən şəxsə] müavinət edənlər "Bəsirət" idarəsinə müraciət edə bilərlər."

Buna cavab olaraq bunu deyə bilərəm ki, Qasımzadə yazan "dilənçi artist" Mirzə Muxtar Məhəmmədovun halını düşünərək bizim müdiriyyət oktyabrın 1-də cari olan aktyorlar şurasında böylə qərar verdilər: Qoca artistimiz Mirzə Muxtar cənablarının həqiqətən ixtiyar olduğuna görə ona min-bə'd [bundan sonra] rol verib səhnəyə çıxarmaqla rahatı pozulmasın. Bu müşkül hallara düşməyib də biehtiyac məişət edə bilsin deyə hər bir oyunda ona daimi üç pay olaraq maaş təyin edildi və həman ayda iki oyun oynanıldı. Birincisində onun payına düşdü 72 manat 96 qəpik, ikincisində isə 60 manat 19 qəpik. Cümlətanı 133 manat 15 qəpik. Sonra bəzi səbəblərə görə oyunumuza tənəffüs verdik. Onda da nəinki Mirzə Muxtar, hətta cəmi artistlər pulsuz-parasız dolanmağa məcbur oldular. Şimdi isə genə oynamağa şüru etdikdə [başladıqda], Mirzə cənabları həmin üç payını alasıdır.

Mirzə Muxtar Məhəmmədovun bir tək başı olduğunu nəzərə alaraq, heç bir vəchlə güman etmək olmaz ki, müşarileyh [adı çəkilən şəxs], bu tez bir zamanda dilənçilik vəzifəsini ifa etməyə məcbur olsun. Çünki hər halda və zamanda Mirzənin pulu olmadıqda ona həm müdiriyyət və həm öz yoldaşları müavinət etməkdən çəkinməyiblər, çəkinməzlər də.

Burası cayi-sualdır [sual altındadır] ki, görən "Bəsirət" müdiri bu əhvalı Mirzə Muxtarın müraciətinə, şikayətinə görəmi yazıbdır, yoxsa öz-özündən yazmağı lazım bilibdir? Hərgah böylə isə "Bəsirət" müdiri Mirzə Muxtardan daha artıq möhtaci-ianə olan və gün uzunu külfətləri ilə belə ac qalan əhlü-əyal şərməndələri [kasıblıqdan arvad-uşaq yanında üzüqara olanlar] haqqında camaatdan kömək diləsəydi, daha gözəl bir iş görmüş olardı.

*Müdiriyyət tərəfindən: Zülfüqar bəy Hacıbəyli*

**İtibdir**

* "Qafqaz və Merkuri" şirkətindən Həsənağa Məlikov adına verilmiş 324419 və 324374 nömrəli qəbzlər və Rus Asiya Bankının 11851 manatlıq çeki etibardan saqitdir [etibarsızdır].

* Mirabbas Seyidhüseyn oğlu Mirbağırzadə və Mirələsgər Seyidhüseyn oğlu Mirbağırzadə və Fatma xanım Hacı Bağır qızı adlarında olaraq Bakı qaçqınlığında itmiş pasport etibarsızdır.

*293*

**Neft**

Satılır Çornıqorodda. Alıcıların öz qabı və neftin miqdarı 100 putdan az olmamalıdır. Xahiş edənlər 222 nömrəli telefonla müraciət etməlidir.

*296*

**Qabil diş qayıran Mirzə Xəlil Canıbəyzadə**

Qızıldan və sairədən hər cür əla dişlər münasib qiymətlə qayırır. Ünvan: Qubernski küçə, "İslamiyyə"nin sağ tərəfində ev nömrə 55.

*295 12 – 1*

**Diş həkimi B. L. Levin**

Dişlərə müalicə edir, doldurur, ağrısız çıxarır və qızıl və kauçuk üzərində süni diş qayırır. Tsitsyanovski caddə nömrə 7, Qubernskinin küncündə.

Qəbul edir: 9-dan 2-yə kimi; 4-dən 7-yə kimi.

*280*

**Doktor Hacı Fəthullah Ağaalizadə**

Böyüklərin və uşaqların daxili mərəzlərinə müalicə edir. Xəstələri qəbul edir hər gün səhər saat 8-dən 10-adək və axşam saat 4-dən 7-yədək Şamaxı küçəsində, 14 nömrəli evdə.

Telefon nömrəsi 19-27.

*289*

**Doktor Samuil İzrailoviç Kopelioviç**

Daxili və əsəbi mərəzə mübtəla olanları hər gün axşam saat 5-dən 8-ə kimi qəbul edir. "914" dəvasını [dərmanını] istemal edir [işlədir]. Voronsovski caddədə nömrə 17, ikinci mərtəbə. Telefon 50-82 və 93.

*282*

**Həkim Arşak Ayrapetoviç Akopyans**

Əsəbi və daxiliyyə naxoşluğuna mübtəla olanları axşam saat 3-dən 6-ya kimi qəbul etməyə başlamışdır.

Ünvan: Balaxanski caddədə nömrə 10, İstanislavski caddənin küncündən 3-üncü ev. Telefon 55-26.

**Arvad diş həkimi A. P. Matsiyevskaya**

Naxoşları qəbul edir. Nikolayevski caddədə ev nömrə 33, Krasilnikovun evi. Telefon nömrə 45-90.

Qəbul edir saat 10-dan 2-yə kimi, 5-dən 7-yə kimi.

*283*

**O. A. Salmanın Diş kabinəsi və süni diş müalicəxanası**

Dişlərə və ağza müalicə edir, ağrısız çıxarır, doldurur, qızıl və kauçuk üzərində süni dişlər qayırır və qızıldan qapaqlar qayırır.

Qəbul edir hər gün saat 9-dan 2-yə kimi, 4-dən 7-yə kimi. Naberejni caddədə Dombrovski pereulokda [döngədə] Mehdiyevin 7 nömrəli evində. Telefon nömrə 30-02.

*253*

**Mama M. K. Şerman**

Qəbul edir: mamalıq, ovmaq (massaj) və iynə vurmaq işləri. Həmçinin xəstələrə qulluq etmək işində də təcrübəsi vardır.

Ünvanı: Kolyubakinski küçədə Parapetin qabağında Dildarovun 26 nömrəli evində 2-nci mərtəbədə.

*Telefon 24-62*

**Doktor Rza bəy Sultanov Paris Darülfünunundan**

Qəbul edir daxiliyyə və əsəbi xəstələri hər gün saat 9-1-ədək, saat 4-7-yədək. Telefon 5-30. Adres: Parapet, Kolyubakinski küçədə nömrə 39. "Azərbaycan" qəzetə idarəsinin yanında.

*237*

**Mama-feldşer M. K. Markoviç**

Hamilə və azad olmuş qadınları qəbul edir. Bədənə dərman vurur və masaj edir. Hər gün saat 10-dan 12-yə kimi. Nijni Kladbişinski caddədə ev nömrə 89. Telefon 34-36. Burada həkim daxiliyyə və əmrazıtənasüliyyə [cinsi xəstəliklər], qadın və cərrahiyyə naxoşları saat 3-dən 5-ə kimi qəbul edir.

*240*

**Həkim S. L. Şklovskaya**

Mamalıq və daxili ünas əmrazını [qadın xəstəliklərini] qəbul edir. Naxoşlar qəbul olunur: səhər saat 9-dan birə və 5-dən 7-yə qədər. Ünvan: Aziatski küçədə nömrə 153, Bolşoy Marskoy və Krasnovodski küçələrin arasında. Telefon: 50-67.

Burada leyli [gecə] yatacaqlarıyla qadın cərrahiyyə xəstaxanası mövcuddur.

*209*

**Diş təbibəsi Altmanın diş müalicəxanası**

Naxoşları qəbul edir saat 8-dən 10-a kimi, 4-dən 7-yə kimi, qadınları 1-dən 3-ə kimi. Dişlərə müalicə edir, doldurur, ağrısız çıxarır və qızıl və kauçuk üzərində süni dişlər qayırır. Hərbilərə, məktəblilərə və çocuqlara külli faiz edilir.

Ünvan: Şamaxinski caddədə ev nömrə 20. Aptek qarşısında. Telefon 18-73.

*245*

**Arvad diş həkimi Z. A. Şexter xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qarma və hər növ qayırma dişlər. Dişin yaxşı qayrılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur 9-dan 2-yə və axşam 4-dən 7-yə kimi. Vorontsovski küçə, 14 nömrəli evdə, paradnı qapıdan.

*215*

**Müdir və baş mühərrir: Ceyhun bəy Hacıbəyli**

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***İnna lillahi və inna ileyhi raciun***

"İnna lillahi və inna ileyhi raciun": "Həqiqətən biz Allaha məxsusuq və həqiqətən Ona qayıdacağıq". Bu ifadə, "Quran"ın Bəqərə surəsinin 156-cı ayəsinin bir hissəsidir. Ayə belədir: "O kəslər ki, başlarına bir müsibət gəldikdə, həqiqətən biz Allaha məxsusuq və həqiqətən Ona qayıdacağıq, deyərlər."

"Hacı Qurbanəli və Qulamrza Abdullayev nəsəbi...": "Hacı Qarabağlı və Qulamrza Abdullayev Məşhədi Zeynəlabidin Abdullayevin vəfatı münasibətilə ki, birinci qardaşı, ikinci oğludur, böyük bir kədər və matəmlə dost-aşnalarına bildirirlər ki, Bakıda, Köhnə şəhərdə, dəniz qırağında Buxarski küçədə Cavad Vəliyevin evində bazar ertəsi və çərşənbə axşamı rəbiüləvvəlin 5-i və 6-sında mərhumun yas məclisində fatihə oxumaq üçün oturacaqlar, oraya təşrif buyursunlar." (Mətni farscadan Akademik Teymur Kərimli oxumuş və tərcümə etmişdir.)

***Təəssürat***

"…zail ediləcəyinə...": Qəzetdə səhvən "zail edilməyəcəyinə" yazılmış, növbəti (61-ci) nömrədə bununla bağlı düzəliş verilmişdir.

"Üzeyir": bu imza Üzeyir Hacıbəyliyə məxsusdur.

***Bakı neft ticarəti və onun müxtəsərcə tarixi***

"…bu barədə gələcək üçüncü məqaləyə müraciət buyurula.": qəzetdə "üçüncü" yerinə səhvən "dördüncü" getmişdir.

***Teleqraf xəbərləri***

"Finlandiya boğazı": Finlandiya körfəzi nəzərdə tutulur.

"…Hindenburqun həbs edilməsini qərara almışlardır.": Paul fon Hindenburq nəzərdə tutulur.

"Vürtemberq kralı": II Vilhelm (Almaniya imperatoru II Vilhelmlə qarışdırılmamalıdır) nəzərdə tutulur.

"Saksoniya kralı": III Fridrix Avqust nəzərdə tutulur.

***Sülh ətrafında***

"Kronprins": Almaniya imperatoru II Vilhelmin oğlu Fridrix Vilhelm nəzərdə tutulur.

***O. A. Salmanın***

Diş kabinəsi və süni diş müalicəxanası

Bu elan qəzetdə yarımçıq çıxmışdır.





# Mədəniyyət





**Azərbaycan kinosu - 125**

Azərbaycan kinosunun 125 yaşı tamam olur. Kino deyəndə, istər-istəməz ilk yada düşən 100 yaşlı "Azərbaycanfilm" kinostudiyası olur. Bu sənət məbədində indiyə kimi 250-yə yaxın tammetrajlı bədii film, 1000-ə yaxın sənədli film, minlərlə qısametrajlı filmlər, animasiyalar, kinojurnallar, kinoalmanaxlar, xronika materialları istehsal olunaraq xalqımızın dəyərli audiovizual xəzinəsini yaradıb.



## Kinomuzun uğurlu gələcəyinə ümid var

"Azərbaycanfilm" kinostudiyasının direktoru, Əməkdar mədəniyyət işçisi Nazim Hüseynovla söhbətimiz də Azərbaycan kinosunun bu günü və gələcəyi ilə bağlı oldu. N.Hüseynov dedi ki, kinomuzun olduqca qürurverici tarixindən iftixarla danışa bilərik. Müstəqillik illərində də bir çox uğurlu filmlər istehsal olunub. Filmlərimiz müxtəlif kinofestivalların qalibi olub, müsabiqələrdə iştirak edib, televiziya və media vasitəsilə tamaşaçılara çatdırılır. Təbii ki, Azərbaycan kinosunun bu günü barədə danışanda keçmişi haqqındakı hissləri yaşaya bilmirik. Amma vəziyyətin tezliklə düzələcəyinə, Azərbaycan kinosunun daha uğurlu gələcəyi olcağına daha çox ümidliyik. Bilirik ki, dövlətimiz milli mədəniyyətimizin, o cümlədən milli kinomuzun inkişafına həmişə xüsusi diqqət göstərib, heç vaxt öz qayğısını əsirgəməyib.

Nazim Hüseynov xüsusi vurğuladı ki, Azərbaycan Prezidenti İlham Əliyev 2022-ci ilin aprel ayında "Azərbaycan Respublikası Kino Agentliyi"nin yaradılması haqqında fərman imzalayıb. Bu fərmana görə, "Azərbaycanfilm" kinostudiyası da daxil olmaqla, nazirliyin tabeliyindəki kino qurumları bundan sonra fəaliyyətlərini agentliyin nəzdində davam etdirəcəklər. Bununla da ölkəmizdə kino strukturu köklü şəkildə dəyişəcək. Struktur formalaşdıqdan sonra kino qanunvericiliyinin yenilənməsi üzərində işlərin aparılması nəzərdə tutulur. Hazırda qüvvədə olan Kinematoqrafiya haqqında qanun 1998-ci ilin məhsuludur. Qüvvədə olan qanun müasir dövrün tələblərini özündə əks etdirmir. Müasir tələblərə cavab verən qanunun qəbul edilməsinə böyük ehtiyac var. Bundan başqa, Nazirlər Kabinetinin bir çox qərarları yenidən işlənməli və müasir dövrə uyğunlaşdırılmalıdır.

Nazim müəllim dedir ki, Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyası ölkəmizin ən böyük kino istehsalı şirkətidir. Mühitdəki hər hansı bir dəyişiklik, birbaşa bizdə də özünü göstərəcək: "Biz müasir kino mühitinə adaptasiya olunmaq, bu mühitdə, söhbət yerli mühitdən getmir, yaxın qonşulardan, potensial kino bazarımızdan, yəni türkdilli ölkələrdən və MDB ölkələrindən gedir, bu mühitdə bir fiqur, bir akor kimi özünü sübut etmək üçün "Azərbaycanfilm" yeni həmlələrə hazırlaşır. Klassik filmlərimizin MDB ölkələrinin televiziya kanallarında və müxtəlif video platformalarında yerləşdirilməsi üçün təklif və tələblər var. Ümumiyyətlə, filmlərimizin digər yeni kino bazarlarına, yəni yaxın Şərq ölkələrinə, Şərqi Avropaya satılması və izləyicilərə çatdırılması üzərində iş aparılır. Bilirsiniz ki, yutub kanalımızda artıq klassik və yeni filmlərimizin yüksək keyfiyyətdə yayımını həyata keçiririk ki, tamaşaçılar, xüsusilə də gənc nəsil bunları izləyib zövq ala bilsin. Əlbəttə, burada bəzi problemlərlə də qarşılaşırıq. Müxtəlif şəxslər və kanallar icazəsiz şəkildə filmləri paylaşırlar. Bizim məqsədimiz filmləri sistemləşdirilmiş, kompakt və yüksək keyfiyyətlə, həm də xarici dillərdə altyazı seçimi ilə yerləşdirməkdir. Tezliklə yeniliklərimiz, layihələrimiz mediadada da, cəmiyyətdə də öz müsbət təsirini göstərəcək".

Kinostudiyanın direktoru bizimlə söhbətində maddi-texniki bazanın yaradılmasından da danışdı: "Azərbaycanfilm"in maddi-texniki bazası 1980-ci illərə aid texniki avadanlıqlardan ibarət idi. Filmlərin istehsalı zamanı məcbur idik ki, avadanlıqları icarəyə götürək. Pandemiya dövrünə istehsalatda baş vermiş fasilədən istifadə edərək "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin dəstəyi ilə müasir, ən yüksək tələblərə cavab verən avadanlıqlar aldıq. Eləcə də digər maddi-texniki bazaya - yeni səsyazma studiyası, müasir kino çəkilişi üçün tələb olunan digər texniki şərtlərlə bağlı təkliflər paketini hazırlayaraq Mədəniyyət Nazirliyinə təqdim etmişik. Ümid edirik ki, "Azərbaycanfilm" kinostudiyası tezliklə regionun öndə gedən istehsalat bazasına çevriləcək".

Söhbət əsnasında qeyd edildi ki, 2020-ci ildən kinostudiyada tammetrajlı bədii film istehsal olunmayıb. Lakin 2022-ci ildən etibarən bir çox sənədli filmlərin istehsalı prosesi davam etdirilir. "Görünməyən qəhrəmanlar" sənədli filmlər silsiləsinin ilk 5 seriyası 2021-ci ildə təhvil verilib və İTV-də yayımlanıb. Növbəti 7 film isə 2022-ci ildə təhvil verilib. Xatırladaq ki, "Görünməyən qəhrəmanlar" sənədli filmlər silsiləsi Vətən müharibəsi dövründə müxtəlif qoşun növlərinin, onların qəhrəman əsgər və zabitlərinin keçdiyi şərəfli döyüş yolundan bəhs edir.

"ANAMA" adlı digər bir film isə işğaldan azad olunmuş ərazilərdə minaların təmizlənməsi prosesini həyata keçirən fədakar oğullarımızın həyatından bəhs edir. Filmin rejissoru və ssenari müəllifi Murad İbrahimbəyovdur. Digər bir film isə Mehmandarovlar sülaləsindən bəhs edir. "Millət naminə" adlanan sənədli filmin rejissoru Əməkdar incəsənət xadimi Yavər Rzayevdir. Çəkilişlər kinostudiyanın pavilyonunda və Şuşa şəhərində aparılıb. Mehmandarovlar nəslinin davamçıları çəkiliş prosesi zamanı Şuşada Mehmandarovlar malikanəsini də ziyarət etdilər.

Növbəti filmi Xalq artisti Vaqif Mustafayev ekranlaşdırıb. "Fikrət Əmirov" adlanan film 2022-ci ilin son ayında nümayiş olunub.

Bədii film istehsalı barədə nəzərdə tutulan planlardan danışan müsahibimiz vurğuladı ki, keçən il Qarabağ mövzusunda tammetrajlı bədii film ssenari müsabiqəsi elan edilmişdi. Bu müsabiqənin üç qalibi oldu: Mirsadıq Ağazadənin "Supəri", Türkan Hüseynin "Axırıncı palata" və Nicat Dadaşovun "Zirzəmi" ssenariləri. Nəzərdə tutmuşuq ki, ən qısa müddətdə hər üç filmi kinostudyanın istehsal planına daxil edək.

Kinostudiyanın direktoru onu da əlavə etdi ki, bu yaxınlarda "Start-2023" adlı layihə müsabiqəsinin qaliblərinin adları açıqlanıb. Adından da göründüyü kimi, tammetrajlı, qısametrajlı bədii filmlər və qısametrajlı animasiya filmi kateqoriyasında debüt filmlər çəkəcək yaradıcı şəxslərin də layihələri reallaşdırılacaq. Gələcək uğurlu ümid vəd edir. İnanırıq ki, Azərbaycan kinosu yeni mərhələyə qədəm qoyacaq.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

**Rəssamlarımız**

## Ənənəvilikdən müasirliyə gələn yol

Rəssam Aydın Əsgərov 1999-2003-cü illərdə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında bakalavr, 2003-2005-ci illərdə isə magistr təhsili almışdır. O, 2011-ci ildən Azərbaycan Rəssamlar İttifaqının üzvüdür. Rəngkarlıqla yanaşı, quruluşçu rəssam kimi də fəaliyyət göstərməkdədir.






A.Əsgərovun bədii üslub tərzi çox maraqlıdır, onun kolorit seçimi fovistləri xatırladır, cizgi və formaları isə ekspressionistləri yada salır. Abstrakt sənət nümunələri olduqca emosional, ifadəli və müasir bir biçimdə təqdim olunur. Fiqurativ səhnələri kətan üzərində icra edən rəssamın ən çox müraciət etdiyi qadın obrazlarıdır. Şux çalarlardan cəsarətlə istifadə edən rəssam, rənglərə dərindən bələd olduğundan onları uğurla əks etdirir. Aydın Əsgərovun əsərlərində canlılıq, cəsarət, azadlıq kimi qarışıq auralar hiss olunmaqdadır. Ritmik fırça vuruşları ilə rənglərin intensivliyini vurğulayan sənətkar realizmdən uzaqlaşmağı seçir. Kontrast rənglərin bərabərində, təhrif edilmiş formalar rəssamın innovativ baxış-nöqtəsini özündə ehtiva edir. Ənənəvi baxış bucağını məhv edən bu kompozisiyalar daxili əhvali-ruhiyyəni ustalıqla təmsil edir. Sənətkarın kompozisiyalarında digər əsas ünsür ümumi tarazlıqdır. Sadələşdirilmiş formalar və doymuş rənglər kətanın üzərində diqqətlə öz yerini tapır.

Sənətkar üçün yaradıcılıq müşahidədən başlayır. Toxunduğu mövzular, yaratdığı portretlər, fiqurlar, peyzajlar, marinalar, şəhər mənzərələri və s. olsa da, A.Əsgərov natürmortlara daha çox diqqət ayırır. Fırça ustası sanki, hər dəfə natürmort üçün kompozisiya qurduğunda, ona daxil olan bütün predmetləri "baş rol" kimi görür. Bu natürmort nümunələri abstraksiya və fiqurasiyanın harmonik kombinasiyalarının kətan üzərində təzahür tapmasıdır.

Aydın Əsgərovun "formanın mahiyyətini" ön planda vurğuladığı, natürmort janrında həll etdiyi əsərlərdən biri "Ananasla natürmort" isimli kompozisiyadır. Rəssam burada gerçək görüntüdən ziyadə, formanın mahiyyətini vurğulamaq istəmişdir. Qısa, dalğalı fırça vuruşları, kontrast rənglərin yaratdığı dinamika ilə bərabər şərti cizgilərin və sərt konturun qarşılıqlı əlaqəsinin arxasında tamamlanır.

Rəssamın "Calaq" isimli sənət nümunəsinə nəzər yetirək: burada iki bitki motivinə yer verilmişdir. Bu bitkilərdən biri kaktusdur. Digər bitki ilk baxışdan əzvayı xatırladır. Amma aqava bitkisinə də oxşamaqdadır. Rəssam bu səfər də kontrast rəng seçimlərindən istifadə etmişdir. Arxa fon ağ və qırmızı rəngdən ibarətdir. Kompozisiya qeyri-adi, maraqlı və müasir təəssürat yaradır.

Aydın Əsgərovun yaradıcılığında daha milli nöqteyi-nəzərdən yanaşdığı natürmort nümunələri də vardır. Onlardan biri "Adsız kilimlə" isimli kompozisiyadır. Təzad rəngləri ahəngdar bir şəkildə, ustalıqla kompozisiyada bütünləşdirən sənətkar öz zərif estetika duyumunu izləyicilərə təqdim etmişdir.

Aydın Əsgərovun fiqurativ aspektdən yanaşdığı, daha çox qadın obrazlarına yer verdiyi əsərlər isə optimist əhvali-ruhiyyəyə malikdir. Bu baxımdan rəssamın "Nəvaziş" isimli kompozisiyası olduqca müstəsna nümunələrdəndir. Bu mövzuda onun başqa bir sənət nümunəsi "Ani paxıllıq" isimli tablodur. Burada rəssam həm koloritdə, həm vizual formada, həm də əsas "məna"nın özündə kontrastlar yaratmışdır. Burada ən maraqlı nüans baxımsız, aqressiv və yorğun çöl pişiyinin öz sahibi ilə birgə gəzintiyə çıxan baxımlı və ürkək pişiyə tuşladığı baxışlardır.

Aydın Əsgərovun yaradıcılığında dərin, fəlsəfi görüşlərinin də təcəssümünü görmək mümkündür. Bu mahiyyətli düşüncələr daha çox simvolik biçimdə kətan üzərində öz yerini tapır. Buna misal olaraq "Səs" isimli kompozisiyanın adını çəkə bilərik. Bu həlim, zərif kompozisiyada fleytada ifa edən qadın obrazına yer verilmişdir. Zərif bir şəkildə, nəfis plastika ilə təsvir olunan qadın musiqinin sehrinə qapılmış, gözlərini qapadaraq tamamilə ruh aləminə keçid etmişdir. Burada diqqətçəkən detal arxa fonda göstərilən açıq qəfəs və fleytanın kənarına qonan kiçik quşcuğaz fiqurudur. Bu quş həmin musiqiçi qadının azad ruhunu simvolizə etməkdədir.

Aydın Əsgərovun yaradıcılığında mənzərə janrına da rast gəlmək mümkündür. Məhz onun kimi müasir və innovativ yanaşma tərzinə sahib bir sənətkarın mənzərə əsərləri də ifadəli, qeyri-adi və maraqlıdır. "Haça dağı" isimli peyzaj nümunəsinə diqqət yetirək: Naxçıvanın əzəmətli, təbii abidəsi "İlandağ" kimi də tanınan dağın təsvirini yaradan Aydın Əsgərovun palitrası tamam fərqlidir. Burada rəssam sanki öz duyğularını təbiətin dili ilə uyğunlaşdırmışdır.

Sirli, müəmmalı Bakı Aydın Əsgərov yaradıcılığında önəmli yer tutmaqdadır. Xüsusilə də İçərişəhər motivləri peşəkar rəssamın araşdırıb, kətan üzərində tətbiq etdiyi mövzulardandır. İçərişəhərin qapılarını araşdıran rəssamın bu maraqlı yanaşması "Tanımadığınız İçərişəhər" və "Təkkülbab" əsərlərində öz əksini tapmışdır. "Təkkülbab" isimli kompozisiyada iki fərqli cəftəli qapı görürük. Bu qapı qədim İçərişəhər qapılarındandır. Təkkülbab sözü iki fərqli cəftənin adıdır. Rəzə və ya təm də adlandırılan bu cəftələr Bakının qədim məişət həyatından, tarixindən az da olsa xəbər verir.

Aydın Əsgərov həm də modern və maraqlı posterlərin müəllifidir.

Hərtərəfli bacarığa malik sənətkar Aydın Əsgərovun yaradıcılıq fəaliyyəti müasir kontekstdə inkişaf etməkdə olan Azərbaycan rəngkarlığı üçün gözəl bir nümunədir.

*Nigar HƏTƏMOVA,*
*Azərbaycan Dövlət Rəsm Qalereyasının kiçik elmi işçisi*

**Teatr xadimləri**

## Sənətin zirvəsində

Ömrünə yazılan ilk illərin ünvanı Şuşa şəhəri olub. Görkəmli rejissor, teatrşünas, tənqidçi, pedaqoq Mehdi Məmmədov 1918-ci il mayın 22-də Şuşada dünyaya gəlib. Atası Əsədulla papaqçı olub.



Mehdi Məmmədovun uşaqlıq illəri çətin zamanlarda keçib. Araşdırıcıların yazdığına görə, elə dolanışıq, güngüzəran dərdi Əsədullanı vadar edib ki, ailəsini də götürüb Bakıya gəlsin. 1922-ci ildən Bakıda məskunlaşıblar. Bakıda 7 illik məktəbdə oxuyanda Mehdi Məmmədovun könlündə bir sənət sevgisi yaranıb. Onun aktyor olmaq arzusuna düşməsində o vaxtlar qadın rollarının ifaçısı kimi tanınan Cəlil Bağdadbəyovun təsiri olub.

Mehdinin aktyorluq istəyi dindar atasını hövsələdən çıxarıb. Əsədulla oğluna acıqlanıb və onu fikrindən daşındırmağa çalışıb. Ancaq atası Mehdi Məmmədovu fikrindən daşındıra bilməyib.

O, 1931-ci ildə yeddiillik məktəbi bitirdikdən sonra Bakı Teatr Məktəbinə daxil olmaq istəyib. Çəlimsizliyinə görə Mehdi Məmmədovu qəbul etməyiblər. Həmin il Bakı Türk İşçi Teatrının yardımçı heyətinə qəbul olunub. Həmin teatrın tamaşalarında kütləvi səhnələrdə çıxış etməyə başlayıb. 1932-ci ildə o, Bakı Teatr Məktəbinə daxil olub. 1935-ci ildə həmin məktəbi bitirərək təhsilini davam etdirmək üçün Moskvaya yollanıb. Moskvada Ali Teatr Sənəti İnstitutunda oxuyub. 1940-cı ildə Gəncə Dövlət Dram Teatrında Məmmədhüseyn Təhmasibin "Bahar" dramını diplom işi kimi tamaşaya hazırlayıb. Moskvada ali təhsilini tamamladıqdan sonra təyinatla Gəncəyə göndərilib. Gənc rejissor Gəncə Dövlət Dram Teatrında çalışıb. Həmin teatrda "Bahar", "Madrid", "İntiqam", "Qatır Məmməd", "Məşədi İbad", "Od gəlini", "Oqtay Eloğlu", "Toy", "Vaqif", "Nə yardan doyur, nə əldən qoyur", "İntizar", "Nizami", "Partizan Kostya", "Vasvası xəstə" əsərlərini səhnələşdirib.

1945-ci ilin sentyabrında Bakıya gəlib. Paytaxtın ayrı-ayrı sənət ocaqlarında müxtəlif illərdə tamaşalar hazırlayıb. 1946-cı ildə Şekspirin "On ikinci gecə" komediyasının tamaşası Milli Dram Teatrında ilk işi olub. Fasilələrlə bu teatrda "Yaşar", "Gənc qvardiya", "Aydınlıq", "Əliqulu evlənir", "Rəqs müəllimi", "Dağılan tifaq", "Çiçəklənən arzular", "Müfəttiş", "Mehmanxana sahibəsi", "Prokurorun qızı", "Yağışdan çıxdıq, yağmura düşdük", "Uzaq sahillərdə", "Şadlıq sorağında", "Alov", "Kəndçi qızı", "Canlı meyit", "Xəyyam", "İblis", "İnsan", "Meşşanlar", "Dəli yığıncağı" əsərlərinə səhnə quruluşu verib. Opera və Balet Teatrında isə o, "Sevil", "Lakme", "Azad", "Leyli və Məcnun", "Koroğlu", "Toska" operalarına quruluş verib. Rus Dram Teatrında Mehdi Məmmədov "Həyatın dibində", "Mənim Nadejdalarım" dramlarını səhnələşdirib.

Mehdi Məmmədov 1942-1945-ci illərdə Gəncə Dövlət Dram Teatrında, 1956-1960-cı illərdə Opera və Balet Teatrında, 1960-1963-cü illərdə Akademik Milli Dram Teatrında, 1978-1982-ci illərdə Azərbaycan Dövlət Rus Dram Teatrında rejissor kimi fəaliyyət göstərib. Araşdırıcıların yazdıqlarına görə, Mehdi Məmmədov rejissor kimi ən çox Akademik Milli Dram Teatrında tamaşalara quruluşlar verib.

Müəllimlik onun fəaliyyətinin ayrılmaz hissəsinə çevrilib. 1945-ci ildən ömrünün sonunadək Azərbaycan Dövlət Teatr İnstitutunda aktyor və rejissor sənətindən dərs deyib, kafedra müdiri olub. 1968-ci ildə "Azəri dramaturgiyasının estetik problemləri" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. 1960-cı ildən professor vəzifəsini tutub. Sənətşünaslıq doktoru Mehdi Məmmədovun "Azəri dramaturgiyasının estetik problemləri", "Teatr düşüncələri", "Teatrlar. Aktyorlar. Tamaşalar", "Hüseyn Ərəblinski". "Onun sənət ulduzu", "Moskva Akademik Bədaye Teatrı", "Aleksandr Tuqanov" (rus dilində), "Rejissor sənəti", "Sabit Rəhman" və digər kitabları nəşr edilib.

O, teatr sənətində ilk addımlarını aktyor kimi atıb. İşçi teatrında "Yanğın"da Gənc aqronom, "Kölgə"də Bəxtiyar, Teatr Məktəbində "Qaçaqlar"da Karl Moor, "Almaz"da Hacı Əhməd, Moskvada Lunaçarski adına Ali Teatr Sənəti İnstitutunda "Günəş övladları"nda Evstiqneyko, "Günahsız müqəssirlər"də Neznamov rollarını ifa edib.

Mehdi Məmmədov aktyorluq fəaliyyətini kino sənətində və Radio teatrında da davam etdirib. O, "Azərbaycanfilm"in 1959-cu ildə istehsal etdiyi "Onu bağışlamaq olarmı?" filmində Qaya roluna çəkilib. Radio teatrında Şekspirin "Hamlet" faciəsində baş rolu səsləndirib.

Sənətdə qazandığı uğurlara görə Mehdi Məmmədov 1949-cu ildə respublikanın Əməkdar incəsənət xadimi, 1958-ci ildə Azərbaycan SSRİ Xalq artisti, 1974-cü ildə SSRİ Xalq artisti fəxri adlarına layiq görülüb. 1984-cü ildə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında hazırladığı Hüseyn Cavidin "İblis" faciəsinə görə Azərbaycan Dövlət mükafatı alıb. "Oktyabr inqilabı" ordeni, iki dəfə "Qırmızı əmək bayrağı ordeni ilə təltif edilib.

Fəal teatrşünas olan Mehdi Məmmədov 1971-1976-cı illərdə Azərbaycan Teatr Cəmiyyətinin (indiki Teatr Xadimləri İttifaqı) sədri seçilib. Alimin "Rejissor sənəti", "Həyat və sənət yollarında" kimi elmi kitabları dəyərli dərsliklərdir.

Mehdi Məmmədov dövrünün məşhur sənətkarlarından olub. O, yalnız istedadı ilə deyil, həm də yaraşığı ilə seçilib, sevilib. Teatrşünas Aydın Talıbzadə "Mehdi müamması və ya sənətdə konseptual Hamletizm" adlı kitabında yazır: "...Və qızlar-qadınlar onun qamətinə, görkəminə, Hamletsayağı ədalarına, filosof görünüşünə, səsinin ecazkar tembrinə vurulub Mehdini necə ki, fanatları müasir "ulduzları"n hər addımını izləyir, bax eləcə izləyirdilər. Hətta öz şəxsi hesablarına bilet alıb onun ezamiyyətə getdiyi şəhərlərə yollanırdılar... Təki öz qəhrəmanlarına yaxın olsunlar, onunla təmasda olsunlar... Mehdi maqnit kimi qadınları özünə cəzb eləyirdi: ancaq bunun üçün məxsusi şəkildə heç bir səy göstərmirdi; hərçənd dəblə və səliqəli geyinməyindən də qalmırdı".

Mehdi Məmmədov aktrisalar Barat Şəkinskaya, Şəfiqə Məmmədova ilə evli olub. Barat Şəkinskaya ilə evliliyindən dünyaya gələn böyük oğlu Elçin Məmmədov məşhur teatr rəssamı idi. Digər oğlu Ülvi Mehdi (anası Şəfiqə Məmmədova) aktyor, kinoşünasdır. 1983-cü ildə altmış beş yaşlı Mehdi Məmmədov özündən xeyli cavan olan qadınla ailə qurub. Onların Vüqar adlı oğlu dünyaya gəlib. Vüqar Məmmədov rejissordur.

Mehdi Məmmədov 1985-ci il yanvarın 8-də qəflətən vəfat edib. Bakıda Fəxri xiyabanda dəfn olunub.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

**Xarıbülbül festivalı**



# Dünya olduğu kimi

## İqlim dəyişikliyi buzlaqların 2 faizinin əriməsinə səbəb olub

**Amerikanın "Geophysical Research Letters" jurnalında buzlaqların əriməsi ilə bağlı aparılan araşdırmaların nəticələri dərc olunub.**



Tədqiqatlar nəticəsində qlobal iqlim dəyişikliyinin son 10 ildə 2 milyard 720 milyon ton buzun əriməsinə səbəb olduğu aşkarlanıb. Onlar dünyadakı buzlaqların yüzdə ikisini təşkil edir. 80 min tondan çox buzlağın əridiyi Alyaskada buna isti havaların səbəb olduğu bildirilir.

Məlumdur ki, milyonlarla insan buzlaqlardan içməli su və kənd təsərrüfatında suvarma üçün istifadə edir. Buzlaq əriməsinin bu sürətlə davam edəcəyi təqdirdə okean sularının artacağı və bunun böyük fəlakətlərə səbəb olacağı gözlənilir.

## 3D çap üsulu ilə yeməli balıq istehsal edilib

**İsrailin "Steakholder Foods" şirkəti dünyada ilk dəfə olaraq 3D çap üsulu ilə balıq istehsal edib. Texnologiya Sinqapurda yerləşən "Umami Meats" şirkəti ilə ortaq şəkildə hazırlanıb. Qəribəsi isə odur ki, istehsal olunan balıq adi balıqlarla eyni dada malikdir.**



Bəzi mütəxəssislər dünyada balıqların sayının sürətlə azaldığını və yeni texnologiyanın bu problemi həll edə biləcəyinə diqqət çəkirlər.

"Steakholder Foods"un baş direktoru Arik Kaufman bununla bağlı qeyd edib ki, onların məqsədi qida təhlükəsizliyini təmin edəcək davamlı proses yaratmaqdır. Yeni məhsulun bir neçə ay ərzində satışa çıxarılması planlaşdırılır.

## Musiqinin növü yeməyin dadını dəyişir



**İsveçin Örebro Universitetinin alimlərinin apardıqları araşdırma nəticəsində məlum olub ki, yemək zamanı dinlənilən musiqi onun dadını dəyişdirir.**

Təxminən 500 nəfərin iştirak etdiyi araşdırmada tədqiqatçılar musiqinin müşayiəti ilə iştirakçılara fərqli yeməklər təqdim edib, daha sonra nəticələr əsasında bu qənaətə gəliblər. Araşdırmanın nəticələri "Journal of Gastronomy and Food Science" nəşrində dərc olunub.

Tədqiqatı aparan alimlərdən bir olan Yohan Svehn bildirir ki, yüksək musiqi tonları desertləri daha şirin edir, bu da daha az şəkər istifadə etməyə imkan verir: "Restoranlar bu üsuldan sağlam qidalanma üçün istifadə edə bilərlər. Enerjili pop mahnıları dadlandırıcı rolunu oynayır. Məsələn, ABŞ müğənnisi Castin Timberleykin "Can't Stop The Feeling" mahnısı şokoladı daha şirin edir. Daha həzin musiqiyə malik olan Dreykin mahnılarında isə şokoladın dadı olduğundan daha acı hiss olunur".

Alim onu da qeyd edib ki, musiqinin tempi insanların yemək sürətini də dəyişir.

## Karbon qazı qida məhsullarına çevrilə bilər

**Almaniyanın Münhen Texniki Universitetinin alimləri araşdırmalar nəticəsində karbon qazının təkrar emal üsulunun mümkün olduğu qənaətinə gəliblər. Onlar karbon qazından qida zülalının yaradılmasını təklif ediblər. Bu üsulla insanları qida məhsulları ilə təmin etmək mümkün olacaq.**

Kənd təsərrüfatı heyvanlarının yemlərində və insanların qidalarında istifadə edilən süni zülalın istehsalı üçün bəzi amin turşularına ehtiyac duyulur. Alman alimləri "L-alanin" və digər amin turşularının sintezləri üçün nəzərdə tutulmuş kimyəvi reaksiyaları da formalaşdırmağı hədəfləyiblər.

Qeyd edilir ki, "L-alanin" amin turşusunun sintezi üçün olan biokimyəvi reaksiyanın əsasında metanol dayanır. Bu zaman biokimyəvi reaksiyada bərpa edilən enerji mənbələri vasitəsilə karbon qazından əldə edilmiş "yaşıl" metanoldan istifadə edilir. Proses çərçivəsində metanol, sadəcə, köməkçi məhsul kimi istifadə edilir. Belə ki, karbon qazından birbaşa amin turşusunu sintez etmək mümkün deyil. Karbon qazından metanolu əldə etdikdən sonra alimlər sintetik fermentlərdən istifadə edərək onun vasitəsilə bir neçə kimyəvi reaksiyanı işə salırlar. Nəticədə qida zülalının sintezi üçün yararlı olan amin turşusu əldə edilir.




Məlumatda o da bildirilib ki, amin turşularının və zülalların sintetik şəkildə istehsal prosesləri zamanı ətraf mühitə heç bir zərər yetirilmir.

## "Kleopatra"nın rəngi misirlilərdə narazılıq yaradıb



**"Netflix" qədim Misir kraliçası Kleopatranın həyatı haqqında sənədli film çəkib.**

"Afrika kraliçaları: Kraliça Kleopatra" adlı filmin treyleri yayımlandıqdan sonra aktrisa seçimi misirlilərin narazılığına səbəb olub.

Belə ki, onlar Kleopatra rolunu qaradərili aktrisanın ifa etməsinə etiraz ediblər. Treylerin yayımlanmasından sonra tarixin yenidən yazılmasında ittiham olunan onlayn petisiya 8000-dən çox insan tərəfindən imzalanıb.

Misirin Turizm və Qədim Əsərlər Nazirliyi də sənədli filmin kastinq seçimi ilə bağlı məsələlərə fikrini bildirib. Nazirliyin bəyanatında qeyd edilib ki, Kleopatranın ağdərili olduğunu onun barelyefləri və heykəllərindən də görmək mümkündür. Bunun Misir tarixinə zidd olduğu və onu təhrif etdiyi vurğulanıb.

## Yeni 24 gözlü meduza növü kəşf edilib

**Çinli alimlər yeni 24 gözlü ürpərdici meduza növü kəşf ediblər.**

Honkonq Universitetinin Biologiya fakültəsinin tədqiqatçılarının apardığı araşdırmada "tripedalia maipoensis" adlı bu canlının formasına görə digər meduzalara bənzədiyi və onun "Cubozoa" kateqoriyasına aid edildiyi açıqlanıb. Lakin tədqiqatçılar canlını digər məlum növlərlə müqayisə edib genetik analizlər apardıqdan sonra onun yeni növ olduğunu müəyyən ediblər.

Bu kəşf "tripedalia" meduza ailəsindəki növlərin ümumi sayını 3-dən 4-ə çatdırıb. Uzunluğu 1 santimetrdən bir qədər çox və şəffaf olan meduzanın insanlara xəsarət yetirib-yetirmədiyi hələlik məlum deyil. Tədqiqatın rəhbəri professor Qiu Jianwen heyvanın "Artemiya" adlı kiçik karidesi iflic etdiyini bildirib.

## Saturnun halqaları yoxa çıxır

**"James Webb" Kosmik Teleskopu Saturnun halqalarının yoxa çıxmağa başladığını müəyyənləşdirib. Prosesin 1980-ci illərdən başladığı bildirilir.**



Yaponiya Aerokosmik Tədqiqatlar Agentliyinin tədqiqatçıları prosesin nə qədər sürətli olduğunu təyin etməyə çalışırlar. İndiyə qədər əldə edilən məlumatlar halqaların 300 milyon il ərzində tamamilə yox olacağını göstərir. Bu, uzun müddət kimi görünsə də, kosmik zaman şkalasında "sürətli ölüm" deməkdir.

## Notr-Dam kilsəsi yaxınlığında 2000 illik skeletlər tapılıb

**Dünyanın qədim tikililərindən biri olan Notr-Dam kilsəsinin yaxınlığında aparılan araşdırmalar zamanı heyrətamiz tapıntı və qalıqlara rast gəlinib.**



Tədqiqatçılar Notr-Damın yaxınlığında yerləşən qəbiristanlığın dərinliyində qadın və uşaqlar da daxil olmaqla, ən azı 50 insanın qalıqlarını aşkarlayıblar. Qazıntılar zamanı insan skeletləri ilə yanaşı, bəzi geyim qalıqları, məişət və zinət əşyaları da üzə çıxıb.

Qeyd etmək lazımdır ki, Parisin mərkəzində yerləşən Notr-Dam kilsəsi XII əsrə aiddir. Fransanın əsas memarlıq abidələrindən biri hesab edilən Notr-Dam ölkənin ilk xristian kilsəsidir.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Şəhid Orxan Novruzəlizadə son mənzilə izdihamla yola salınıb



Ermənistan silahlı qüvvələrinin şərti dövlət sərhədində törətdiyi təxribat nəticəsində Azərbaycan Ordusunun şəhid olan hərbçisi, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Orxan Novruzəlizadənin nəşi ailəsinə təhvil verilib. Ağstafa rayonunun Vurğun qəsəbəsində, şəhidin ailəsinin yaşadığı evdə vida mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, Orxanın 25 yaşı vardı. Ailədə iki qardaş, iki bacı olan Orxan evin son beşiyi idi. Zəhmətkeş ailədə böyümüşdü. Elə məktəbdə də, kənddə də onu sakit təbiətli, vətənsevər bir gənc kimi tanıyırdılar. Anası ötən il rayon ərazisində dəmir yolu xəttini qarşı tərəfə keçmək istəyən zaman qatarın vurması nəticəsində ölüb. Orxanla vida mərasimində rayon icra hakimiyyətinin rəhbərliyi, şəhid ailələri və qazilər, hərbçilər, hüquq-mühafizə orqanlarının rəhbərləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Şəhid hərbçimiz doğulub boya-başa çatdığı Vurğun qəsəbəsində yerləşən qəbiristanlıqda dəfn olunub. Üçrəngli Azərbaycan Bayrağı şəhidin atası Elxan Novruzəliyevə təqdim edilib.

Qeyd edək ki, Orxan Azərbaycan Ordusunda müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmət edib. Vətən müharibəsinin iştirakçısı olub. "Vətən müharibəsi iştirakçısı" medalı ilə təltif edilib.


# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |




**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Azərbaycan təmsilçiləri Vindzor Kral Atçılıq Şousunda ilk çıxışlarını təqdim ediblər

Böyük Britaniyada təşkil edilən ənənəvi Vindzor Kral Atçılıq Şousuna mayın 11-də start verilib. Dövlət Sərhəd Xidmətinin Mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, Vindzor qəsrinin ərazisində keçirilən tədbirdə Azərbaycandan Britaniyaya böyük yol qət etmiş 60 nəfərdən ibarət nümayəndə heyətinin ilk çıxışı olub.

"Dumanlı albion"un yağmurlu havasına baxmayaraq, 20 Qarabağ atı ilə Dövlət Sərhəd Xidmətinin rəqs ansamblı və süvarilər dəstəsi ölkəmizi növbəti dəfə yüksək səviyyədə təmsil edərək tamaşaçıların böyük rəğbətini qazanıb. Nümayəndə heyətinin təqdim etdiyi "Odlar Yurdu" adlı şou-kompozisiyanın əsasını çılğınlığı və gözəlliyi ilə seçilən Qarabağ atları, eləcə də zərif Azərbaycan rəqsləri və ecazkar milli musiqimiz təşkil edib.



Heydər Əliyev Fondunun dəstəyi, Azərbaycan Respublikası Atçılıq Federasiyasının təşkilatçılığı ilə hazırlanmış şou-kompozisiyanın quruluşçu rejissoru Əməkdar jurnalist Rövşən Cahangirov, xoreoqrafı Dövlət Sərhəd Xidmətinin rəqs ansamblının bədii rəhbəri, Əməkdar artist Fərid İbrahimov və süvarilər dəstəsinin quruluşçu təlimatçısı İmran Əhmədlidir. Milli musiqi alətlərimiz tütək, zurna, balabanın ifasında "Qarabağ cəngisi"nin bənzərsiz sədalarından, "Sərhədçi" rəqs ansamblının hərarətli rəqslərindən, Dövlət Sərhəd Xidmətinin süvarilər dəstəsinin Qarabağ atları üzərində igidlik və hünər nümunələrindən, qeyri-adi perfomanslarından ibarət şou-kompozisiya Böyük Britaniya tamaşaçılarını heyran edib. On beş dəqiqə davam edən şou müddətində süvarilərimizin Azərbaycan Respublikasının və Böyük Britaniyanın dövlət bayraqlarını dalğalandırmaları xüsusilə böyük marağa səbəb olub.

Şou-proqram tədbir iştirakçıları tərəfindən coşqu ilə qarşılanıb və tamaşaçıların zövqünü oxşayıb.

Nümayəndə heyətinin çıxışları mayın 14-dək davam edəcək.

# Yaşıl Kart Sistemi çərçivəsində fəaliyyət göstərmək hüququ olan sığortaçılar barədə elan

Yaşıl Kart sığorta növü üzrə İcbari Sığorta Bürosunun iştirakçı sığorta şirkətləri bunlardır: "AtaSığorta" ASC, "Atəşgah Sığorta" ASC, "Azərbaycan Sənaye Sığorta" ASC, "Azərbaycan Dövlət Sığorta Kommersiya Şirkəti", "A-Qroup Sığorta" ASC, "Bakı Sığorta" ASC, "Günay Sığorta" ASC, "Meqa Sığorta" ASC, "Naxçıvansığorta" ASC, "Paşa Sığorta" ASC, "Qala Sığorta" ASC, "Xalq Sığorta" ASC.

# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi general-leytenant İlqar Musayev Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümova əzizi

**SƏADƏT İBRAHİMOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Akademik Mehdi Mehdizadə (keçmiş Maksim Qorki) adına Cəbrayıl şəhər tam orta məktəbin 1980-ci il buraxılış, 10[a] sinfinin məzunları sinif yoldaşları Könül Məmmədovaya anası

**ROZA İSMAYIL QIZI MƏMMƏDOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 5792
Sifariş 1139

Qiyməti 40 qəpik